# 2016-2020-Ci İLLƏR ÜÇÜN BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI – AZƏRBAYCAN TƏRƏFDAŞLIQ ÇƏRÇİVƏSİ (UNAPF) SƏNƏDİ

*Bakı-2016*

# İmza səhifəsi:

2016-2020-ci illər üçün nəzərdə tutulan Birləşmiş Millətlər Təşkilatı – Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (UNAPF) BMT-nin qeyri-rezident agentlikləri də daxil olmaqla, Birləşmiş Millətlər Təşkilatının Azərbaycan Respublikasındakı İnkişaf Sisteminin Hökumət, inkişaf məsələləri ilə məşğul olan partnyorlar və digər tərəfdaşlarla birgə geniş və inklüziv məsləhətləşmələr əsasında hazırlanmışdır.

Bu sənədi imzalamaqla iştirakçı tərəflər UNAPF-ni təsdiq edirlər.

**Azərbaycan Respublikasının Hökuməti**

Şahin Mustafayev
Azərbaycan Respublikasının
iqtisadiyyat naziri

**Birləşmiş Millətlər Təşkilatının Ölkə üzrə İdarə Heyəti**

Qulam M. İshaqzai
BMT-nin Azərbaycan Respublikasındakı
Rezident Əlaqələndiricisi,
BMTİP-nin Rezident Nümayəndəsi və
BMT-nin Əhali Fondunun Nümayəndəsi

# Mündəricat

**Akronimlər**....4

**Ön söz**....5

**Öhdəliyin bəyan edilməsi**....7

**Xülasə**....8

**I Hissə: Giriş**....11

1.1 Yeni tərəfdaşlığa zəmin yaradan məqam: yaranan imkanlar və əsas çağırışlar....11

1.2 Birləşmiş Millətlər Təşkilatının güclü tərəfləri və əməkdaşlıq strategiyaları....22

**II Hissə: UNAPF-də strateji prioritet sahələr və gözlənilən nəticələr**....26

***1-ci strateji prioritet sahə***: Artan şaxələndirilmə və layiqli əməyi özündə ehtiva edən dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi....30

***2-ci strateji prioritet sahə:*** İnstitusional potensialın gücləndirilməsi, səmərəli ictimai və sosial xidmətlər....34

***3-cü strateji prioritet sahə:*** Ətraf mühitin idarə edilməsinin təkmilləşdirilməsi, risk və təbii fəlakətlərə qarşı dayanıqlılığın artırılması....39

**III Hissə: Təxmin edilən resurslarla bağlı tələblər**....41

**IV Hissə: İcra və idarəçilik üsulları**....44

**V Hissə: Monitorinq və qiymətləndirmə mexanizmləri**....47

**Əlavələr**....50

**1-ci əlavə**: UNAPF nəticələr və resurslar çərçivəsi....50

**2-ci əlavə**: UNAPF-dəki strateji prioritet sahələrə və nəticələrə agentliklərin dəstəyi....60

**3-cü əlavə**: Azərbaycanda *Vahid BMT fəaliyyəti* yanaşması ilə bağlı Birləşmiş Millətlər Təşkilatı sisteminin öhdəlikləri....76

**4-cü əlavə**: UNAPF üzrə İstiqamətləndirici Komitənin səlahiyyət dairəsi....85

# Akronimlər

| | |
|---|---|
| CEDAW | Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Konvensiya |
| CRC | Uşaq hüquqları Konvensiyası |
| CRPD | Əlilliyi olan insanların hüquqları haqqında Konvensiya |
| DRR | Fəlakət riskinin azaldılması |
| FAO | Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı |
| ÜDM | Ümumi Daxili Məhsul |
| HDI | İnsan İnkişafı İndeksi |
| HRBA | İnsan hüquqlarına əsaslanan yanaşma |
| ICPD | Əhali və İnkişaf üzrə Beynəlxalq Konfrans |
| MK | Məcburi köçkün |
| IFAD | Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fond |
| BƏT | Beynəlxalq Əmək Təşkilatı |
| BVF | Beynəlxalq Valyuta Fondu |
| BMqT | Beynəlxalq Miqrasiya Təşkilatı |
| M&E | Monitorinq və qiymətləndirmə |
| MİM-lər | Minilliyin İnkişaf Məqsədləri |
| MTR | Aralıq Müddət İcmalı |
| QYX | Qeyri-yoluxucu xəstəlik |
| QHT | Qeyri-hökumət təşkilatı |
| OCHA | BMT-nin Humanitar Məsələlər üzrə Əlaqələndirmə İdarəsi |
| PMT | Proqram İdarəetmə Qrupu |
| QCPR | Dördillik Əhatəli Siyasi İcmal |
| RBM | Nəticələrə əsaslanan idarəçilik |
| DİM-lər | Dayanıqlı İnkişaf Məqsədləri |
| UNAPF | Birləşmiş Millətlər Təşkilatı – Azərbaycan Tərəfdaşlıq Çərçivəsi |
| UNCTAD | BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı |
| UNCT | Birləşmiş Millətlər Təşkilatının Ölkə üzrə İdarə Heyəti |
| UNDAF | Birləşmiş Millətlər Təşkilatının İnkişafa Yardım üzrə Çərçivə Sənədi |
| BMTİP | Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı |
| UNECE | Birləşmiş Millətlər Təşkilatının Avropa üzrə İqtisadi Komissiyası |
| UNEP | Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı |
| UNESCO | Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət məsələləri üzrə Təşkilatı |
| UNFPA | Birləşmiş Millətlər Təşkilatının Əhali Fondu |
| BMTQAK | Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı |
| UNICEF | Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu |
| UNIDO | BMT-nin Sənaye İnkişafı Təşkilatı |
| UNODC | Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi |
| UNOHCHR | Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığı |
| UPR | Ümumi Dövri İcmal |
| DB | Dünya Bankı |
| ÜƏP | Ümumdünya Ərzaq Proqramı |
| ÜST | Ümumdünya Səhiyyə Təşkilatı |
| ÜTT | Ümumdünya Ticarət Təşkilatı |

# Azərbaycan Respublikasının iqtisadiyyat naziri və BMT-nin Rezident Əlaqələndiricisi tərəfindən ön söz

Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Millətlər Təşkilatının Azərbaycan Nümayəndəliyi adından 2016-2020-ci illər üçün Birləşmiş Millətlər Təşkilatı-Azərbaycan Tərəfdaşlıq Çərçivə Sənədini (UNAPF) təqdim etməkdən məmnunluq duyuruq. UNAPF hazırlanarkən, *"Azərbaycan-2020: gələcəyə baxış"* İnkişaf Konsepsiyasında qeyd olunmuş milli prioritetlərə uyğunlaşdırılmış və mühüm milli inkişaf prioritetləri, habelə 2015-ci ildən sonrakı inkişaf məsələləri və yeni dayanıqlı inkişaf məqsədləri nəzərə alınmışdır.

Sənəd iqtisadiyyat naziri və Birləşmiş Millətlər Təşkilatının Rezident Əlaqələndiricisi tərəfindən əlaqələndirilən əhatəli və ümumi məşvərət qaydasında işlənib hazırlanmışdır. 2014-cü ilin əvvəlində Azərbaycan Respublikası Hökuməti və BMT-nin Azərbaycan Nümayəndəliyi tərəfindən dəvət edilmiş milli tərəfdaşların, inkişaf məsələləri üzrə beynəlxalq partnyorların, elm ictimaiyyətinin, özəl sektor və vətəndaş cəmiyyətinin nümayəndələrinin iştirakı ilə UNAPF üçün strateji sahələrin müəyyənləşdirilməsi üzrə məsləhətləşmələr keçirilmişdir.

Məsləhətləşmələrdə BMT-nin Ölkə üzrə İdarə Heyətinin mandatına, mövcud insan, maliyyə və təbii resurslara uyğun olaraq, milli prioritetlərə dəstək göstərmək üçün potensiala malik sahələrə diqqət yetirilmiş, qadınlar, gənclər və əhalinin həssas qruplarının nümayəndələri məsləhətləşmələrə cəlb edilmişdir.

Müzakirələr təbii və bərpa olunan resursların səmərəli şəkildə idarə olunması, iqtisadi şaxələndirmə, təhlükələrin, fəlakətlərin və iqlim dəyişikliyinin təsirlərinə qarşı dayanıqlılıq, keyfiyyətli və səmərəli xidmətin təşkili, korrupsiyaya qarşı mübarizə, kənd və şəhər yerlərinin tarazlı inkişafı, gender bərabərliyi, həmçinin qaçqın və məcburi köçkünlərin hüquqlarının bərpası da daxil olmaqla insan hüquqlarına söykənən dayanıqlı inkişaf prinsiplərinə əsaslanmışdır.

Növbəti beş ildə BMT (həm rezident, həm də qeyri-rezident agentlikləri vasitəsilə) Azərbaycan Respublikasında tərəqqinin dəstəklənməsi naminə şaxələndirmə və layiqli əməyi özündə ehtiva edən dayanıqlı iqtisadi inkişafın təşviqi, institusional potensialın, eləcə də səmərəli ictimai və sosial xidmətlərin gücləndirilməsi, ətraf mühitin idarə edilməsi, təhlükə və fəlakətlərə qarşı dayanıqlılığın artırılması istiqamətində Azərbaycan Hökuməti, vətəndaş cəmiyyəti, özəl sektor və digər maraqlı tərəflərlə əməkdaşlıq edəcəkdir.

UNAPF Azərbaycanda Birləşmiş Millətlər Təşkilatı sistemi tərəfindən hazırlanmış dördüncü əməkdaşlıq sənədidir və əsas etibarilə inkişafa yardım üzərində qurulan əməkdaşlıqdan artan potensiala və milli planlaşdırma prosesi ilə daha çox bilik tələb edən, təşviqatyönlü

birgə səylərə əsaslanan tərəfdaşlığa keçidi səciyyələndirir. Azərbaycan əldə olunan geniş təcrübə və bilik sayəsində sürətlə inkişaf edir. UNAPF Azərbaycana qlobal problemlərin həlli yollarının tapılması və regional əməkdaşlıq vasitəsilə digər ölkələrə də yardım göstərilməsi üçün dəstək olacaqdır.

Azərbaycan Hökuməti və Birləşmiş Millətlər Təşkilatı Azərbaycanda dayanıqlı insan inkişafının təşviqi öhdəliyini öz üzərinə götürməklə yanaşı, milli sahiblik, inklüzivlik, hesabatlılıq və şəffaflıq prinsiplərini əsas tutan və davam etdirməyə hazır olan regional və qlobal səviyyədə bütün milli və beynəlxalq tərəflərlə gələcəkdə də əməkdaşlığın genişləndirilməsi üçün birgə fəaliyyət göstərəcəklər.

Ümidvarıq ki, UNAPF Azərbaycanda insan xoşbəxtliyinə, sülhə və rifaha xidmət edən dayanıqlı inkişaf tərəfdaşlığının daha da genişlənməsinə dəstək göstərəcəkdir.

Şahin Mustafayev
Azərbaycan Respublikasının
iqtisadiyyat naziri

Qulam M. İshaqzai
BMT-nin Azərbaycan Respublikasındakı
Rezident Əlaqələndiricisi

# Birləşmiş Millətlər Təşkilatı – Azərbaycan Tərəfdaşlıq Çərçivəsi

## Öhdəliyin bəyan edilməsi

Azərbaycan Respublikasında inklüziv, ədalətli və dayanıqlı inkişafa dəstək olaraq, Hökumət və Birləşmiş Millətlər Təşkilatının Ölkə üzrə İdarə Heyəti *'Azərbaycan 2020: gələcəyə baxış'* İnkişaf Konsepsiyasının, habelə 2015-ci ildən sonrakı əsas inkişaf məsələlərinin və Dayanıqlı İnkişaf Məqsədlərinin yerinə yetirilməsinə dəstək göstərmək üçün birgə işləmək öhdəliyini öz üzərlərinə götürürlər. Bununla onlar ölkənin inkişafla bağlı prioritet məsələlərini milli tərəfdaşlar, inkişaf məsələləri üzrə beynəlxalq partnyorlar, vətəndaş cəmiyyəti, özəl sektor, beynəlxalq maliyyə institutları və digər maraqlı tərəflərlə əməkdaşlıq etməklə həll edəcəklər.

UNAPF-nin icrası Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada həyata keçiriləcəkdir.

Birləşmiş Millətlər Təşkilatı – Azərbaycan Tərəfdaşlıq Çərçivəsinə əsasən ümumi niyyət BMT proqramlarının tərtib olunmasında daha geniş əməkdaşlıq, əsas diqqəti cəmləmə, uyğunluğa doğru irəliləmək və Azərbaycanda bütün insanlar üçün yaşayışın keyfiyyətini yaxşılaşdırmağa çalışdığımız üçün dəstəyin təsirini artırmaqdan ibarət olacaqdır.

Bu vəzifələri yerinə yetirərkən, biz, xüsusilə də Effektiv İnkişaf Əməkdaşlığı üzrə Busan Tərəfdaşlığı ilə bağlı, beynəlxalq birliyin bir üzvü kimi, Azərbaycan Respublikasının milli prioritet və öhdəliklərini rəhbər tutacağıq. Biz, eyni zamanda, təşkilatın ən çox ehtiyacı olanlar üçün effektiv və təsirli şəkildə nəticələrə nailolma, malik olduğu resurslarla daha çox cəhdetmə, çevikliyi və cavabdehliyi artırma imkanının gücləndirilməsinə dəstək göstərərək, qlobal səviyyədə Birləşmiş Millətlər Təşkilatının islahat proqramında nəzərdə tutulanlar da daxil olmaqla, Birləşmiş Millətlər Təşkilatının prinsiplərinə və ideallarına hörmətlə yanaşaraq onlara riayət edəcəyik.

## Xülasə

Birləşmiş Millətlər Təşkilatı – Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (UNAPF) 2016 – 2020-ci illər ərzində Birləşmiş Millətlər Təşkilatının Ölkə üzrə İdarə Heyəti (UNCT) üçün strateji baxışı və istiqaməti müəyyən edir və o, Hökumət və UNCT, habelə milli və beynəlxalq tərəfdaşlar arasında məsləhətləşmə prosesinin nəticəsidir. Birləşmiş Millətlər Təşkilatının Azərbaycanda ümumi məqsədlərinin və fəaliyyətinin asanlıqla əldə edilə bilən icmalı qismində çıxış etməklə yanaşı, bu sənəddə Birləşmiş Millətlər Təşkilatı sisteminin milli prioritetlərə cavab olaraq, öz fəaliyyətini ən effektiv şəkildə necə əlaqələndirə biləcəyi təhlil olunur.

Növbəti illər ərzində Birləşmiş Millətlər Təşkilatı – Azərbaycan tərəfdaşlığı üçün kontekstə dair mühüm dəyişikliklərlə müəyyən ediləcəkdir. Bununla əlaqədar olaraq UNAPF, xüsusilə milli strategiyalara və siyasətə dair *'Azərbaycan 2020: gələcəyə baxış'* İnkişaf Konsepsiyası əsasında ölkənin prioritet və yenicə meydana çıxan 2015-ci ildən sonrakı beynəlxalq inkişaf məqsədlərini, habelə bu milli və qlobal məqsədlərə doğru real irəliləyişə nail olmağa köməyin göstərilməsi ilə bağlı Birləşmiş Millətlər Təşkilatının müqayisəli üstünlüklərini rəhbər tutacaqdır.

UNAPF hazırda qüvvədə olan UNDAF sənədi üzərində qurulmaqla Birləşmiş Millətlər Təşkilatının nisbətən məhdud resurslarının ayrılmasına, onun normativ və təbliğ etmə rolunun yerinə yetirilməsinə və bütövlükdə Azərbaycana dayanıqlı şəkildə yüksəkkeyfiyyətli dəstəyin göstərilməsinə, onun daha strateji və cəmləşmiş yanaşması üçün daha böyük istəklə Azərbaycan Hökuməti ilə daha yetkin tərəfdaşlığa doğru atılan növbəti addımdır. İnsanyönlü və hüquqlara əsaslanan yanaşma növbəti beş il müddətində BMT-nin bütün fəaliyyəti üçün mühüm bir yanaşma olaraq qalacaqdır.

Fundamental olaraq, Azərbaycanda Birləşmiş Millətlər Təşkilatı sistemi həm rezident, həm də qeyri-rezident agentliklər, Hökumət və digər partnyorlar ilə tərəfdaşlığın əsası kimi dərinləşmiş əlaqəni təşviq edəcəkdir. Göstəriləcək səylər müxtəlif agentliklərin milli və bölgə səviyyələrində sektorlar və təşkilatlar arasında həm şaquli, həm də üfüqi əlaqələri dərinləşdirmək təcrübəsindən faydalanacaqdır. Ölkədə insan inkişafı ilə bağlı qalan mühüm məsələləri həll etməklə yanaşı, Azərbaycana region üçün və qlobal səviyyədə inkişafla bağlı dəstəyini təklif etməkdə yardımın göstərilməsinə ayrıca diqqət yetiriləcəkdir. Sosial cəhətdən bütün həssas təbəqələr üçün inkişafla bağlı bərabər və genişlənən imkanların yaradılmasına nail olma işini davam etdirərək, 2015-ci il 1 iyul tarixinə olan rəsmi statistikaya görə Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı nəticəsində didərgin düşmüş 629,994 nəfər məcburi köçkünə (MK) xüsusi diqqət yetiriləcəkdir.

Bir-biri ilə əlaqəli olan üç strateji prioritet sahə müəyyən edilmişdir:





- **Artan şaxələndirilmə və layiqli əməyi özündə ehtiva edən dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi;**
- **İnstitusional potensialın gücləndirilməsi, səmərəli ictimai və sosial xidmətlər;**
- **Ətraf mühitin idarə edilməsinin təkmilləşdirilməsi, risk və təbii fəlakətlərə qarşı dayanıqlılığın artırılması.**

Bu prioritet sahələr çərçivəsində insan hüquqlarına əsaslanan yanaşma; gender bərabərliyi; gənclər; monitorinq və qiymətləndirmə üçün xüsusi potensialın inkişaf etdirilməsi (məsələn, təşkilati, texniki, idarəetmə); və ümumi dəlillərə əsaslanma yanaşmasının təkmilləşdirməsi kimi ümumi kəsişən məsələlər də olacaqdır.

Xüsusi olaraq, UNAPF-nin effektiv şəkildə yerinə yetirilməsi üzrə bir sıra mühüm strategiyalar müəyyən edilmiş və onlar proses boyu tətbiq ediləcəkdir. Bundan əlavə, Birləşmiş Millətlər Təşkilatı yalnız dünyanı Azərbaycana gətirməyəcək, eyni zamanda, Azərbaycanın böyük nailiyyətlərini dünyaya çatdıracaqdır.

UNAPF-nin strategiyaları arasında ilk yerdə milli potensialı yüksəltmək üçün fundamental bir dəyər və ümumilikdə dayanıqlı inkişaf üçün davamlı ilkin şərt kimi *siyasətin yerinə yetirilməsi, təşkilati quruculuq və sistemlərin inkişaf etdirilməsi işinin gücləndirilməsinə* diqqətin yetirilməsi durur. Məsələn, təşkilati potensialın inkişaf etdirilməsi strateji baxımdan siyasət, prosedur və çərçivələrlə bağlı məsələləri həll edəcəkdir. Bu da öz növbəsində təşkilatlara əhaliyə göstərilən xidmətlərin təkmilləşdirilməsindən başlayaraq, ümumi idarəçiliyin gücləndirilməsinədək öz mandatlarını yerinə yetirməyə imkan yaradacaq və beləliklə də inkişafla bağlı daha geniş təsiri təmin etmək məqsədini daşıyacaqdır.

*Birləşmiş Millətlər Təşkilatının mandatının və təcrübəsinin məğzini təşkil edən milli potensialı inkişaf etdirmə paradiqması* ciddi şəkildə vurğulanacaqdır. Bu, real olaraq milli səviyyədə yiyələnməni ifadə edir, institusional (təşkilati) və fərdi səviyyələrdə daha çox məlumatlı şəkildə seçimlərə imkan yaradır. Potensialın inkişaf etdirilməsi Azərbaycanın tarazlaşdırılmış regional inkişaf kimi milli məqsədləri ilə əlaqələndiriləcəkdir.

Eynilə, proqramlarda nəzərdə tutulan nəticələrdə, xüsusilə əlilliyi olan insanlar, qadınlar və gənclər üçün sosial inklüzivliyi təmin etmək məqsədi ilə *inkişafın faydalarından daha yaxşı yararlanmaq imkanını və onların paylanmasını* təşviq etmə vacibdir. Ümumilikdə, bu səylər proqram fəaliyyəti üçün daha səmərəli hədəflənmə tələb edəcəkdir. Xüsusilə qadınların, gənclərin, uşaqların və digər aztəminatlı təbəqələrin səlahiyyətlərini genişləndirərək, inkişafa insan hüquqlarına əsaslanan yanaşma üzrə potensialı inkişaf etdirmək üçün Birləşmiş Millətlər Təşkilatı sisteminin mühüm bir imkanı mövcuddur. UNAPF-nin məqsədi, inkişafın nəticələrini dayanıqlı etmək üçün yuxarıda göstərilən üç strateji prioritet sahədə iştiraketmə, ehtivaolunma, bərabərlik, ayrı-seçkiliyin yolverilməzliyi və cavabdehlik kimi əsas insan hüquqlarını təşviq etməklə, beynəlxalq insan hüquqları mexanizmlərinin və standartlarının

habelə gender bərabərliyi normalarının ölkə və bölgə səviyyələrində əsas siyasət planlaşdırma və icra proseslərinə daxil edilməsini təmin etmək üçün milli potensialı gücləndirmək olacaqdır.

Əlavə olaraq, *təkmilləşdirilmiş və innovativ biliklərə əsaslanan idarəetmə* vasitəsilə keyfiyyətli məlumatların əldə olunması, təhlili və istifadə edilməsində Hökumətin potensialının inkişafı səmərəli monitorinq və qiymətləndirmə, siyasətlə bağlı sağlam qərarların qəbul edilməsi və proqramlarda effektiv nəticələrin əldə edilməsi üçün vacibdir. Nəhayət, Birləşmiş Millətlər Təşkilatının geniş şəkildə tanınması, ona olan inam, onun ümumi qəbul edilmiş qərəzsizliyi və bir araya toplama səlahiyyətini tamamlayır. Ayrıca olaraq, o, *beynəlxalq sazişlərin və* Azərbaycanın *öhdəliklərinin yerinə yetirilməsinin təşviq olunmasına və bunun monitorinqinin aparılmasına* kömək edə, eyni zamanda *sosial birliyə nail olmaq və ən* aztəminatlı *təbəqələri də əhatə etmək üçün effektiv sosial siyasətin və proqramların sonrakı mərhələdə işlənilib hazırlanmasına və tətbiqinə* dəstək göstərə bilər.

İcra üçün əsas vasitələr artıq inkişaf etdirilən əlaqələndirmə mexanizmləri vasitəsilə UNAPF-nin icrası zamanı yenidən müəyyən ediləcəkdir, bəziləri üçün ümumi və birgə proqramların işlənilib hazırlanmasının və ya maliyyələşdirilməsinin tələb olunacağı güman edilir. Buna görə də, BMT-nin Ölkə üzrə İdarə Heyəti, *Vahid BMT fəaliyyəti* üzrə Standart Fəaliyyət Prosedurlarının ən uyğun və mümkün vasitələrini tətbiq edərək birgə proqramların hazırlanmasına və idarələrarası əməkdaşlığa çalışacaq və resursların səfərbər olunması, habelə "birgə səy" əsaslı yanaşmalar üçün imkanları araşdıracaqdır. Bura ***Vahid Lider*** (*Səlahiyyətləndirilmiş Rezident Əlaqələndirici* və *Səlahiyyətləndirilmiş BMT-nin Ölkə üzrə İdarə Heyəti*), ***Vahid Əməliyyat*** və ***Vahid Məlumatlanma və Ünsiyyət*** elementləri aid olacaqdır. Bütün bunlar sayəsində aşağıdakıların əldə olunması gözlənilir:

- BMT agentlikləri və milli təşkilatlar arasında əlaqələndirmə səylərinin gücləndirilməsi;
- Proqram üzrə siyasətin işlənilib hazırlanması və effektiv xidmətlər arasında daha təkmil tarazlığın təmin edilməsi;
- Şəhər və kənd ərazilərinin inkişafı arasında daha təkmil tarazlığın təmin edilməsi;
- İnkişaf prosesində aktiv iştirak etmək üçün vətəndaş cəmiyyətinin səlahiyyətlərinin artırılması;
- Qadınlar, gənclər, uşaqlar və sosial cəhətdən həssas qruplara (qaçqın və məcburi köçkünlər, əlilliyi olan insanlar) xüsusi diqqət yetirməklə sosial inklüzivliyi təmin etmək məqsədi ilə öhdəliyin artırılması;
- Effektiv monitorinq və qiymətləndirmə mexanizmləri vasitəsilə dəlillərə əsaslanan nəticələrə daha çox diqqət yetirilməsi.

# I. Giriş

## 1.1 Yeni tərəfdaşlığa zəmin yaradan məqam: yaranan imkanlar və əsas çağırışlar

Ölkə səviyyəsində strateji planlaşdırma çərçivəsi kimi, Birləşmiş Millətlər Təşkilatı – Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (UNAPF) əməkdaşlığın genişləndirilməsi, Birləşmiş Millətlər Təşkilatı sistemi layihələrinin və dəstəyinin uzlaşdırılması və effektivliliyi üçün bir zəmin yaradır. Birləşmiş Millətlər Təşkilatı sistemi və Hökumət arasında tərəfdaşlığı dərinləşdirməyə çalışmaqla yanaşı, daha sonra Azərbaycanda əhatəli şəkildə, bütün insanların ləyaqətlə, zəngin və təhlükəsiz yaşamasını təmin etməyə köməklik göstərilməsini də məqsəd kimi qarşıya qoyur.

UNAPF *'Azərbaycan-2020: gələcəyə baxış'* İnkişaf Konsepsiyasında müəyyən edilən milli prioritetlərə ümumi və inteqrasiya edilmiş bir cavab olaraq, bir daha BMT-nin fəaliyyətinin milli siyasətə və planlaşdırmaya tam şəkildə uyğunlaşdırıldığını təsdiqləyir. Bu prioritetlər Azərbaycan üçün son vaxtlarda baş verən sürətli sosial-iqtisadi inkişaf və meyillər nəticəsində yaranan vəziyyətə yönəldilir və onlarda biliyə əsaslanan, diversifikasiya edilmiş və yüksək rəqabətin olduğu iqtisadiyyata keçid; tarazlaşdırılmış regional inkişaf; insan kapitalının inkişafı; daha effektiv sosial müdafiə xidmətlərini yaratma və mədəni irsin idarə olunmasına keçid vurğulanır.

UNAPF, həmçinin, Minilliyin İnkişaf Məqsədləri (MİM-lər) və Minilliyin Bəyannaməsi üzərində qurulan daha geniş və dayanıqlı inkişafın sosial, iqtisadi və ətraf mühitlə bağlı aspektlərini irəliyə aparmaq üçün səyləri bir araya gətirən 2015-ci ildən sonrakı yeni qlobal Dayanıqlı İnkişaf Məqsədlərindəki (DİM-lər) cəhdləri özündə əks etdirir. 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi 2015-ci ilin sentyabr ayında Nyu-Yorkda keçirilmiş yüksək səviyyəli xüsusi zirvə toplantısında qəbul edilmiş və o, ölkə səviyyəsində dayanıqlı inkişafa dəstəyin göstərilməsində və effektiv şəkildə həyata keçirilməsində BMT-nin İnkişaf Sisteminin "məqsədəuyğun" olmasını təmin etmək üçün yeni baxış və BMT Sisteminin vahid şəkildə fəaliyyət göstərməsini tələb edəcəkdir.

DİM-lərin uğurlu milli məsuliyyət və öhdəlik götürməklə müəyyən ediləcək, milli siyasətin yeni məqsədlərinin təsbit edilməsi milli hədəf və göstəriciləri müəyyənləşdirmək və onların inkişafının izlənməsi üçün vacib olacaqdır. UNAPF növbəti dayanıqlı məqsədlərin milli siyasətə, qərarların qəbul edilməsinə, siyasətin əlaqələndirməsi və dayanıqlı inkişafa nailolma istiqamətində görülən tədbirlərə sirayət etməsini təmin etmək üçün bir vasitə qismində çıxış edəcəkdir. Azərbaycan Hökuməti inkişaf məsələləri üzrə tərəfdaşları və digər maraqlı tərəflərlə məsləhətləşmə aparılmaqla, milli prioritetlərə uyğunlaşdırılmış DİM-lərin əlaqələndirilməsi və uzlaşdırılması üçün əsas sahələri müəyyənləşdirməklə UNAPF-yə daxil ediləcəkdir.

Bundan əlavə, UNAPF 2015-ci ildən sonrakı inkişafla bağlı milli məsləhətləşmələrdən əldə olunan tövsiyələri, habelə bir sıra beynəlxalq icmal proseslərinin yekunlarını əsas götürür; buraya Ümumi Dövri İcmal (ÜDİ), Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Konvensiya (CEDAW), Uşaq hüquqları haqqında Konvensiya (CRC), Əlilliyi olan insanların hüquqları haqqında Konvensiya (CRPD), Vətəndaşlığı olmayan şəxslər və qaçqınlarla bağlı beynəlxalq konvensiyalar, Məcburi köçkünlüklə bağlı rəhbər prinsiplər, Bütün miqrant fəhlələrin və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi üzrə Konvensiya, 2014-cü ildən sonrakı Əhali və İnkişaf üzrə Beynəlxalq Konfrans (ICPD), habelə BMT-nin 2012-ci ildəki Dayanıqlı İnkişaf üzrə Konfransı (Rio+20), BMT Baş Assambleyasının Qeyri-yoluxucu xəstəliklərə dair Qətnaməsi (2011-ci il), 2020-ci il üçün Səhiyyə siyasəti, 2015-ci ilin mart ayında Yaponiyada Fəlakət riskinin azaldılması üzrə BMT-nin Ümumdünya Toplantısı, 2014-cü ildə Lima və 2015-ci ilin dekabr ayında Paris şəhərlərində keçirilmiş BMT-nin İqlim Dəyişikliyi üzrə Tərəflərin Konfransları aiddir.

Müstəqilliyin ilk illərində Azərbaycan Respublikası Ermənistan Respublikası ilə Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ regionu və onun ətrafında gedən hərbi münaqişə nəticəsində kütləvi köçkünlük böhranına məruz qalmışdır. Münaqişə nəticəsində bir milyondan çox insan öz evlərini tərk edərək qaçqın və ya məcburi köçkünə çevrilmişdir. İki onillikdən də çox bir müddət keçmiş, lakin işğal olunmuş Dağlıq Qarabağdan və yeddi ətraf rayondan olan 629,994 (2015-ci il 1 iyul tarixə olan məlumata görə) şəxs hələ də məcburi köçkün vəziyyətində qalır. 1994-cü ildə tez-tez pozulan atəşkəsin əldə olunmasına baxmayaraq, köçkünlük hələ də ölkə üçün ciddi bir problem olaraq qalır – iki tərəf arasında siyasi həll yoluna nail olunmamışdır və dayanıqlı həll yolu hələ də müəyyənləşdirilməmişdir. Azərbaycan Hökuməti hərtərəfli və kifayət qədər maliyyələşdirilən bir sıra yardım proqramları vasitəsilə məcburi köçkünlərin müdafiəsi və onlara dəstəyin göstərilməsi istiqamətində tədbirlər görmüşdür[1]. Təqdirəlayiq haldır ki, hökumətin ümumi dəstəyinin bir hissəsi olaraq 400,000 məcburi köçkünün cəmiyyətə inteqrasiya olunmasına şərait yaradılmışdır. Azərbaycan Respublikası köçkün əhalinin ümumi yaşayış şəraitini yaxşılaşdırmaq üçün böyük yatırımlar edir və məcburi köçkünlərin müdafiəsi və onlara yardım göstərmək öhdəliyini tam şəkildə öz üzərinə götürür.

Məcburi köçkünlərin ehtiyaclarının ödənilməsi, maddi baxımdan təminatı və özünə-inamın artırılması prioritet məsələlər kimi həm *'Azərbaycan-2020: gələcəyə baxış'* İnkişaf Konsepsiyasında, həm də 2015-ci ildən sonrakı inkişaf proqramı üzrə milli məsləhətləşmələrdən əldə olunan tövsiyələrə uyğunlaşdırılmış UNAPF-də nəzərdə tutulmuşdur. Sülh sazişinə nail olunacağı təqdirdə, Azərbaycan Hökuməti münaqişədən zərər çəkən ərazilərin yenidən qurulmasına xüsusi önəm verir. Azərbaycanda Birləşmiş Millətlər Təşkilatı sistemi sülh sazişinə nail olunacağı təqdirdə münaqişədən zərər çəkən ərazilərin yenidən qurulmasında və məcburi köçkünlərin öz evlərinə təhlükəsiz və ləyaqətli

[1]Məcburi köçkünlərin şəraiti, Dünya Bankının hesabatı, 2011, s 10.

şəkildə qayıtmağının təmin olunmasında, o cümlədən MK-lərin qayıdışı (yenidən məskunlaşması) proqramlarının planlaşdırılması və həyata keçirilməsində Hökumətə yardım etməyə hazırdır.

UNAPF, öz yanaşmaları ilə daha da yuxarı (milli siyasət) səviyyəyə yönəldilmiş fəaliyyətində yeni milli məqsədlərdə bərabərliyin, keyfiyyətin və dayanıqlılığın daha çox vurğulanmasını təmin etmək üçün ölkənin nailiyyətlərini nəzərdən keçirmək, mövcud məqsədləri dəqiqləşdirmək və Azərbaycanda yeni inkişaf məqsədləri üçün fəaliyyət kursunu müəyyənləşdirmək imkanlarından yararlanmaqda səlahiyyətli şəxslərə (siyasi qərarları qəbul edənlərə) yardım etmək niyyətindədir. Eyni zamanda, UNAPF yeni meydana çıxan məsələlərə uyğunlaşdırma imkanına malikdir. Bu imkan çərçivəsində BMT-nin Ölkə üzrə İdarə Heyəti və ya Birləşmiş Millətlər Təşkilatının ayrı-ayrı agentlikləri Hökumətlə birgə müəyyənləşdirilmiş meydana yeni çıxan ehtiyaclara cavab olaraq öz mandatları çərçivəsində tədbirlərin görülməsini nəzərdən keçirə bilərlər.

Eyni zamanda, BMT-nin Azərbaycandakı Nümayəndəliyi, regional maraq kəsb edən strateji prioritetləri və problemləri nəzərə alaraq, regionda Azərbaycanın rolundan bəhrələnərkən Hökumətlə birgə işləməyə, habelə azgəlirli ölkələrin faydalanması və qlobal öhdəliklərin və sazişlərin təşviqi üçün Azərbaycanın təcrübəsindən istifadə edərək, beynəlxalq əməkdaşlıq imkanlarını müəyyənləşdirməyə səy göstərəcəkdir. Birləşmiş Millətlər Təşkilatı Azərbaycana, beynəlxalq aləmdə, o cümlədən inkişaf etməkdə olan ölkələrlə əməkdaşlığını gücləndirməklə, öz qabaqcıl təcrübələrini nümayiş etdirməyə kömək edə bilər[2]. Özünün keçid dövrü müddətində, Azərbaycan zəngin təcrübə, texniki biliklər, ekspert qiymətləndirmə səriştəsi və qabaqcıl təcrübə toplamışdır ki, bunlar da qlobal tərəfdaşlıq platformaları üçün çox faydalı ola bilər. Azərbaycan artıq bu istiqamətdə mühüm addımlar atmışdır: təbii fəlakətlərə məruz qalmış ölkələrə yardım üçün ölkənin səxavətlə ayırdığı ianələrdən, Birləşmiş Millətlər Təşkilatının Agentliklərinə, habelə Əfqanıstan və digər ölkələrə etdiyi ikitərəfli yardımlardan göründüyü kimi Azərbaycan humanitar və inkişafla bağlı tədbirlərə töhfə vermişdir.

UNAPF-nin işlənib hazırlanmasında mühüm məqam BMT-nin inkişaf naminə həyata keçirdiyi tədbirlərdə təsiri, effektivliyi, səmərəliliyi və ardıcıllığı qiymətləndirmək üçün bir mexanizm qismində istifadə edilən və üzv-dövlətlərə BMT-nin inkişaf naminə fəaliyyətini dəyişikliklərin baş verdiyi qlobal inkişaf üzrə əməkdaşlıq kontekstinə necə uyğunlaşdırmaq üçün aparılan dialoqda iştirak etmək kimi mühüm bir imkan yaradan Dördillik Əhatəli Siyasi İcmal (Quadrennial Comprehensive Policy Review (QCPR)) olmuşdur. Azərbaycanda BMT sistemi milli səviyyədə yiyələnmə və aparıcılıq hissini təşviq etməyə səy göstərəcək və daha geniş daxili əməkdaşlıq, proqramların əlaqələndirilməsi və qarşılıqlı möhkəmləndirmə işini irəliyə doğru aparacaqdır. BMT-nin Ölkə üzrə İdarə Heyəti birgə səylər və daha təsirli fəaliyyət

[2]Eyni zamanda Cənub-Cənub əməkdaşlığı və ya Şərq-Şərq əməkdaşlığı kimi də məlumdur.

imkanları yaratmaqla, habelə əməkdaşlıq, monitorinq və qiymətləndirmə və UNAPF-nin nəticələri barədə hesabat vermədə birgə mexanizmlərdən istifadə etməklə, səmərəliliyi və effektivliyi artırmaq üçün **Vahid BMT fəaliyyəti** modelinin (3-cü əlavədə təsvir olunan) üç istiqamətini tətbiq edəcəkdir.

Ümumiyyətlə, öz dəstəyinin uyğunluğunu və təsirini artırmaq üçün Birləşmiş Millətlər Təşkilatı Sistemi Azərbaycanda öz rolunu yenidən müəyyən etdiyi məqamda ortaya çıxdığı üçün UNAPF böyük əhəmiyyətə malikdir. Xüsusi olaraq, Birləşmiş Millətlər Təşkilatının Ölkə üzrə İdarə Heyəti (UNCT)[3] (1) BMT-nin yuxarı orta gəlirli ölkə olan Azərbaycanla səmərəli tərəfdaşlıq və iştiraketmə üçün daha önəmli olan sahələrə yönəldilmiş strateji tərəfdaşlığını gücləndirməyə; (2) milli inkişaf məqsədlərinə dəstək olaraq Birləşmiş Millətlər Təşkilatının nüfuzunu artırmağa; və (3) Birləşmiş Millətlər Təşkilatının əlaqələndirilməsini və fəaliyyətini təkmilləşdirməyə çalışır. Bununla əlaqədar olaraq, UNAPF-nin işlənilib hazırlanması və yerinə yetirilməsi üçün UNCT-nin Hökumətdəki əsas əlaqələndirmə tərəfdaşı olan İqtisadiyyat Nazirliyinin digər mühüm Hökumət qurumları kimi davamlı dəstəyi əhəmiyyətli olmuşdur.

UNAPF daha çox siyasətlə bağlı məsləhətlərin verilməsinə, dəlillərə əsaslanan proqramların tərtib olunmasına və biliklərin bölüşülməsinə diqqət yetirəcəkdir. Azərbaycanda Birləşmiş Millətlər Təşkilatı sistemi proqramların işlənilib hazırlanmasında və əməkdaşlıqda ardıcıl yanaşmaları inkişaf etdirməklə yanaşı, BMT sistemində (qeyri-rezident agentliklər də daxil olmaqla) mövcud olan təhlil imkanlarından istifadə edilməsinə və yiyələnmə hissini inkişaf etdirmək üçün Azərbaycanda ümumi inkişafda mühüm rol oynayan Hökumət həmkarlarının, inkişafla bağlı tərəfdaşların və digər maraqlı tərəflərin cəlb olunmasına (planlaşdırmadan proqramların qiymətləndirilməsinədək) innovativ yanaşmanı tətbiq edəcəkdir. Azərbaycan Hökuməti və BMT-nin Ölkə üzrə İdarə Heyəti nəticələrin əldə olunmasında qarşılıqlı şəkildə cavabdehlik daşıyacaqlar. Hər bir BMT agentliyi, öz mandatına və razılaşdırılmış ölkə üzrə proqrama uyğun olaraq, ayrı-ayrı nəticələrə dəstəyin göstərilməsinə görə cavabdehlik daşıyacaqdır.

Hazırkı maliyyələşmə modeli əsasında BMT agentliklərinin məruz qaldıqları məhdudlaşan maliyyələşmə mühitində və azalmaqda olan əsas vəsaitlərin məbləğinin təşkilatları

[3]Azərbaycanda Birləşmiş Millətlər Təşkilatının Ölkə üzrə İdarə Heyəti rezident və qeyri-rezident 18 təşkilatdan, o cümlədən Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramından (BMTİP), Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondundan (UNICEF), Birləşmiş Millətlər Təşkilatının Əhali Fondundan (UNFPA), Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarından (BMTQAK), Ümumdünya Səhiyyə Təşkilatından (ÜST), Dünya Bankından (DB), və Beynəlxalq Miqrasiya Təşkilatından (BMqT) ibarətdir. Qeyri-rezident Agentliklərə Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fond (IFAD), Beynəlxalq Əmək Təşkilatı (BƏT), İnsan Hüquqları üzrə Ali Komissarlıq (OHCHR), Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP), Birləşmiş Millətlər Təşkilatının Sənaye İnkişafı İdarəsi (UNIDO), Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi (UNODC), BMT-nin Təhsil, Elm və Mədəniyyət Məsələləri üzrə Təşkilatı (UNESCO), BMT Qadınlar Təşkilatı (UN Women), Humanitar Məsələlər üzrə Əlaqələndirmə İdarəsi (OCHA) və Beynəlxalq Valyuta Fondu (BVF) aiddir. Agentliklər təmsil olunma səviyyələrinə, öz fəaliyyətlərinin əhatə dairəsinə və Birləşmiş Millətlər Təşkilatının birgə tədbirləri üçün heyətin sayına görə fərqlənirlər.

maliyyələşdirmək üçün çətinliklə kifayət etdiyi bir vəziyyətdə həqiqi vəsaitlə bağlı öhdəliklər hər bir agentliyin prosedurlarına və təsdiqetmə mexanizmlərinə uyğun olaraq, yalnız təfsilatlı ölkə proqramları tərtib olunduğu halda veriləcəkdir.

BMT-nin Ölkə üzrə İdarə Heyəti, strateji nəticələr və ümumi kəsişən sahələr çərçivəsində, müştərək proqramlar (müvafiq hallarda), tərəfdaşlıq qurma, planlaşdırma/hesabatvermə və birgə təşviqat səyləri vasitəsilə UNAPF-nin yerinə yetirilməsinə görə strateji səviyyədə ümumi cavabdehlik daşıyacaqdır. UNAPF-nin təşkilatçılar tərəfindən birgə idarə olunan üç Nəticə Qrupu, monitorinq və qiymətləndirmə qrupu, habelə BMT-nin dörd tematik qrupu tədricən vahid BMT sistemi çərçivəsində deyil, eyni zamanda milli tərəfdaşlar və qeyri-dövlət iştirakçıları ilə əlaqələndirmə üçün bir foruma çevriləcəkdir.

***Azərbaycan Respublikasının İnkişaf Konteksti***

UNAPF yüksək ümumi insan inkişafı göstəricilərinə malik olan və yuxarı orta gəlirli ölkə statusuna çatan Azərbaycan Respublikası kontekstində hazırlanmışdır, ölkənin 2015-ci ilədək MİM-lərin əksəriyyətinə nail olacağına inanılır, həmçinin, 2015-ci ildən sonrakı inkişaf proqramının reallaşdırılması üçün ölkədə yaxşı imkanlar mövcuddur. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsasən, Hökumətin cəhdləri ölkədə Ümumi Daxili Məhsulun (ÜDM) iki dəfə artırılması, Azərbaycan Respublikasının Dünya Bankının adambaşına düşən Ümumi Milli Gəlir təsnifatına görə "yuxarı orta gəlirli ölkələr" arasında mövqeyinin möhkəmlənməsi və BMT-nin inkişaf Proqramının İnsan İnkişafı İndeksi ilə bağlı təsnifatında "yüksək insan inkişafı" ölkələri qrupunda yuxarı sıralara yüksəlməsi kimi məqsədlərə yönəlmişdir.

İnsan İnkişafı İndeksi (HDI) 0.747 xal təşkil etməklə, Azərbaycan (9.6 milyondan çox əhali[4]) 2014-cü il[5]üçün İnsan İnkişafı Hesabatında sıralanan 187 ölkə arasında 76-cı olmuşdur. Bu hesabata əsasən, gözlənilən orta ömür uzunluğu 1980 və 2012-ci illər arasında 6 il artmışdır, təhsil alma müddəti bu müddət ərzində 0.4 il artaraq 11.7 ilə çatmışdır. Təhsil və səhiyyə infrastrukturunun yaxşılaşdırılmasına əhəmiyyətli yatırımlar edilmişdir. Minilliyin İnkişaf Məqsədlərinə doğru böyük irəliləyiş olmuşdur.

Ölkə son on il ərzində böyük irəliləyiş dövrünü yaşamış, bu müddət ərzində orta artım səviyyəsi rekord yüksək səviyyələrə çatmış və yoxsulluq xeyli azalmışdır (rəsmi statistik məlumatlara görə yoxsulluq səviyyəsi 2001-ci ildə 49.0 % təşkil etdiyi halda, 2014-cü ildə bu göstərici 5%-ə enmişdir). 2004-cü ildən 2013-cü ilədək olan müddət ərzində ÜDM orta hesabla 12.9% artmışdır (neft sektorunda 17.9% və qeyri-neft sektorunda 10.2%). Azərbaycanda, həmçinin, 2013-cü ildə adambaşına düşən təxminən 8,000 ABŞ dolları

[4]Dövlət Statistika Komitəsi, 2015

[5]İİH 2014, səh. 161 - http://hdr.undp.org/sites/default/files/hdr14-report-en-1.pdf

səviyyəsində ÜDM qeydə alınmışdır.[6] İqtisadiyyat əsas etibarilə neft sektorunun hesabına (hər il 21.5 faiz artım), lakin qeyri-neft sektorundan da əhəmiyyətli dəstəklə (hər il 11.1 faiz) bu müddət ərzində orta hesabla hər il 15.3 faiz artmışdır. Cari milli siyasət onu göstərir ki, Hökumət təbii sərvətlər, kapital yığımı, yeni yaradılan iş yerləri və iqtisadi təşkilatlar arasında daha böyük tarazlığa nail olmaq üçün iqtisadiyyatın müxtəlif sahələrinin inkişaf etdirilməli olduğunu bilir. Azərbaycan həmçinin, makroiqtisadi mühit və əmək bazarında səmərəlilik sahələrində öz güclü məqamlarına görə rəqabətlə bağlı qlobal sıralamalarda da irəliləməkdə davam edir. Dünya Rəqabətlilik Hesabatına görə, Azərbaycan 2012-2013-cü illərdə bütün keçmiş Sovet ölkələri sırasında birinci olaraq 55-ci yerdən 46-cı yerə yüksəlmişdir. Eyni zamanda, 2013-2014-cü illərdə Azərbaycan iqtisadiyyatı daha yüksək 39-cu yerə qalxmış və 2014-2015-ci illərdə 144 ölkə arasında 38-ci yeri tutmuşdur.

Dayanıqlı artımı təmin etmək üçün Hökumət qeyri-neft sektorunu milli iqtisadiyyatın aparıcı qüvvəsinə çevirməyə çalışır. Hökumət 2014-cü ili Sənaye İli və 2015-ci ili Kənd Təsərrüfatı İli elan etmişdir. 'Azərbaycan Respublikasında Sənayenin İnkişafı üzrə Dövlət Proqramı (2015–2020-ci illər)' təsdiq edilib və kənd iqtisadiyyatında üstün qüvvə kimi kənd təsərrüfatı sektorunu daha da təkmilləşdirmək üçün 'Azərbaycan Respublikasında aqrar-sənaye kompleksinin inkişafı strategiyası' Hökumət tərəfindən təsdiq edilmə mərhələsindədir.

'*Azərbaycan-2020: gələcəyə baxış*' İnkişaf Konsepsiyasının həyata keçirilməsinin bir hissəsi kimi, 'Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014 – 2020-ci illər üçün Milli Strategiya', 'Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014 – 2020-ci illər üçün Dövlət Proqramı', 'Azərbaycan Respublikasında əhali sakinliyi və demoqrafik inkişaf sahəsində 2015-2025-ci illər üçün Dövlət Proqramı', 'Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası' və '2015-2020-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası' kimi digər strategiyalar '*Azərbaycan-2020: gələcəyə baxış*' İnkişaf Konsepsiyasının həyata keçirilməsinə təkan verəcəkdir.

İqtisadiyyatın qeyri-neft sektorunun sürətli və dayanıqlı inkişafına nailolma infrastrukturun yaxşılaşdırılması, potensialın gücləndirilməsi və regional iqtisadi bərabərsizlikləri azaltmaqla sosial inkişafın daha inklüziv olması, düzgün idarəçiliyin təşviqi və özəl sektorun artımı üçün mühitin yaxşılaşdırılması ilə nəticələnəcəkdir. Birləşmiş Millətlər Təşkilatı sistemi, Azərbaycanda cari islahatları daha effektiv şəkildə idarə etmək və inkişaf gündəliyində duran məsələlərə mahiyyət baxımından daha çox diqqət yetirmək üçün milli institusional potensialı inkişaf etdirərək siyasət sahəsində Hökumətə ümumi dəstək göstərməyə davam edəcəkdir.

Azərbaycan şəffaflığı, cavabdehliyi və birgə qərar qəbul etməni artırmaqla sosial quruluşu və dövlət sistemini demokratikləşdirmək üçün öz səylərini davam etdirir. İKT-nin tətbiqi ilə

[6]Dövlət Statistika Komitəsi, 2015

dövlət sektorunun səmərəliliyinin artırılması məqsədi ilə 2012-ci ildə Elektron Hökumət Portalı istifadəyə verilmiş və İKT sahəsində sahibkarlığın, elmi-tədqiqat və innovasiya yönümlü inkişafın təmin edilməsi məqsədi ilə İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu yaradılmışdır. 2013-cü ilin yanvar ayında bürokratiyanı azaltmaq və əhaliyə müxtəlif xidmətlərin göstərilməsində korrupsiya hallarını aradan qaldırmaq üçün Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi özünün ilk "bir pəncərə" prinsipinə əsaslanan ASAN Xidmət Mərkəzini yaratdı. 2015-ci ilin mart ayında səkkizinci ASAN Xidmət Mərkəzi açıldı və şəbəkə 2015-ci ilin sonunadək ölkə boyu genişlənməkdə davam edəcəkdir. Nəticədə, məsələn, sahibkarlıq fəaliyyətinə başlamaq üçün tələb olunan prosedurlar 30-dan 7-yə endirilmiş, prosedurların xərcləri isə yarıya qədər azaldılmışdır. Demokratiyanın və uğurlu idarəçiliyin səriştəli dövlət qulluğu üzərində qurulduğu nəzərə alınaraq, cari e-hökumət layihəsinin korrupsiya hallarına şərait yaradan imkanları azaldacağı, dövlət qulluğunun rolunu, peşəkarlığını və nüfuzunu daha da artıracağı gözlənilir.

İnfrastrukturla bağlı bir sıra regional layihələrə başlamaqla, regionda və dünya bazarında etibarlı enerji təchizatçısına çevrilməklə yanaşı, Azərbaycan 20 ölkə üçün internetə, telekommunikasiya sistemlərinə və e-informasiya resurslarına çıxış imkanı yaradaraq regiona İKT xidmətləri göstərəcək Trans-Avrasiya İnformasiya Magistralı (TASİM) və Avrasiya Bağlantı Alyansı (EuraCA) layihəsini irəli sürmüşdür. Azərbaycan həm də regionda yeni meydana çıxan beynəlxalq yardım donorudur. 2011-ci ildə ölkənin təsis etdiyi Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi (AIDA) böhrana məruz qalaraq yardıma ehtiyac duyan ölkələri müəyyənləşdirir və yardım ayırır.

Ümumiyyətlə, Azərbaycan təcrübə yığdığı sahələr üzrə region və dünya üçün inkişafa dəstək və yeni təşəbbüslər təklif edə bilər. Məsələn, Birləşmiş Millətlər Təşkilatı sistemi biznesə dəstək infrastrukturunun inkişaf etdirilməsi, investisiyaların təşviqi, İKT/e-idarəçilik, minalardan təmizləmə, pensiya islahatı, dövlət qulluğu, təbii sərvətlərə dövlət nəzarəti, gənclərin iştirakı və səlahiyyətlərinin genişləndirilməsi kimi sahələrdə bilikləri bölüşməklə Cənub-Cənub əməkdaşlığını daha çox təşviq etmək üçün Hökumətə dəstək göstərir. Bundan əlavə, son illərdə Birləşmiş Millətlər Təşkilatının bir sıra Agentlikləri yuxarıda qeyd olunan ASAN Xidmət Mərkəzləri ilə sıx əməkdaşlıq edirlər və çoxsahəvi səriştə və təcrübələrini bölüşmək üçün səylər göstərir, xüsusilə də e-idarəçilik, hüquq-mühafizə, uşaqlara uyğun xidmətləri, regionda və ondan kənarda Birləşmiş Millətlər Təşkilatına üzv olan digər dövlətlərdə gənclərin könüllü qismində fəaliyyətini təşviq edirlər.

İnkişafla bağlı bu mühüm imkanlara baxmayaraq, bir sıra əsas problemlər qalmaqdadır. Azərbaycanın iqtisadi strukturu hələ də neft və qaz sektorlarından xeyli asılı vəziyyətdədir. 2014-cü ilin sentyabr ayından təxminən 55 faiz düşən neft qiymətinin enməkdə olduğu bir şəraitdə, Azərbaycan üçün əsas məsələ öz maliyyə siyasətini dayanıqlı vəziyyətə gətirməkdir.

Tələb və təklif arasında uyğunsuzluqların azaldılması, potensialın yüksək standartlara uyğun artırılması baxımından milli əmək bazarının gücləndirilməsi tələb olunur.

Öz növbəsində bu ümumi struktur ölkədə inkişafla bağlı mühüm fərqlərin olmasına şərait yaradır. Vacib məqam kimi, iqtisadi sərvətlərin bölüşdürülməsi kənd və şəhər yerləri arasında qeyri-bərabərdir. Yoxsulluq əhəmiyyətli şəkildə azalsa da, sosial cəhətdən həssas təbəqələrdən olan xeyli sayda insan – o cümlədən, kənd sakinləri, çoxuşaqlı ailələr, boşanmış ailələr, əlilliyi olan insanlar, əmək miqrantları və məcburi köçkünlər (MK) – yoxsulluq həddindən aşağı və ya yuxarı səviyyədə qalırlar və xüsusən də kənar təsirlərə qarşı zəif müdafiə qabiliyyətinə malikdirlər. Yaşayış xərclərinin artması ilə sosial müavinət və pensiya məsələləri əsas ehtiyacları təmin etmək üçün aktuallaşır. MK-lər xüsusilə yoxsulluğa, yoxsul yaşayış şəraitinə və aşağı məşğulluq səviyyələrinə qarşı müdafiəsizdirlər və onlar öz ehtiyaclarının təmin olunması üçün tədricən daha çox Hökumət yardımından asılı vəziyyətə düşürlər. Milli qanunvericilikdə MK-lərin yalnız bərabərhüquqlu vətəndaşlar kimi statuslarının normallaşdırılmasını deyil, eyni zamanda, onların mülk və torpaqlarının itirilməsindən meydana gələn problemlərin azaldılmasına istiqamətlənən müsbət addımların atılmasını təmin edən çoxlu sayda hüquqi müddəalar vardır.

Nəzərəçarpan irəliləyişə baxmayaraq, xüsusilə təhsil və səhiyyə sahəsində sosial xidmətlərin ümumi keyfiyyəti narahatlıq doğurmaqda davam edir. Ümumən uşaqların yalnız 14.8 faizi məktəbəqədər təhsildən yararlanır (21.8 faiz şəhər, 8.1. faiz kənd).[7]Birləşmiş Millətlər Təşkilatının məlumatına görə, oğlanlar və qızlar arasında orta məktəb təhsilini buraxma səviyyəsi müvafiq olaraq 2.4 və 1.1 faiz təşkil edir. 2011-ci ildə ölkədə aparılmış Demoqrafik və Sağlamlıq Sorğusuna əsasən, körpə ölümü səviyyəsi hər 1,000 canlı doğuşa 32.4, 5 yaşadək uşaqlar arasında ölüm səviyyəsi isə 39.6-dır.[8] Doğularkən normadan aşağı çəkidə olan körpələr bütün yeni doğulanların 10.2 faizini təşkil edirlər.[9] Ölkədə ilkin səhiyyə xidmətləri şəbəkəsi mövcud olsa da, uşaqlıq dövrünə xas əlillik hallarının erkən aşkarlanması və qarşısının alınması üçün müasir vasitələrdən istifadə edilmir və əlilliyə tibbiləşdirilmiş yanaşma hələ də üstünlük təşkil edir. Bundan əlavə, Azərbaycan bir çox Avropa ölkələri kimi, ciddi şəkildə, siqaret çəkmənin zərərli təsirləri kimi qeyri-yoluxucu xəstəliklərdən (QYX-lər) törəyən yeni səhiyyə problemləri ilə üzləşməkdədir və bu kimi bir sıra problemləri QYX-lər üzrə Qlobal Fəaliyyət Planının (2013–2020-ci illər) və BMT Baş Assambleyasının QYX-lər üzrə qətnaməsinin (2011-ci il) ümdə prinsiplərinə əsaslanmaqla QYX siyasəti vasitəsilə Birləşmiş Millətlər Təşkilatı sisteminin dəstəyi ilə həll etməyə başlayır. Səhiyyə məsələlərinin diqqəti sosial-iqtisadi faktorlar və sağlamlığa təsir arasında əks əlaqəyə yönəldilən Avropa Səhiyyə Siyasətinə ('Səhiyyə 2000') uyğun olaraq, xüsusilə də sağlamlığı müəyyənləşdirən sosial amillərin vacibliyini tanımaqla, əksər milli inkişaf proseslərində nəzərdən keçirilməsi və əks

[7]Dövlət Statistika Komitəsi, http://www.stat.gov.az/source/education/indexen.php

[8]Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) 2013. *Demoqrafik və Sağlamlıq Sorğusu, Azərbaycan.* 2011-ci il. Səhiyyə Nazirliyi (SH). Bakı, Azərbaycan, səh.104.

[9] Eyni mənbə, səh. 127.

etdirilməsi vacibdir. Səhiyyə məsələləri 2015-ci ildən sonrakı inkişafla bağlı milli məsləhətləşmələrdə iştirakçılar tərəfindən də vurğulanmışdır.

Tədricən artan qlobal iqtisadiyyatda çiçəklənmə üçün zəruri olan vərdişləri yaratma təxirəsalınmaz prioritet bir məsələdir. Gənclərin məşğulluğunu təşviq etmək məqsədi ilə peşə təhsili və təlimi (PTT) sistemlərini, xüsusilə də idarəçilik, təşkilatlar və tədris proqramı baxımından müasirləşdirmə işi davam etdirilməlidir. Öz növbəsində, bu, peşə təhsili və əmək bazarının tələbləri arasında əlaqələri gücləndirəcək və vərdişlərin formalaşdırılma prosesində mühüm iştirakçılar kimi PTT məktəblərini daha cəlbedici edəcəkdir. Bu kontekstdə əmək bazarında inkişafın monitorinqini və vərdişlərlə bağlı ehtiyacların təhlilini aparmaq üçün potensial inkişaf etdirilməlidir.

Bərabərlik və dayanıqlılıq məsələlərini daha effektiv şəkildə həll etmək üçün təşkilati potensialın inkişaf etdirilməsi və sistemlərdə dəyişiklik icranı, şəffaflığı və cavabdehliyi artırmaq və yekunda əhalinin həssas təbəqələrinin hədəf seçilməsi və onlara təsir üçün əlavə gücləndirmə və əlaqələndirmə tələb edir. İnkişaf üçün məlumatların mövcudluğu və etibarlılığı, habelə təsnifatlandırma və təhlil üçün məhdudiyyətlər bir çox sektorlarda problem kimi qalmaqdadır. Ümumi monitorinq və qiymətləndirmə potensiallarına dəstək göstərmək və yuxarıda qeyd olunduğu kimi, Azərbaycanda daha çox bərabərliyə diqqət yetirilən uzunmüddətli milli baxışlara və dəlillərə əsaslanan strategiyalara kömək etmək üçün keyfiyyətə nəzarət sisteminin qurulmasına və orta səviyyədə dövlət qulluğunun gücləndirilməsinə xüsusi diqqət tələb olunur.

Azərbaycanda bir sıra təhlükə və təbii fəlakət, o cümlədən zəlzələ, mövsümi daşqınlar və torpaq sürüşmələri riski yüksəkdir. Əhalinin təhlükələrə və təbii fəlakətlərə ciddi şəkildə məruz qalması və zəifliyi fəlakət risklərini artırır. Təbii təhlükələr kənd ərazilərində kənd təsərrüfatına və şəhər yerlərində infrastruktura ciddi ziyan vurur. Ətraf mühitlə bağlı məsələlərin təxirə salınmadan həll edilməsi ətraf mühiti zərərli iqtisadi fəaliyyətlərin neqativ təsirindən qorumaq üçün tədricən vacib məqama çevrilir; havanın və suyun çirklənmə səviyyəsi yüksəkdir, eyni zamanda, içməli su çatışmazlığı ciddi problem kimi mövcuddur. Bundan əlavə, xüsusən ölkənin kənd təsərrüfatından yüksək səviyyədə asılılığını, habelə enerji sektoru infrastrukturunu yeniləmək, uyğunlaşma imkanlarını və dayanıqlılığı gücləndirmək və dağıdıcı hadisələrin təsirini mümkün qədər yüngülləşdirmək və uyğunlaşmaq zərurətini nəzərə aldıqda, Azərbaycan iqlim dəyişmələrinin təsirlərinə həssasdır. Bu səbəbdən Azərbaycanda ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə sahəsində müvafiq siyasət sənədinin layihəsi hazırlanmış və ətraf mühitlə bağlı dayanıqlılığın artırılmasının təşviqi əsas prioritet məsələ olaraq qalır.

Bütün bu çağırışların mərkəzində gender bərabərliyinin təmin olunması durur. Ölkədə qadınlara dair ayri-seçkiliklərin aradan qaldırılması üçün mühüm addımlar atılsa da, dəlillərə əsaslanan məlumatlar onu göstərir ki, qadınlar hələ də həm dövlət, həm özəl sektorlarda

fərdi, təşkilati və struktur ayrı-seçkilikləri ilə üzləşmək kimi ciddi risk altındadırlar. Məsələn, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatı onu göstərir ki, ibtidai, orta və ali təhsil alan qadınların sayı demək olar ki, bu pillələrdə təhsil alan kişilərin sayına bərabər olsa da, doktorantura pilləsində təhsil alan qadınların sayı azdır.

Eyni zamanda, qadınların qərarların qəbul edildiyi vəzifələrdə təmsil olunmasına və onların ümumi məşğulluğuna dair məlumatlar, qadınların əsasən təhsil, səhiyyə və sosial xidmətlər kimi aşağı məvacibli sektorlarda cəmləşməsi ilə bütün sektorlarda şaquli və üfüqi fərqlərin olduğunu göstərir. Üstünlük təşkil edən gender stereotip və münasibətləri ənənəvi gender rollarını bir qədər də gücləndirir və erkən nikahlar, gender-əsaslı cinsi seçimi və məişət zorakılığı kimi gender zəminində ayrı-seçkiliyin mənfi formaları üçün əsas yaradır.

Sosial təminat, gənclər, məcburi köçkünlər və əlilliyi olan insanlar kimi həssas qruplar arasında səlahiyyətlərin əhəmiyyətli dərəcədə genişləndirilməsinə də eynilə diqqət yetirilməlidir. Məsələn, Azərbaycanda təxminən hər 4 insandan 1-i 14 yaşdan aşağıdır. Buna görə də yeniyetmə və gənclərin (həm kişi, həm də qadın) əzmkarlıq və enerjiləri tədricən onların gələcək liderlik rolunun hazırlanması istiqamətinə yönəldilməlidir.

İnsan hüquqları baxımından Azərbaycan 172 beynəlxalq müqavilə, protokol və digər sənədlərə, o cümlədən Birləşmiş Millətlər Təşkilatının insan hüquqlarına dair əsas müqavilələrinin əksəriyyətinə qoşulmuş və ya onları ratifikasiya etmişdir. Əlavə olaraq, Azərbaycan İnsan Hüquqlarına dair ikinci Milli Fəaliyyət Planını qəbul etmiş və bir sıra müvafiq məhkəmə və hüquq islahatlarını həyata keçirir. Bu səylərə baxmayaraq, Birləşmiş Millətlər Təşkilatının müxtəlif müqavilə qurumlarının Yekun Müşahidələrində və digər beynəlxalq təşkilatların hesabatlarında Azərbaycanda bütün insanların insan inkişafının tərkib hissəsi olan əsas insan hüquqlarından və azadlıqlardan yararlanmasının təmin edilməsinə dair məsələlər vurğulanır.

***UNAPF-nin birgə şəkildə işlənilib hazırlanması***

Ümumiyyətlə, Azərbaycanda insanlar öz yaşayışlarında ciddi irəliləyişlərə yüksək ümidlər bəsləyirlər və onlar öz gələcəklərinə inamlarını artırmaq üçün stabilliyin və iqtisadi artımın artan faydalarını görməlidirlər. Buna görə də Azərbaycan müxtəlifliyin olduğu cəmiyyətdə səciyyəvi zəiflikləri azaltmaq üçün öz inkişaf prosesinin diqqətlə idarə olunmasını davam etdirməli və əhatəli inkişafın genişləndirilməsinin əhəmiyyətini nəzərə alaraq, inkişafla bağlı böyük nailiyyətlərdən əldə olunan qabaqcıl təcrübələri daha da möhkəmləndirməli və bölüşməlidir.

UNAPF yalnız gələcək əməkdaşlıq üçün çərçivəni təmin etmir, o, eyni zamanda, məsləhətləşmələrin aparıldığı, hərtərəfli və dinamik strateji prioritetləri müəyyənləşdirmə prosesinin nəticəsidir. UNAPF prosesi gələcək proqram dövrünə hazırlaşmaq üçün növbəti addımlar kimi BMT-nin Ölkə üzrə İdarə Heyəti (UNCT) tərəfindən seçilən təhlilin yeni "hibrid

strategiyasına" və əlavə boşluqların təhlilinə dəstək olan hazırkı 2011–2015-ci illər Birləşmiş Millətlər Təşkilatının İnkişafa Yardım üzrə Çərçivə Sənədinin (UNDAF) aralıq icmalı ilə 2013-cü ilin noyabr ayında başlamışdır. Öz növbəsində UNAPF aşağıdakılara diqqət yetirilən tərəfdaşlıq çərçivəsinin inkişaf etdirilməsinə doğru hərəkətə əsaslanmışdır: (1) milli partnyorlarla daha dərin tərəfdaşlığın qurulması, (2) siyasətə və yuxarı səviyyəyə yönəldilmiş təbliğata daha çox diqqət ayrılması, (3) tələbata uyğun iştirak və (4) nəticələr üçün qarşılıqlı cavabdehlik zəminində milli sahiblik.

İnkişaf proseslərində Hökumətin rolunun lider və aparıcı kimi gücləndirilməsini təmin etmək, iştiraka və inkişafla bağlı bütün nəticələrə milli səviyyədə nəzarətə zəmanət verilməsinə kömək etmək məqsədi ilə, vacib və çox vaxt kifayət qədər mürəkkəb sahələr olan insan hüquqlarına əsaslanan yanaşmanın (HRBA), nəticələrə əsaslanan idarəçiliyin (RBM) və gender məsələlərinin həmkarlar və tərəfdaşlar tərəfindən başa düşülməsini dərinləşdirmək üçün 2014-cü ilin əvvəllərində Hökumət, vətəndaş cəmiyyəti, inkişaf tərəfdaşları və digər maraqlı tərəflərlə birgə UNDAF-ın maarifləndirmə seminarları təşkil olunmuşdur. Bu tədbirlər böyük bir təbliğat vasitəsi olmuşdur. Seminarların əksər iştirakçıları UNAPF-nin mühüm tədbirlərində iştirak etmiş və UNAPF Nəticə Qruplarına habelə Monitorinq və Qiymətləndirmə üzrə Qrupa daxil edilmişlər.

UNAPF-nin işlənilib hazırlanması həm Birləşmiş Millətlər Təşkilatı sisteminin özündə, həm də Hökumət, vətəndaş cəmiyyəti, özəl sektor və digər maraqlı tərəflərlə strateji müzakirələrdən irəli gələn Birləşmiş Millətlər Təşkilatı sisteminin Hökumətin məqsədlərinə ən yaxşı halda necə dəstək göstərə biləcəyini müəyyənləşdirmək niyyətini güdmüşdür. 2014-cü ilin aprel-may aylarında aparılan birgə Ölkə üzrə Təhlil və UNDAF qiymətləndirməsi inkişafla bağlı əsas problemləri, Birləşmiş Millətlər Təşkilatının orta gəlirli ölkə kontekstində unikal müqayisəli üstünlüklər təklif etdiyini və ardıcıl proqramla bağlı dəstəyin və əməkdaşlığın ən böyük nəticələr verə biləcəyi sahələri müəyyənləşdirməyə kömək etmişdir. Eyni zamanda, yekun UNDAF Qiymətləndirməsi UNDAF-ın Aralıq İcmalındakı nəticələrini, yəni Azərbaycan üzrə Birləşmiş Millətlər Təşkilatının daha güclü inteqrasiya edilmiş yanaşmasına və BMT agentliklərinin təcrübəsi ilə Birləşmiş Millətlər Təşkilatının Fond/Proqramlarının potensialını daha yaxşı birləşdirən müdaxilələrin uyğunlaşdırılmasına ehtiyacın olmasına dair nəticələrini təkrarladı.

2014-cü ilin iyun ayında Hökumət və BMT-nin Ölkə üzrə İdarə Heyəti (UNCT) tərəfindən birgə keçirilən Müştərək Strateji Prioritetləşdirmə seminarında, Birləşmiş Millətlər Təşkilatı sistemi, o cümlədən qeyri-rezident agentliklər, Hökumət və ümumi inkişaf istiqamətləri üzrə digər maraqlı tərəflər arasında aparılan geniş müzakirələr əsasında UNAPF-nin üç strateji prioritet sahəsi müəyyən edilmişdir. Seminarda Strateji Nəticə səviyyəsində UNAPF-nin Nəticələr Cədvəlinin də hazırlanmasına qərar verilmişdir.

Hər bir sahə üzrə yaradılmış UNAPF-nin Müştərək Nəticə Qrupları strateji prioritet sahələri müəyyənləşdirmək üçün fəaliyyət göstərmişlər. 2014-cü ilin sentyabr ayında Hökumət və UNCT tərəfindən birgə keçirilən Təsdiqetmə seminarı, razılaşdırılmış strateji prioritet sahələr və nəticələr üzrə konsensusun möhkəmlənməsinə, habelə UNAPF-nin Nəticələr və Resurslar Çərçivəsinin digər mühüm məqamlarına, o cümlədən göstəricilər, ilkin vəziyyət, hədəflər, yoxlama vasitələri, əsas risklər, ehtimallar və indikativ resurslarla bağlı razılığın əldə olunmasına təkan vermişdir.

UNAPF həmçinin keyfiyyətə dəstək və zəmanət üçün BMT-nin Ölkə üzrə İdarə Heyəti, Regional İdarələrarası Həmkarlar tərəfindən nəzərdən keçirilmə Dəstəyi Qrupu və Hökumət tərəfindən aparılan geniş nəzərdən keçirmədən də faydalanmışdır.

Azərbaycanda BMT-nin bütöv İnkişaf Sisteminin – bütün fondların, proqramların və agentliklərin, UNAPF-də ifadə olunmuş ümumi baxışa dəstək göstərmək və onu möhkəmləndirmək məqsədi ilə 2016 – 2020-ci illər üçün ölkə üzrə müvafiq əməkdaşlıq strategiyalarını uyğunlaşdıracağı gözlənilir.

Qeyd edilməlidir ki, UNAPF işlək sənəddir, Azərbaycanın sürətlə inkişaf edən sosial-iqtisadi vəziyyətinə və yeni meydana çıxan məsələlərə cavab vermək üçün kifayət qədər uyğunlaşma imkanına malikdir. UNAPF xüsusilə, milli səviyyədə daha güclü aparıcılıq, mili sahiblik və cavabdehlik üçün mühüm imkanlar təklif edir. Beləliklə, bu çərçivənin milli prioritetlərə aktiv dəstək göstərəcəyi, hədəflərə daha çox yönəldiləcəyi və diqqət yetiriləcəyi, nail oluna bilən və ruhlandırıcı və hər şeydən əvvəl təsir gücünə malik olacağı gözlənilir. Ümumiyyətlə, buna görə, BMT-nin Ölkə üzrə İdarə Heyətinin məqsədi planlaşdırmada sürətli şəkildə uyğunlaşdırmadır: müəyyən layihələri birgə tərtib edərək, bu planları inteqrasiya edilmiş bütöv şəkildə bölüşərək, BMT-nin Ölkə üzrə İdarə Heyəti, Azərbaycan Respublikasının əhalisi və Hökuməti ilə aktiv, əlaqələndirilmiş və dəyərləri paylaşan tərəfdaş olmaq imkanını yaratmaqdır.

## 1.2 Birləşmiş Millətlər Təşkilatının güclü tərəfləri və əməkdaşlıq strategiyaları

Bir çox orta gəlirli ölkələr (MICs), hamısı olmasa da, aşağıdakı əsas ümumi cəhətlərə malikdirlər: yüksək iqtisadi artım; ticarət üçün açıqlıq və dünya iqtisadiyyatına inteqrasiya, xarici yardımdan aşağı səviyyədə asılılıq, özəl kapitala və investisiyalara əhəmiyyətli çıxış imkanı.[10] Beynəlxalq inkişaf məqsədlərinə daha çox birlikdə nail olunduğundan, bu ölkələr, o cümlədən Azərbaycan, regional və qlobal rifaha daha çox maraq göstərməyə üstünlük verirlər, geridə qalan sosial qruplara və inkişaf sahələrinə diqqət yetirirlər. sosial və ətraf

[10]BMTİP, UNFPA, UNOPS, UNICEF, BMT Qadınlar Təşkilatı və ÜƏP, *Orta-gəlirli ölkələr: beynəlxalq səviyyədə razılaşdırılmış inkişaf məqsədlərinə nail olmaq üçün Birləşmiş Millətlər Təşkilatının rolu və iştirakı.*Nyu York, yanvar 2012-ci il.

mühit baxımından daha geniş dayanıqlı inkişaf məsələlərini təşviq edirlər. Bu, inkişafa yardımın "donorlar" və "qəbul edənlər" dixotomiyasına getdikcə az uyğun gəlməsi səbəbindən qlobal inkişaf tərəfdaşlıqları ilə nəticələnərək inkişaf paradiqmasında fundamental dəyişikliyə işarədir.

Lakin, MIC-lar həm də oxşar inkişaf problemləri ilə üzləşir və bir çox MIC-lar Minilliyin İnkişaf Məqsədlərinə nail olunmasında geri qalırlar. Durğun artım; kənar təsirlərə qarşı zəiflik; artan bərabərsizliklər və bəzi təbəqələrin inkişafın faydalarından sosial baxımdan təcrid olunması; sənaye ixracında aşağı-gəlirli, aşağı-məvacibli iqtisadiyyatlarla, habelə yüksək ixtisas tələb edən innovasiyalarda qabaqcıl iqtisadiyyatlarla rəqabətin aparıla bilməməsi; diversifikasiyanın aşağı səviyyələrdə olması; gəlir bərabərsizliyi; gənclərin işsizliyi və ən son texnologiyaların qəbul edilməsinə əngəl olan bazar, institusional, idarəçilik və davranışla bağlı zəifliklər kimi "orta gəlir tələsi" simptomları əksər MIC-larda müşahidə oluna bilər. Buna görə də bir çox MIC-lar yuxarı gəlir səviyyəsinə qalxa bilmir və davamlı şəkildə geriyə yoxsulluq həddindən aşağı düşmə riski ilə üzləşirlər.

UNAPF-nin effektiv şəkildə yerinə yetirilməsi üçün bir sıra mühüm strategiyalar müəyyən edilmiş və onlar proses boyu tətbiq ediləcəkdir. Bunlar Birləşmiş Millətlər Təşkilatının planlaşdırılmasının beş əsas prinsipinə əsaslanır: bütün proqram sahələrdə insan hüquqlarına əsaslanan yanaşmanın (HRBA) tətbiqi, gender bərabərliyi, ekoloji dayanıqlılıq, nəticələrə əsaslanan idarəetmə (RBM) və milli institusional potensialın inkişaf etdirilməsi..

Birincisi, milli potensialı yüksəltmək üçün fundamental bir dəyər və ümumilikdə dayanıqlı inkişaf üçün davamlı ilkin şərt kimi *siyasətin yerinə yetirilməsi, təşkilati quruculuq və sistemlərin inkişaf etdirilməsi işinin gücləndirilməsinə* diqqət yetirməkdir. Bu, nəticələrə əsaslanan inkişaf nailiyyətləri, insan resurslarının effektiv idarə olunması və belə nəticələrə nail olmaq üçün lazımi maliyyə resursları və vasitələri baxımından diqqət mərkəzində olacaqdır. Məsələn, təşkilati potensialın inkişaf etdirilməsi strateji baxımdan siyasət, prosedurlar və çərçivələrlə bağlı məsələləri həll edəcəkdir ki, bu da təşkilatlara, əhaliyə göstərilən xidmətlərin təkmilləşdirilməsindən başlayaraq ümumi idarəçiliyin gücləndirilməsinə qədər öz mandatlarını yerinə yetirməyə imkan yaradacaq və beləliklə də inkişafla bağlı daha geniş təsiri təmin etmək məqsədini daşıyacaqdır.

Birləşmiş Millətlər Təşkilatı sistemi yerli reallıqlara uyğunlaşdırılmış inkişaf yanaşmasına riayət olunaraq məzmunla bağlı və strateji siyasətlə bağlı yüksək səviyyəli məsləhət xidmətlərini təklif etmək üçün özünün liderlik, təşviqat və qlobal çıxış imkanından istifadəni davam etdirmək üçün xüsusilə əlverişli mövqedədir. Öz növbəsində, agentliklər 2011-ci il Effektiv İnkişaf Əməkdaşlığı üzrə Busan Bəyannaməsi və Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən Dördillik Əhatəli Siyasi İcmalın (QCPR) nəticələrinin tətbiqində Hökumətə dəstək göstərəcəklər.

Bu baxımdan, *Birləşmiş Millətlər Təşkilatının mandatının məğzini təşkil edən milli potensialı inkişaf etdirmə paradiqması* ciddi şəkildə vurğulanacaqdır. Bu, milli sahibliyə real anlayış verir və həm təşkilati, həm də fərdi səviyyələrdə daha məlumatlı şəkildə seçimlərə və qərarlara imkan yaradır. Potensialın inkişaf etdirilməsi, həmçinin, tarazlaşdırılmış regional inkişafla bağlı milli məqsədə dəstək olaraq, Azərbaycanda insan inkişafında bərabərliyi təmin etmək üçün effektiv gücləndirmə tələbi ilə də əlaqələndiriləcəkdir. Vacib məqam kimi, potensialın inkişaf etdirilməsi siyasət üzrə dialoq vasitəsilə hər bir sektora və ya nazirliyə uyğunlaşdırılacaqdır. Tamamlanmalar, təşəbbüsləri genişləndirmə bacarığı, təsir və xərclərin effektivliyi də nəzərə alınacaqdır.

Eynilə, proqram nəticələrində, xüsusilə də qadınlar və uşaqlar üçün sosial inklüzivliyi təmin etmək məqsədi ilə *inkişafın faydalarının daha yaxşı şəkildə bölüşdürülməsinin* təşviq olunması vacibdir. Beləliklə, bu, proqram fəaliyyətində hədəflərin daha effektiv şəkildə seçilməsinə yol açacaqdır. Xüsusilə qadınlar, gənclər, uşaqlar, məcburi köçkünlər, yaşlılar, əlilliyi olan insanlar, miqrant fəhlələr kimi həssas təbəqələrin səlahiyyətlərini genişləndirərək inkişafa insan hüquqlarına əsaslanan yanaşma üzrə potensial yaratmaq üçün Birləşmiş Millətlər Təşkilatı sisteminin mühüm bir imkanı mövcuddur.

Əlavə olaraq, *təkmilləşdirilmiş və innovativ biliklər əsasında idarəetmə vasitəsilə* - qiymələndirmənin nəticələrinə və təsir yanaşmalarına əsaslanan yeni mexanizmləri tətbiq edərək Birləşmiş Millətlər Təşkilatının regional və qlobal təcrübə və məlumat bazalarına genişləndirilmiş çıxış imkanı ilə, Hökumətin keyfiyyətli məlumatlar əldə etmə, onların təhlilini aparma və onlardan istifadəetmə potensialının inkişaf etdirilməsi – düzgün və dəlillərlə əsaslanan siyasətlə bağlı qərarları və effektiv proqram nəticələrini təmin etmək üçün vacibdir.

Nəhayət, Birləşmiş Millətlər Təşkilatının geniş nüfuzu və etibarı onun hamı tərəfindən qəbul edilmiş qərəzsizliyi və tərəfləri bir araya toplama səlahiyyəti ilə tamamlanır. Ayrıca olaraq, o, *beynəlxalq sazişlərin və Azərbaycanın öhdəliklərinin yerinə yetirilməsinin təşviq olunmasına və bunun monitorinqinin aparılmasına* kömək edə, eyni zamanda, *sosial birliyə nail olmaq və sosial cəhətdən həssas təbəqələri də əhatə etmək üçün effektiv sosial siyasətin və proqramların sonrakı mərhələdə işlənilib hazırlanmasına və tətbiqinə* dəstək göstərə bilər. O, eyni zamanda özünün böyük təhlil imkanları vasitəsilə, o cümlədən qeyri-rezident agentliklər arasında əhatəli inkişaf, sosial və ekoloji baxımdan dayanıqlı artımı effektiv şəkildə təşviq edə bilər.

Birləşmiş Millətlər Təşkilatı Sistemi Hökumət, vətəndaş cəmiyyəti və digər maraqlı tərəflərlə əməkdaşlığın əsası kimi inamın dərinləşdirilməsinə əsaslı şəkildə kömək edəcəkdir. Bundan əlavə, bunu yerinə yetirməklə yalnız dünya təcrübəsini Azərbaycana gətirməyəcək, eyni zamanda, Azərbaycanın əhəmiyyətli nailiyyətlərini dünyaya çıxaracaqdır. Bu, xüsusilə, biliyə əsaslanan və tədricən yüksək gəlirli ölkəyə keçid prosesində Azərbaycana yardım etmək

məqsədi ilə insan inkişafına və sosial sektorlarda nailiyyətlərə dəstək göstərmək üçün BMT-nin müqayisəli üstünlüklərindən bəhrələnməni də əhatə edəcəkdir.

Eyni zamanda, ümumi kəsişən mövzulara və çoxsahəvi məsələlərə diqqət yetirməklə strateji inkişafın proqnozlaşdırılmasında Birləşmiş Millətlər Təşkilatı sisteminin geniş təcrübəsinə effektiv cavabdehlik mexanizmləri də dəstək olacaqdır. Xüsusilə, o, inkişaf proqramını irəliyə aparmaq üçün milli və regional təşkilatlar, qeyri-hökumət və vətəndaş cəmiyyəti təşkilatları, elmi mərkəzlər, elmi cəmiyyət, kütləvi informasiya vasitələri və özəl sektorla strateji tərəfdaşlıqlar qurmaq və onları genişləndirmək, eyni zamanda, bu cür əhatəli prosesləri həvəsləndirmək üçün böyük potensial təklif edir. Göstəriləcək səylər, həm üfüqi (mərkəzi səviyyə təşkilatları arasında), həm də şaquli əlaqələri (mərkəzi və yerli səviyyələr arasında) dərinləşdirmək üçün müxtəlif agentliklərin təcrübəsindən yararlanacaqdır.

BMT sistemi vətəndaş cəmiyyətinin imkanlarından yararlanacaq və qeyri-hökumət iştirakçılarının Azərbaycanın sosial və iqtisadi inkişafına kömək etmələrinə dəstək olmaq üçün sosial tərəfdaşların və qurumların beynəlxalq standartlara və konvensiyalara dair biliklərini gücləndirəcəkdir. Gənclərin könüllülüyünə tədricən daha çox önəm verməklə (məsələn, ASAN Xidmət Mərkəzləri; 2015-ci ildə ilk Avropa Oyunları), bu resurslardan daha çox istifadə etmə imkanı mövcuddur. Buna kömək etmək üçün BMT bölüşə biləcəyi dəyərli və qabaqcıl təcrübəyə malikdir.

İcra üçün əsas vasitələr artıq inkişaf etdirilən əlaqələndirmə mexanizmləri vasitəsilə UNAPF-nin icrası zamanı yenidən müəyyən ediləcəkdir (Hissə IV); bəziləri üçün ümumi və birgə proqramların işlənilib hazırlanması və ya maliyyələşdirilməsinin tələb olunacağı güman edilir. Buna görə də, Birləşmiş Millətlər Təşkilatının Ölkə üzrə İdarə Heyəti (UNCT) **Vahid BMT Fəaliyyəti üzrə Standart Fəaliyyət Prosedurlarının** ən uyğun və mümkün vasitələrini tətbiq edərək, birgə proqramların hazırlanmasına və idarələrarası əməkdaşlığa çalışacaq və resurs toplama və daha "uyğunlaşdırılmış" yanaşmalar üçün imkanları araşdıracaqdır. Bura ***Vahid Lider*** (***Səlahiyyətləndirilmiş Rezident Əlaqələndirici*** və ***Səlahiyyətləndirilmiş BMT-nin Ölkə üzrə İdarə Heyəti***), ***Vahid Əməliyyat*** və ***Vahid Məlumatlanma və Ünsiyyət*** elementləri aid olacaqdır. Bütün bunlar sayəsində aşağıdakıların əldə olunması gözlənilir:

- BMT agentlikləri və milli təşkilatlar arasında əlaqələndirmə səylərinin gücləndirilməsi;
- Proqram üzrə siyasətin işlənilib hazırlanması və effektiv xidmətlər arasında daha təkmil tarazlığın təmin edilməsi;
- Şəhər və kənd ərazilərinin inkişafı arasında daha təkmil tarazlığın təmin edilməsi;
- İnkişaf prosesində aktiv iştirak etmək üçün vətəndaş cəmiyyətinin səlahiyyətlərinin artırılması;

- Qadınlar, gənclər, uşaqlar və həssas qruplara (qaçqın və məcburi köçkünlər əlilliyi olan insanlar və miqrant fəhlələr) xüsusi diqqət yetirməklə sosial inklüzivliyi təmin etmək üçün öhdəliyin artırılması;
- Effektiv monitorinq və qiymətləndirmə mexanizmləri vasitəsilə dəlillərə əsaslanan nəticələrə daha çox diqqətin yetirilməsi.

Bu üstünlüklərin hamısı UNAPF dövründə mühüm toplama, əlaqələndirmə, körpü yaratma və bilikləri bölüşmə rolunun oynanılmasında Birləşmiş Millətlər Təşkilatının güclü tərəflərini göstərir. Ümumiyyətlə, Birləşmiş Millətlər Təşkilatı milli səviyyədə biliklər yaradan, onları tamamlayan və nəticələr verən yüksəkkeyfiyyətli, əlavə dəyərə malik yardımını təklif edəcəkdir.

Birgə tərəfdaşlıqlardan və tematik əməkdaşlıqdan əlavə, UNAPF-də ayrı-ayrı mandatların və müvafiq BMT agentliklərinin işinin, habelə orta-gəlirli ölkə kimi Azərbaycan kontekstində BMT-nin təşviqat və normativ fəaliyyətinin vacibliyi aydın şəkildə vurğulanır. UNAPF-nin hazırlanma prosesinin bir hissəsi kimi, "yuxarı səviyyəyə yönəlmiş fəaliyyət" və effektiv nəticələr üçün Azərbaycanda BMT sisteminin güclü tərəflərindən daha yaxşı yararlanmağa diqqət yetirilməklə, hər bir agentlik milli prioritetlərə lazımi şəkildə uyğunlaşdırılma üçün öz strategiyalarına və fəaliyyət planlarına düzəlişlər etmişlər. Birləşmiş Millətlər Təşkilatı tərəfindən həyata keçirilməli nəticələr və tədbirlər aşağıda qısa şəkildə təsvir olunur; Nəticələr və Resurslar Cədvəli 1-ci Əlavədə təfsilatlı şəkildə , hər bir Nəticə üzrə agentliklərin xüsusi töhfələri isə 2-ci Əlavədə verilir.

## II. UNAPF-də strateji prioritet sahələr və gözlənilən nəticələr

UNAPF ölkəni geniş imkanların və hamı üçün layiqli əməyin mövcud olduğu beynəlxalq səviyyədə rəqabətqabiliyyətli və iqtisadi baxımdan şaxələnmiş bir ölkəyə çevirməyi; regionlar arasında bərabərsizliklərin azaldılmasını; yaxşı idarəçiliyin gücləndirilməsini; və keyfiyyətli sosial xidmətlərdən faydaların əldə olunmasını nəzərdə tutan *'Azərbaycan-2020: gələcəyə baxış'* İnkişaf Konsepsiyasında ifadə olunmuş Hökumətin məqsədlərinə əsaslanır. Milli strateji prioritet sahələr aşağıdakılardır:

- Yüksək rəqabətqabiliyyətli iqtisadiyyata doğru:
  - Səmərəli dövlət tənzimləməsinə və yetkin bazar münasibətlərinə əsaslanan iqtisadi modelin formalaşdırılması;
  - İqtisadi strukturun təkmilləşdirilməsi və qeyri-neft sektorunun inkişaf etdirilməsi;
  - Elmi potensiala və innovativ fəaliyyətə dəstək.
- Nəqliyyat, tranzit daşıma və logistika infrastrukturunun təkmilləşdirilməsi və regionların tarazlaşdırılmış inkişafı;

- İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi və informasiya cəmiyyətinə keçidin təmin edilməsi;
- İnsan kapitalının inkişaf etdirilməsi və effektiv sosial təminat sisteminin yaradılması:
  - Əhalinin sağlamlığının yaxşılaşdırılması və səhiyyə sisteminin gücləndirilməsi;
  - Müasir təhsil sisteminin formalaşdırılması;
  - Sosial müdafiə sisteminin təkmilləşdirilməsi;
  - Gender bərabərliyinin və ailənin inkişafının təmin edilməsi;
  - Gənclərin potensialının və idmanın inkişaf etdirilməsi;
  - Qanunvericiliyin təkmilləşdirilməsi və institusional potensialın gücləndirilməsi;
  - Vətəndaş cəmiyyətinin inkişaf etdirilməsi;
  - Məhsuldar və inklüziv məşğulluğun təşviqi.
- Mədəni irsin qorunması və səmərəli idarə olunması;
- Ətraf mühitin qorunması və ekologiya məsələləri.

UNAPF-nin strateji prioritet sahələri (i) birgə keçirilmiş Ölkə üzrə Təhlilin nəticələri və UNDAF Qiymətləndirməsi, (ii) Hökumət və BMT-nin Müqavilə qurumları arasında dialoq, habelə 2013-cü ildə Azərbaycanın iştirak etdiyi Ümumi Dövri İcmal və Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Konvensiya (CEDAW) üzrə hesabat vermə prosesləri, (iii) 2015-ci ildən sonrakı inkişaf məqsədlərinə dair dialoqdan irəli gələn tövsiyələr və (iv) BMT-nin müvafiq mandata və potensiala malik olduğu, habelə fəaliyyət göstərmək üçün (digərlərinə nisbətən) daha üstün mövqedə olduğu inkişaf çağırışları ilə bağlı sahələrin müəyyənləşdirilməsinə səy göstərilən milli tərəfdaşlar, inkişaf məsələləri üzrə beynəlxalq partnyorlar və digər maraqlı tərəflərlə geniş məsləhətləşmələr sayəsində ərsəyə gəlmişdir.

Bu baxımdan, Azərbaycanda ümumi inkişaf çağırışları aşağıdakılardır:

| İqtisadi səbəblər | Sosial-mədəni səbəblər | Təşkilati və idarəçiliklə bağlı səbəblər | Ətraf mühitlə bağlı və coğrafi səbəblər |
|---|---|---|---|
| • İntensiv əmək tələb olunmayan və qeyri-neft sektorunda artımın alternativ mənbələri üçün imkanları azaldan karbohidrogen sektorundan çox yüksək asılılıq<br>• Yeni gələnləri işçi qüvvəyə cəlb etmək üçün daha çox layiqli iş | • İqtisadi resurslar, insan inkişafı və müdafiə də daxil olmaqla, bir sıra cəbhələrdə bərabərsizliklər yaradan zəif potensial, inam və aşağı sosial-iqtisadi status | • Yerli səviyyədə xidmətləri gücləndirmə tələbi<br>• Dövlət xidmətləri arasında yanlış idarəçilik anlayışları və informasiyanın bölüşməsində zəif təcrübə<br>• Qanunların, siyasətin və proqramların icrasında prosedur çatışmazlıqları və uyğunluğun artırılması | • Nisbətən zəif infrastruktur, kənddən şəhərə nəqliyyat və əlçatanlıqla bağlı problemlər<br>• Gücləndirilmiş və inteqrasiya edilmiş su idarəçiliyinə duyulan ehtiyac<br>• Quraqlıq kimi təbii fəlakətlərə meyilli olan ərazilərin artması ilə |

| | | | |
|---|---|---|---|
| yerlərinə duyulan ehtiyacla yanaşı, məşğulluq imkanlarının və müvafiq iş və texniki vərdişlərin gücləndirilməsi tələbi<br>• Yerli sahibkarlar üçün maliyyə xidmətləri, kapital və kreditlərə çıxış imkanlarının artırılması məqsədi ilə maliyyə bazarlarının inkişafı tələbi<br>• Təhsilin, əhalinin məşğulluğunun, vərdişlərin, sağlamlıq vəziyyətinin yaxşılaşdırılmasına yatırım etmək və daha geniş icma və cəmiyyətin həyatında məqsədəuyğun şəkildə iştirak etmək üçün ehtiyac duyulan vəsaitlərin çatışmazlığı ilə əlaqədar olan gəlir azlığı<br>• Bazar yönümlü iqtisadi və ticarət siyasətini gücləndirmə tələbi<br>• Manatın məzənnəsinin aşağı salınmasının təsirlərini yüngülləşdirmək ehtiyacı<br>• Gücləndirilmiş və effektiv dövlət-özəl sektor tərəfdaşlıqlarına duyulan ehtiyac<br>• kənd təsərrüfatında hasilatın azalması ilə nəticələnən, ətraf mühitə mənfi təsirlərlə və iqlim şəraiti ilə yanaşı, təbii resursları effektiv şəkildə idarə | | ehtiyacı<br>• Mühüm sosial xidmətlərə büdcə ayırmalarını artırma tələbi<br>• Siyasi proseslərdə qadınların və həssas qrupların lazımi səviyyədə təmsil olunmaması<br>• Coğrafi yer, gender, əlillik və digər amillərə görə təfsilatlandırılan daha geniş və etibarlı məlumatlara duyulan ehtiyac<br>• Xüsusən təhsil sektorunda, tədris proqramının və pedaqogikanın dünyada baş verən inkişafla ayaqlaşmasını və vərdişləri əmək bazarındakı tələblərə uyğunlaşdıra bilən peşə təhsil təlim sistemini təmin etmək tələbi. Həssas uşaqların, o cümlədən valideyn qayğısından məhrum olmuş və sağlamlıq imkanları məhdud olan uşaqların əhatə olunmasını təmin etmək üçün inklüziv təhsil siyasətinin də ayrıca inkişaf etdirilməsi ehtiyacı<br>• Səhiyyə xidmətlərinin gücləndirilməsi ehtiyacı; zəif su və sanitariya şəraiti; qadınların, yoxsul ailələrdən olan uşaqların, sağlamlıq imkanları məhdud olan uşaqların və gənclərin sağlamlıqla bağlı ehtiyaclarının kifayət qədər başa düşülməməsi; qabaqcıl səhiyyə təcrübələrinə dair biliklərin olmaması, habelə qeyri-yoluxucu | iqlim dəyişikliyinin təsirləri<br>• Kənd təsərrüfatında məhsuldarlığın artırılması və ərzaq təhlükəsizliyinin yüksəldilməsi tələbi ilə yanaşı, təbii ehtiyatların azlığı və təbii sərvətlərin tükənməsi<br>• Müasir kənd təsərrüfatı sistemlərinin, texnologiyalarının və üsullarının kifayət qədər olmaması və keyfiyyətin artırılmasına yatırımların edilməsinə olan ehtiyac |

| | | | |
|---|---|---|---|
| etmək üçün potensialın gücləndirilməsi ehtiyacı<br>• Yüz minlərlə insanı böyük sosial gərginlik altından qoyan və kəskin resurs çatışmazlıqlarına gətirib çıxaran kütləvi köçkünlük | | xəstəliklərin sayında artım<br>• Sosial müdafiədə, diqqəti nağd şəkildə ödənilən yardımdan kənar bir sıra dəstək xidmətlərinin göstərilməsinə və həssas qrupların imkanlarının artırılmasına doğru genişləndirmək tələbi | |

Təcridetmə və həssaslıq nadir hallarda bir miqyasda baş verir. Sosial, mədəni, iqtisadi, siyasi və coğrafi amillərin hamısı onların hər ikisinin müxtəlif formalarını yaratmaq və gücləndirmək üçün qarşılıqlı şəkildə bir-biri ilə əlaqəyə malik olur və bir-biri ilə kəsişir. Resurslar ölkədə iqtisadi artımın və insan inkişafının daha inklüziv olmasını təmin etmək üçün Azərbaycanda həssas təbəqələri də əhatə edəcək proqramlara yönəldiləcəkdir.

Ölkə üzrə Təhlildən irəli gələn ümumi Strateji Sahələr aşağıdakılardır:

- **Artan şaxələndirilmə və layiqli əməyi özündə ehtiva edən dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi;**
- **İnstitusional potensialın gücləndirilməsi, səmərəli ictimai və sosial xidmətlər;**
- **Ətraf mühitin idarə edilməsinin təkmilləşdirilməsi, risk və təbii fəlakətlərə qarşı dayanıqlılığın artırılması.**

Bu prioritet sahələr çərçivəsində insan hüquqlarına əsaslanan yanaşma, gender bərabərliyi, gənclər, monitorinq və qiymətləndirmə üçün xüsusi potensialın inkişaf etdirilməsi (məsələn, təşkilati, texniki, idarəetmə) və bütövlükdə dəlillərə əsaslanma potensialının təkmilləşdirməsi kimi ümumi kəsişən məsələlər də olacaqdır. Ayrıca olaraq, Azərbaycanda Ölkə üzrə Təhlildə bir fakt vurğulanmışdır ki, gender bərabərliyi ilə bağlı təminatlar dayanıqlı inkişaf prosesləri üçün vacibdir və tövsiyə edilmişdir ki, genderlə bağlı de-fakto boşluqları aradan qaldırmaq üçün səylər gücləndirilməlidir.

Milli məqsədlərə və prioritetlərə uzunmüddətli təsir etmə imkanları 2015-ci ildən sonrakı inkişafa (dayanıqlı inkişaf məqsədlərinə) nail olmağa təsir etdiyi kimi ümumi məsələlərin seçimini təyin etməkdə də öndə olmuşdur. Milli potensialları və beynəlxalq əməkdaşlığı gücləndirmək və hazırkı UNDAF dövrü ərzində əldə olunan təcrübələrə əsaslanmaq imkanları, o cümlədən, daha strateji mövqe tutmaq tələbi eynilə seçimdə mühüm meyarlar olmuşdur.

Ünvanlı dövlət sosial yardım proqramları əhali üçün əlavə imkanlar yaradaraq və yoxsulluğun azaldılmasına çox mühüm köməklik göstərərək çoxtərəfli təsirlərə malik

olmuşdur. İrəliyə yönəldilən tövsiyələri təmin etmək və sosial inkişaf sektorunda proqramları gücləndirmək üçün dəyişiklik nəzəriyyəsinə əsaslanan yanaşma (ünsiyyətdə olmaq, öyrənmək və cavabdehlik daşımaq) tətbiq edilərək proqramların fəaliyyəti, birbaşa nəticələr və sosial dəyişikliyin daha yüksək prosesləri arasında əlaqələrin araşdırılmasında istifadə ediləcəkdir.

BMT sistemi Hökumətə, ölkə və bölgə səviyyələrində insan kapitalının inkişafı, idarəçilik və təşkilati potensialı gücləndirməklə, insanların rifahının yüksəlməsinə xidmət, habelə sağlamlığın iqtisadi, sosial, mədəni və ətraf mühitlə bağlı amillərinin həlli üçün yardımın göstərilməsində mühüm rol oynayacaqdır.

Möhkəm təməllər üzərində qurularaq, UNAPF növbəti 5 (beş) il müddətində uğur qazanmaq üçün məqsədyönlü istiqaməti təmin edir.

**1-ci strateji prioritet sahə: Artan şaxələndirilmə və layiqli əməyi özündə ehtiva [illegible] dayanıqlı və inklüziv iqtisadi inkişafın [illegible]**

*Azərbaycan 2020 [illegible] iqtisadiyyat [illegible] regionların [illegible] inkişaf [illegible] insan kapitalının inkişafına [illegible] cəmiyyətinə keçidin təmin olunmasına doğru*

1.1-ci Nəticə: 2020-ci ilədək Azərbaycan iqtisadiyyatının diversifikasiyası, dayanıq[illegible] xüsusilə [illegible] qadınlar [illegible] imkanlarını genişləndirilməsi [illegible] yaradılmışdır.

İqtisadi artım Azərbaycan üçün çox vacib olduğu bir zamanda, bu, belə artımın dayanıqlılığını və daha uzun müddətə inkişafı təşviq edəcəyini müəyyənləşdirəcək bir modeldir. Ayrıca olaraq, sənayedə müxtəliflik və artım dayanıqlı və əhatəli vəziyyətə əsaslanmalıdır. Hamı üçün həyat səviyyəsinin yaxşılaşdırılması ciddi problem olaraq qalır, inkişafın bəhrələri və xidmətlər daha geniş şəkildə paylandıqca, Azərbaycanın əhatəli, bərabər və dayanıqlı inkişafa rahat keçid imkanı da daha böyük olacaqdır.

Bunun həyata keçirilməsi məqsədi ilə Azərbaycan orta və uzun müddət üçün kənd təsərrüfatı, karbohidrogen istehlakı və tikinti-yönümlü modeli nəzərdən keçirərək öz artım strategiyalarını yenidən istiqamətləndirməlidir. O, yüksək məhsuldar, daha çox bazaryönlü yanaşmalar və rəqabət, habelə kiçik və orta sahibkarlığın inkişaf etdirilməsinə diqqət yetirməklə investisiyalara əsaslanan iqtisadiyyata doğru getməli, eyni zamanda, xüsusilə kənd təsərrüfatı sektorunda, iqlimə uyğunlaşma potensialını yaxşılaşdırmaq üçün çox real ehtiyacı qəbul etməlidir.

Birləşmiş Millətlər Təşkilatı sistemi həm yoxsulları dəstəkləyən, həm də məşğulluq yönümlü inklüziv və dayanıqlı artım amillərini əhatə edərək, bir sıra iqtisadi sahələrə dair müqayisəli üstünlüklərini təklif edir. O, gənclərin, qadınların və əlilliyi olan insanların iqtisadiyyatda nisbətən əlverişsiz vəziyyətdə olduğunu nəzərə alaraq, prioritet hədəf qrupları kimi,(xüsusən də kənd və rayon yerlərində yaşayan) bu kateqoriyaya aid olanların inkişafına güclü önəm verəcəkdir.

İnkişafla bağlı əməkdaşlıq tədbirlərinin, əhatəli və dayanıqlı inkişafa beynəlxalq yardımın təsirini artırmaq, inkişaf prosesinin geniş tərkibdə iştirakçılarından, o cümlədən dövlət və özəl sektorlardan, beynəlxalq təşkilatlardan və inkişafa dəstək göstərən maliyyə institutlarından bilik, informasiya, yeni texnologiyalar və innovasiya transferi, habelə maliyyə kimi müxtəlif resurs axınlarından yararlanmaq üçün Birləşmiş Millətlər Təşkilatı yeni innovativ tərəfdaşlıq yanaşmalarının inkişaf etdirilməsini dəstəkləyəcək. Bunun kökündə dayanıqlı rəqabətqabiliyyətli cəmiyyətlərə keçidi həyata keçirmək və bu cür hərtərəfli və mürəkkəb inkişaf proseslərini maliyyələşdirmək üçün çoxsaylı maraqlı iştirakçıların birgə fəaliyyətinin tələb olunduğuna dair inam durur.

BMT öz diqqətini şaxələndirilmiş, rəqabətqabiliyyətli və biliklərə əsaslanan iqtisadiyyat üçün zəruri ilkin şərt kimi insan kapitalının inkişaf etdirilməsinə yönəldiləcəkdir. BMT öz fəaliyyəti ilə işçi qüvvəsinin daha çox ehtiyac duyan sosial cəhətdən həssas təbəqələrinin, o cümlədən gənclərin, qadınların və əlilliyi olan insanların əmək bazarının tələblərinə uyğun vərdişlərə yiyələnmək və resurslardan faydalanmaq imkanına malik olmalarını təmin edəcəkdir. Bu məqsədlə, BMTİP yeni peşə təhsili və qeyri-neft sektorunda, xüsusən də İKT sahəsində, biznes fəaliyyətinə başlama üzrə proqramların hazırlanmasında və genişləndirilməsində milli təşkilatlara dəstək göstərəcəkdir. BMT öz işini milli təşkilatlarla mövcud əməkdaşlıq üzərində quracaq və daha inklüziv və məhsuldar məşğulluğa doğru keçidə imkan yaratmaq üçün innovativ modellərin, yanaşma və vasitələrin inkişaf etdirilməsində onlara kömək edəcəkdir. Bu tədbirlərin həyata keçirilməsindən əldə olunan təcrübələrin, ölkənin digər hissələrində daha çox insanı əhatə etmək üçün təkrar tətbiq edilməklə institusional bilik, əldə olunan səriştə və modellər kimi mühüm amilləri təmin edəcəyi gözlənilir.

BMT iqtisadi baxımdan nisbətən əlverişsiz vəziyyətdə olan əraziləri hədəf seçəcək və bərabər regional inkişafın qarşısını alan maneələrin aradan qaldırılmasına səy göstərəcəkdir. Bu, İKT infrastrukturunun təkmilləşdirilməsinə və kənd (rayon) ərazilərinə doğru genişləndirilməsinə dəstək göstərməklə və insanların yeni məşğulluq mənbələri kimi bu imkanlardan yararlanmalarına kömək etməklə həyata keçiriləcəkdir.

Bununla əlaqədar olaraq və 1-ci hissədə göstərilən əsas problemləri həll etmək üçün, Birləşmiş Millətlər Təşkilatı sistemi qeyri-neft sənayesində innovasiya, texnologiya və elmlə bağlı sahələrdə ali təhsil tədris proqramının və tədqiqatların genişləndirilməsi kimi sahələrdə öz zəngin təcrübəsini təklif edir. Dövlət qulluqçuları və biznes birlikləri üçün potensialın

inkişaf etdirilməsinin məqsədi həm də rəqabətə, innovativ siyasətə və gücləndirilmiş dövlət – özəl sektor tərəfdaşlıqlarına, habelə innovativ tərəfdaşlıq yanaşmalarının inkişaf etdirilməsinə dəstək göstərməkdir. Bu məqsədlə Birləşmiş Millətlər Təşkilatı xüsusilə də BMT-nin Avropa üzrə İqtisadi Komissiyası, müxtəlif sektorlarda (su və sanitariya, sağlamlıq, yollar, bərpa olunan enerji mənbələri, təhsil, İKT, və s.) Hökumət və istifadəçilər üçün, dövlət və özəl sektor arasında tərəfdaşlıq da daxil olmaqla, beynəlxalq standartlara əsaslanan innovativ siyasətə dair tövsiyələr və müxtəlif mexanizmlər hazırlayır.

Əlavə olaraq, ekoloji təmiz kənd təsərrüfatı və heyvandarlığı inkişaf etdirməklə, eyni zamanda məhsul istehsalını və idarəçiliyi təkmilləşdirmək və şaxələndirmək üçün kənd təsərrüfatı saxlama/qoruma təcrübələrini (əkinçilik sistemləri, lazer vasitəsilə torpaq hamarlanması) sınaqdan keçirməklə, ayrıca kənd yerlərində yaşayış üçün vasitələrə dəstək göstərilə bilər.

Birləşmiş Millətlər Təşkilatı, biznes mühitinin təkmilləşdirilməsində, xüsusən də, iqtisadi fəaliyyətin yüksək səviyyələrdə olması üçün ilkin şərtlər kimi infrastrukturun "bərk" (*qeyd* - fiziki sistemlər, mexanizmlər, qurğular, və s.) və "yumşaq" (*qeyd* - bu sistemləri idarə edən təsisatlar (səhiyyə, təhsil, hüquq mühafizə orqanları, və s.)) amillərinin inkişaf etdirilməsində və iqtisadiyyatın şaxələndirilməsində; özəl sektorun iştirakına, innovasiyalara, peşə təhsilinə və təliminə, biliklərin inkişaf etdirilməsinə və bölüşülməsinə dəstək göstərməkdə; və investisiyaların cəlb olunması, sənayenin modernləşdirilməsi və rəqabətin artırılmasında xüsusi ekspert təcrübəsinə malikdir. Öz növbəsində bunlar məşğulluğun artırılması, stabillik və sosial inklüzivlik üçün vacibdir.

Ümumiyyətlə, Birləşmiş Millətlər Təşkilatı sistemi Ümumdünya Ticarət Təşkilatına (ÜTT) qoşulma prosesi kontekstində ticarət və ticarətlə bağlı beynəlxalq standartlara daha yaxşı uyğunluq və keyfiyyətli infrastrukturu inkişaf etdirmək üçün milli potensialı gücləndirməyə, tənzimləmə və prosedur məsələlərindən çox ixracın artırılması, məhsuldarlıq və rəqabət qabiliyyətli məsələlərində kömək edə bilər. Ticarət sahəsində mövcud olan maneələrin araşdırılması üçün BMT-nin Avropa üzrə İqtisadi Komissiyası tərəfindən hazırlanan sorğuya əsaslanan metodologiya vasitəsilə regional inteqrasiya səyləri həyata keçiriləcəkdir.[11]

Bundan əlavə, əmək miqrasiyası, seçim prosesi və əmək bazarında tələb və təklifə dair informasiyanın toplanılmasında, təhlil edilməsində, işlənilməsində və istifadə olunmasında dövlət qurumlarında səmərəliliyi və onlar arasında əlaqələndirməni artırmaq üçün dəstək təklif olunacaqdır. Öz növbəsində, e-xidmətlərin gücləndirilməsinin və Dövlət Miqrasiya Xidmətində potensialın artırılmasının yekunda miqrantlara, xüsusən də miqrant fəhlələrə, habelə işəgötürənlərə və ümumi əhaliyə daha keyfiyyətli və operativ xidmətlərin

[11]UNECE-nin qiymətləndirmə metodologiyası və araşdırmalar http://www.unece.org/tradewelcome/studies-on-procedural-and-regulatory-barriers-to-trade.html

göstərilməsi ilə nəticələnəcəyi gözlənilir. Köçürmələrin gəlir gətirən fəaliyyətlərə yönəldilməsi işinin artırılmasına və icmaların inkişafı layihələrinə ayrıca diqqət yetiriləcəkdir.

Bütün bunların daha keyfiyyətli bazara uyğun, şəhadətnamə ilə təsdiq edilən təlim, o cümlədən peşə təlimi və məşğulluq xidmətlərinə çıxış imkanı əldə edəcək əmək bazarına yenicə daxil olan fəhlələrə və iş axtaranlara fayda gətirəcəyi gözlənilir. Sosial dialoq Azərbaycanda əmək və sosial təminat siyasətinin işlənib hazırlanmasında və həyata keçirilməsində mühüm rol oynayacaqdır. Hökumət, həmkarlar və işəgötürən təşkilatlar arasında üçtərəfli əməkdaşlıq çərçivəsində ümumi maraq kəsb edən məsələlərin həllinə səy göstəriləcəkdir.

Müəssisələr məhsuldarlığı və rəqabəti artırmaqla onların səylərinə dəstək göstərə bilən səriştəli işçilərlə təminatın artması sayəsində fayda əldə edəcəklər. Siyasət səviyyəsində, Birləşmiş Millətlər Təşkilatı tərəfindən təmin edilən texniki ekspertlər uyğun ixtisas standartlarını və təlimatlarını təmin etmək, keyfiyyəti təmin edən, diplom və ixtisasın tanınmasını artıran tədris proqramlarını inkişaf etdirmək üçün Hökumət heyətinə dəstək göstərə bilərlər.

UNAPF çərçivəsində dəstək *'Azərbaycan-2020: gələcəyə baxış'* İnkişaf Konsepsiyası və 'Səhiyyə 2020' siyasətinin həyata keçirilməsinin bir hissəsi kimi, daha təkmil xidmətlər göstərmək üçün əlverişli mühit yaratmaq məqsədini daşıyan milli siyasət və proqramlar vasitəsilə bir-biri ilə əlaqəli olan səhiyyə və iqtisadi sahələrdə işi gücləndirmək üçün fərdi qaydada və ya tematik əməkdaşlıq yolu ilə fəaliyyət göstərən BMT agentlikləri tərəfindən təmin ediləcəkdir. Hökumət sosial sığorta sistemində əhalinin aktiv iştirakını stimullaşdırmaq üçün öz səylərini davam etdirəcəkdir. Dayanıqlı iqtisadi və sosial inkişafa cəlb olunan BMT agentlikləri, ümumi məqsədə və ayrı-ayrı problemlərə qarşı inteqrasiya edilmiş şəkildə cavab tədbirlərinin görülməsinə nail olmaq üçün səlahiyyətləri çərçivəsində fəaliyyət göstərən dövlət qulluğu qurumlarını bir araya gətirərək davamlı yanaşmanı təşviq edə bilərlər.

Xüsusilə də gənclər və məşğulluqla bağlı, Birləşmiş Millətlər Təşkilatı Sistemi gənclərin məşğulluğu üzrə strategiyaları işləyib hazırlamaq üçün inkişaf etmiş milli potensialın təşviq olunmasında ümumi təcrübə təklif edə bilər. O, gənclər üçün işdə hüquqların təkmilləşdirilməsinə, tətbiqinə və əlverişsiz vəziyyətdə olan gənclərin məşğulluğa keçid almasını asanlaşdırmaq üçün məşğulluq və vərdişlərin inkişaf etdirilməsi proqramlarının həyata keçirilməsinə, o cümlədən, peşə təhsili və təliminə (PTT) dəstək göstərə bilər.

Sağlamlıq imkanları məhdud olan gənclərin daha geniş şəkildə iştirakını başa düşmək, planlaşdırmaq və həyata keçirmək habelə onların daha geniş iqtisadi məhsuldarlığına nail olmaq üçün təşkilatların, hüquqi çərçivələrin və vərdişlərin gücləndirilməsinə xüsusi dəstək göstəriləcəkdir. Eynilə, Birləşmiş Millətlər Təşkilatı sistemi gənclərin sahibkarlığına, o cümlədən, bazarlara, maliyyəyə və digər resurslara çıxışa yol açan əlverişli mühit üçün

təşkilati islahatlara dəstək göstərə bilər. Xüsusən də gənclərin sahibkarlığını təşviqetmə mexanizmlərinin gücləndirilməsi özəl sektorun inkişafında gender məsələlərinə diqqət yetirilən yanaşmanı təmin etmək üçün bir prioritet olacaqdır.

**2-ci strateji prioritet sahə: İnstitusional potensialın gücləndirilməsi, səmərəli ictimai və sosial xidmətlər**

*'Azərbaycan-2020: gələcəyə baxış'* İnkişaf Konsepsiyasının *məqsədləri:* **Qanunvericiliyin təkmilləşdirilməsi və institusional potensialın gücləndirilməsi; insan kapitalının inkişaf etdirilməsi və səmərəli sosial müdafiə sisteminin qurulması; regionların tarazlaşdırılmış inkişafı; vətəndaş cəmiyyətinin səmərəli inkişafı; informasiya cəmiyyətinə keçidin təmin olunması; mədəni irsin qorunması və effektiv idarə olunması**

**2.1-ci Nəticə: 2020-ci ilədək Azərbaycanın şəffaf, dəlillərə əsaslanan, gender məsələlərinə həssaslıqla yanaşılan siyasətin hazırlanması və həyata keçirməsi üçün təşkilati potensialının artırılması**

**2.2 Nəticə: 2020-ci ilədək Azərbaycanın beynəlxalq insan hüquqları mexanizmlərinə, o cümlədən Ümumi Dövri İcmala, digər müqavilə öhdəliklərinə uyğun olaraq irəliləyişə nail olması, beynəlxalq standartlara uyğun olaraq tətbiq, monitorinq və hesabat vermə üçün potensialının gücləndirilməsi**

**2.3 Nəticə: 2020-ci ilədək keyfiyyətli dövlət və sosial xidmətlərin hamı üçün əlçatan olması, sosial baxımdan daha inklüziv və bərabər inkişaf nəticələrinə nail olmağa kömək edilməsi**

Mühüm milli strategiyalarda və siyasətdə Azərbaycanın inkişafla bağlı nailiyyətlərini dayanıqlı etmək üçün həm mərkəzi, həm də yerli səviyyələrdə səmərəli təşkilati dövlət qulluğu potensialının mərkəzi yer aldığı vurğulanır. Son illər belə potensiallarla bağlı irəliləyiş olsa da, daha səmərəli və cavabdehlik prinsiplərinə əsaslanan idarəçiliyin möhkəmləndirilməsində və hüquqlara dair proqram üzrə irəliləyişə nail olunmasında, Hökumət və Birləşmiş Millətlər Təşkilatı sistemi səmərəli və cavabdehliyə əsaslanan dövlət və sosial xidmətlərin vacibliyini nəzərdə saxlayır.

Birləşmiş Millətlər Təşkilatı sistemi mövcud strukturlarda, daha səmərəli inkişaf siyasəti, qərar qəbuletmə və xidmət göstərmək üçün rolları və vəzifələri aydınlaşdıra bilən tərəfdaşlıqlar qurmaq niyyətindədir. Təşkilati potensialı inkişaf etdirməklə, BMT xüsusilə, sosial birliyin yaradılmasına yardım göstərməyə, o cümlədən Hökumət və əhali arasında bunu təmin etmək istiqamətində səylərə dəstək verməyə çalışacaqdır. Hüquqlara əsaslanan yanaşmalara riayət olunan möhkəmləndirilmiş yerli idarəçilik sistemləri həm də qərar qəbuletmə proseslərində yerli əhalinin iştirakını da əhəmiyyətli şəkildə gücləndirə bilər.

Eyni zamanda, vətəndaş cəmiyyəti, o cümlədən ölkə hüdudlarında fəaliyyət göstərən qeyri-hökumət təşkilatları (QHT-lər) milli inkişaf məqsədlərinə nail olmaq üçün dinc sosial dialoq vasitəsilə əhalinin və cəmiyyətin ayrı-ayrı hissələrinin mövqeyinin çatdırmasında əhəmiyyətli bir tərəfdaşdır və xidmətlərin göstərilməsində mühüm rol oynayır. Tədricən fəal və sosial mediada aktivləşən gənclər indi inkişafın gələcək məqsədlərinə və prioritetlərinə dair fəaliyyətdə və müzakirələrdə daha geniş şəkildə iştirak edirlər. Bu meyillərə cavab vermək və əlverişli mühit yaratmaq məqsədi ilə, bir sıra yeni tədbirlərə ehtiyac duyulur.

Xüsusilə də, Birləşmiş Millətlər Təşkilatı, məsələn, aşağıdakılara dəstək ola biləcək əlavə potensialın inkişaf etdirilməsi tədbirlərini təklif edəcəkdir:

(i) Aztəminatlı uşaqlar və onların ailələri üçün vaxtlı-vaxtında, keyfiyyətli sosial dəstək xidmətlərini, o cümlədən valideyn qayğısından məhrum olmuş və ya ailələrindən ayrılmaq riski altında olan uşaqlar; əlavə dəstəyə, psixoloji, reabilitasiya və tibbi xidmətlərə ehtiyac duyan uşaqları və dövlət himayəsində yaşayan və ya tərbiyə (qohumluq qayğısına və ya ailə dəstəyinə) xidmətlərinə ehtiyac duyan uşaqlar üçün onların hamısını bütün növ baxımsızlıq, pis rəftar, zorakılıq və istismardan qoruyan əlçatan (mümkün və çoxtərəfli) xidmətləri təmin edəcək sistemlər və platformalar yaratmaq və onları gücləndirmək;

(ii) Beynəlxalq Diridoğulma Meyarları Anlayışı (DMA) standartı ilə bağlı tədbirləri yerinə yetirməyə; yeni DMA standartını və ölümün qeydə alınmasını, habelə aşağı çəkili körpələr üçün müalicə və qayğını fəaliyyətə daxil etmək üçün tibbi təhsil müəssisələrinin potensiallarını inkişaf etdirməyə yardım göstərmək;

(iii) Dəlillərə əsaslanan strategiyaları və proqramları (məsələn, narkotik aludəçiliyinin müalicəsi və reabilitasiya üçün elm və insan hüquqlarına əsaslanan hərtərəfli sistemi tətbiq etmək) müəyyənləşdirmək və tətbiq etmək üçün əsas maraqlı tərəfləri cəlb etmək;

(iv) Uşaqların və yeniyetmələrin xüsusi ehtiyaclarına və hüquqlarına diqqət yetirmək üçün sosial, habelə təhsil və mədəniyyət üzrə siyasəti, əhalinin artım dinamikası və cinsi/reproduktiv sağlamlığına dair qabaqcıl təhlilləri genişləndirmək;

(v) Səmərəli miqrasiya və sərhəd idarəçiliyi üçün siyasi/hüquqi potensialı və texniki modernləşdirməni gücləndirmək.

Digər sahələrə beynəlxalq hüquqi sənədlərə uyğun olaraq, terrorçuluqla mübarizədə ədalət mühakiməsi və hüquq sisteminin potensialının gücləndirilməsi; effektiv Şərq-Şərq/Cənub-Cənub təlim imkanlarına dəstək və siyasi proseslərdə şəffaflığı artıran tədris və məlumat yayım proqramlarının inkişaf etdirilməsi aid ediləcəkdir.

Ümumi niyyət effektiv və səmərəli dövlət idarəetməsi üçün dövlət sektorunda potensial yaratmaq və potensialın inkişaf etdirilməsinin uzunmüddətli proses olduğunu nəzərə alaraq, UNAPF dövründən sonra tədricən nail olunmalı dayanıqlı inkişaf üçün ixtisaslı milli insan resursları platformasını qurmaq olacaqdır. Potensialın inkişaf etdirilməsində müsbət

dəyişiklikləri müəyyənləşdirmək üçün sistematik, nəticələrə əsaslanan yanaşma əldə olunan irəliləyişlərin daha çox aydın olmasına kömək edəcəkdir. UNAPF potensialın inkişaf etdirilməsi ilə bağlı ehtiyacların təhlilinin daha sistematik şəkildə aparılmasını, potensialın ötürülməsinin inteqrasiya edilmiş şəkildə və BMT agentlikləri, xüsusən də eyni hökumət orqanları ilə işləyən və çıxış strategiyalarının tam şəkildə proqramlara daxil edilməsini həyata keçirən agentliklər arasında əlaqələndirilməni təmin etmək məqsədi ilə bütün BMT proqramları üçün daha vacib olan, uzun müddətə effektiv və səmərəli dövlət idarəetməsi üçün dövlət sektorunda potensialı gücləndirir.

Məlumatla bağlı boşluqları doldurmaq üçün keyfiyyətli təfsilatlandırılmış və yerli məlumatların toplanılmasında, bunların daha çox ümumiləşdirilmiş məlumat bazası vasitəsilə təhlil edilməsində və inkişafla bağlı planları effektiv etmək üçün vacib məqam olaraq dəlillərə əsaslanan siyasi qərarların sonrakı təşviqində Hökumətin potensialının daha da inkişaf etdirilməsinə xüsusi diqqət yetiriləcəkdir. Ölkənin orta gəlirli ölkə statusuna baxmayaraq ölkə boyu fərqlər aşkar edildiyindən, bu xüsusilə vacib olacaqdır. Birləşmiş Millətlər Təşkilatı sistemi ayrıca olaraq məlumatlardakı boşluqların aradan qaldırılmasına dəstəyi vurğulaya bilər, bu da Birləşmiş Millətlər Təşkilatının proqram prinsiplərinin, o cümlədən insan hüquqlarına əsaslanan yanaşma (həssas qruplara dair daha da təkmilləşdirilmiş məlumatlar), gender bərabərliyi prinsipləri (cinslər üzrə təfsilatlar) və ekoloji dayanıqlılıq (iqlim dəyişikliyi, təbii fəlakət riski və dayanıqlılığa dair məlumatlar) prinsiplərinin daha yaxşı şəkildə yerinə yetirilməsinə gətirib çıxaracaqdır. Bu, eyni zamanda, müəyyən növ benefisiarlar arasında təmin edilməyən ehtiyacları daha yaxşı şəkildə müəyyənləşdirmək üçün "məlumatlardan kənar" analitik icmallara diqqət yetirməyə kömək edə bilər.

Xüsusilə qadınların, gənclərin, uşaqların, məcburi köçkünlər, qaçqınlar və əlilliyi olan insanlar kimi həssas qrupların səlahiyyətlərini genişləndirərək, inkişafa, insan hüquqlarına əsaslanan yanaşma üzrə potensial yaratmaq üçün Birləşmiş Millətlər Təşkilatı sisteminin mühüm bir imkanı mövcuddur. Azərbaycanın bir sıra beynəlxalq Konvensiyalar, müqavilə və sazişlərdən irəli gələn öhdəliklərinin yerinə yetirilməsi, onlara dair hesabat vermə və bunun monitorinqinin aparılmasında mahiyyətlə bağlı real dəstəyin təklif olunması xüsusilə aktualdır. Beləliklə, bu, insan hüquqları standartlarının və onları qoruma mexanizmlərinin düzgün başa düşülməsini və tətbiqini təmin etmək üçün biliklərin, potensialın və vərdişlərin inkişaf etdirilməsinə diqqət yetirilməklə, Hökumətin insan hüquqlarını təşviq etmə, qoruma və yerinə yetirmə ilə bağlı üzərinə düşən Konstitusiya və beynəlxalq öhdəlikləri tamamlayacaqdır.

Birləşmiş Millətlər Təşkilatının agentlikləri genderlə bağlı mövcud olan boşluqları aradan qaldırmaq üçün birgə tədbirlərə diqqət yetirməklə və gender sahəsində siyasət və proqramların nazirliklərarası və ya çoxsahəvi əlaqələndirilməsini gücləndirməyə xüsusi diqqət ayırmaqla, UNAPF-nin nəticələrinin gender bərabərliyi ilə bağlı milli məqsədlərə və

öhdəliklərə kömək olmasını təmin etmək niyyətindədirlər. Bu, yalnız milli məqsədlərə deyil, eyni zamanda Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi, Minilliyin Bəyannaməsi, Dördillik Əhatəli Siyasi İcmal (QCPR), 2005-ci il Dünya Sammiti, Pekin Fəaliyyət Platforması, Əhali və İnkişaf üzrə Beynəlxalq Konfransın Fəaliyyət Platformasına, habelə, CEDAW-da və Azərbaycan Respublikasının qoşulduğu insan hüquqlarına dair digər müqavilələr və sənədlərdə nəzərdə tutulan qadın hüquqlarına əsaslanır. Bununla əlaqədar olaraq, Birləşmiş Millətlər Təşkilatı sistemi, gender bərabərliyi və qadınların səlahiyyətlərini genişləndirməklə bağlı öhdəlikləri önə çəkmək və bunun monitorinqini aparmaq üçün inkişaf məsələləri üzrə beynəlxalq partnyorlar ilə daha effektiv və dayanıqlı tərəfdaşlıqlara kömək edəcək, eyni zamanda, bu məqsədlərə nail olunmasında qabaqcıl təcrübələri nəzərə alacaqdır.

Bundan əlavə, Birləşmiş Millətlər Təşkilatının agentlikləri qadınların hüquqlarını müdafiə etmək məqsədini daşıyan hüquqi və dəlillərə əsaslanan siyasət çərçivələrinin təkmilləşdirilməsində beynəlxalq təcrübəni təklif edəcəkdir. Birləşmiş Millətlər Təşkilatı diqqəti qadınlar üçün məşğulluğun təşviq olunması, qadınların məhsuldar aktivlərə çıxış və onlar üzərində nəzarət imkanının yaradılması kimi sahələrə diqqət yetirəcəkdir. Bununla yanaşı, BMT agentlikləri qadın və qızların mədəniyyət və yaradıcı sektorlarda iştirakı üçün onların təhsil və vərdişlərinin təşviq olunması; ana ölümü hallarının azaldılması, qadınların cinsi və reproduktiv sağlamlıq, hüquqlarının təmin edilməsi, dövlət idarəçiliyində və özəl sahədə qərar qəbuletmə prosesində qadınların təsirini gücləndirmək üçün onların səsinin, liderliyinin və iştirakının artırılması məsələlərinə diqqət yetirəcəklər.

Nəhayət, Azərbaycanda əsas hüquqlardan olan sosial müdafiə, təhsil, səhiyyə və qidalanma xidmətlərinin ən yüksək standartlara çatdırılması ümumi və əhatəli dayanıqlı inkişafa maneəsiz keçidi təmin etmək üçün daha da gücləndirilməsi tələb olunur. 1-ci hissədə qeyd olunduğu kimi, Azərbaycanda bir çox insan inkişafı göstəriciləri yaxşılaşsa da, bəzi fərqlər hələ qalmaqdadır. Sosial inklüzivlik və bərabərliyin artırılması üçün, bir-biri ilə əlaqəli olan problemlərə, o cümlədən çıxış imkanı, mövcudluq, keyfiyyət və inzibati məsələlərə diqqətin yetirilməsi lazım olacaqdır. Birləşmiş Millətlər Təşkilatı sisteminin müqayisəli üstünlükləri onun əsas sosial xidmətlər mandatındadır. Bunu isə dayanıqlı inkişafda geniş təcrübə; onun milli məqsədlərinə nail olunmasında Hökumətə dəstək göstərmək öhdəliyi, qlobal təcrübə və beynəlxalq qabaqcıl təcrübələrə güclü çıxış imkanı və müvafiq nazirliklərlə qarşılıqlı etimada əsaslanan münasibətlər tamamlayır.

Sosial-iqtisadi irəliləyişlərlə yanaşı, əldə edilmiş nəticələrin dayanıqlılığı prioritet olaraq qalmaqdadır. Potensialın inkişaf etdirilməsi istiqamətində görülən tədbirlərdə diqqət ölkədə daha uzun müddətə davam edən təsir yaratmaq üçün (imkanların qiymətləndirilməsi sayəsində müəyyən edilən) daha geniş təşkilati və əlverişli mühitlə bağlı ehtiyaclara yönəldiləcəkdir. Bir sıra hüquq və səlahiyyətlərin genişləndirilməsi məsələlərinə diqqət yetiriləcəkdir.

Birləşmiş Millətlər Təşkilatı sisteminin diqqəti bütövlükdə sosial sektorda artıq əldə olunmuş müsbət nəticələrin dayanıqlılığının təmin olunmasında Hökumətə dəstəyin göstərilməsinə, eyni zamanda dəlillərə əsaslanan siyasətin hazırlanmasını təcrübədə tətbiq etməklə, qadınlar, gənclər, uşaqlar və məcburi köçkünlər, qaçqınlar, yaşlılar, əlilliyi olan insanlar və insan alveri qurbanları kimi əhalinin həssas qrupları üçün xidmətlərə çıxış imkanını təmin etməklə hələ də mövcud olan fərqlərin aradan qaldırılmasına yönələcəkdir. Məsələn, gənclərin iştirakını və səlahiyyətlərinin genişləndirilməsini daha çox təşviq etmək, sağlamlıq imkanları məhdud olan uşaqlar üçün təhsilin əsas təhsil sisteminə daxil edilməsini təmin etmək məqsədi ilə qanunvericiliyin, təhsilin və ictimai münasibətlərin nəzərdən keçirilməsinə və düzəlişlərin edilməsinə xüsusi diqqəti təmin etmək və məktəbəqədər təhsilin təmin olunmasının əhatə dairəsinin genişləndirilməsi istiqamətində tədbirlər görmək tələb olunacaqdır.

Eyni zamanda, Uşaq hüquqları haqqında Konvensiyaya uyğun olaraq, ümumi uşaq hüquqlarının müstəqil monitorinqi üçün milli mexanizmlərin gücləndirilməsinə şərait yaradılacaqdır. Öz növbəsində bu, (1) yeni yaradılmış gənclər mərkəzlərində inklüziv, əlçatan və uyğun xidmətləri təmin etməklə uşaqların və yeniyetmələrin ictimai həyatda iştirakının genişləndirilməsinə dəstək göstərməyə; (2) uşaq və ailələrə dəstək mərkəzlərinin sayının artırılması və potensialının gücləndirilməsinə; (3) qanunazidd əməl törətmiş və məsuliyyətə cəlb olunmuş yeniyetmələrin hüquqlarının institusionallaşdırılmasına dəstək göstərməyə; (4) Ədliyyə Nazirliyinin nəzdində olan Ədliyyə Akademiyasında hakimlər, hakimliyə namizədlər və prokurorlar üçün miqrant hüquqlarına dair tədris proqramının tətbiq edilməsinə dəstək göstərməyə; (5) qadınların reproduktiv seçiminə, ailə planlaşdırmasına, erkən nikahların və gender əsaslı cinsi seçimlərinin qarşısının alınmasına diqqət yetirməklə 2014-cü ildən sonra ICPD-in tətbiqini təşviq etməyə; (6) qeyri-səhiyyə sektorlarından çoxtərəfli iştirakla hüquqlara-əsaslanan və gender zəminində yanaşmanı təmin etməklə, Qeyri-yoluxucu xəstəliklər (QYX) üzrə Qlobal Fəaliyyət Planı və Tütünə nəzarət üzrə Çərçivə Konvensiyası əsasında, QYX-lərə qarşı milli tədbirlərə, o cümlədən QYX-lər üzrə Milli Strategiyanın yerinə yetirilməsinə dəstək göstərməyə kömək edə bilər.

BMT yanaşmasında daha çox siyasət dialoquna və təşviqata önəm veriləcəyini nəzərə alaraq, xidmətlərin göstərilməsi üzrə potensialın inkişaf etdirilməsinə yönəldilən diqqət (2-ci prioritet) mərhələli/planlaşdırılmış çıxış strategiyalarına gətirib çıxaracaq, beləliklə bir tərəfdən əhaliyə göstərilən xidmətlərə görə Hökumətin tam cavabdehliyini təmin edəcək, digər tərəfdən isə potensialı inkişaf etdirən tərəf kimi Birləşmiş Millətlər Təşkilatının rolunun kifayət qədər buna yönəlmiş və uyğun olmasını təmin edəcəkdir. Bu kontekstdə siyasətin həyata keçirilməsi ilə bağlı potensialın gücləndirilməsi istiqamətində görülən səylər BMT sistemi üçün mühüm fəaliyyət sahəsi olacaq və bu aspekt Ölkə üzrə Proqram Sənədləri ilə möhkəmləndiriləcəkdir.

## 3-cü strateji prioritet sahə: Ətraf mühitin idarə edilməsinin təkmilləşdirilməsi, risk və təbii fəlakətlərə qarşı dayanıqlılığın artırılması

*'Azərbaycan-2020: gələcəyə baxış' İnkişaf Konsepsiyasının məqsədləri: Ətraf mühitin mühafizəsi və ekoloji məsələlər; qanunvericiliyin təkmilləşdirilməsi və təşkilati potensialın gücləndirilməsi; insan kapitalının inkişaf etdirilməsi*

**3.1-ci Nəticə: 2020-ci ilədək, dayanıqlı inkişaf siyasətinin və qanunvericiliyin mövcud olması, ətraf mühitlə bağlı çoxtərəfli sazişlərə uyğun olaraq onların daha yaxşı yerinə yetirilməsi və əlaqələndirilməsi, sosial və səhiyyə əlaqələrinin tanınması, habelə ətraf mühit və təbii resursların idarə olunması, enerji səmərəliliyi və bərpa olunan enerji, iqlim dəyişikliyi, risk və təbii fəlakətlərə qarşı dayanıqlılıq məsələlərinə diqqət yetirilməsi**

Birinci hissədə qeyd olunan mühüm məsələləri həll etmək üçün Birləşmiş Millətlər Təşkilatı sistemi əhalinin ekoloji və təhlükə/təbii fəlakət risklərinə, habelə iqlim dəyişikliyinə qarşı dayanıqlılığını gücləndirməyi prioritetləşdirəcəkdir. Buraya təbii ehtiyatların, o cümlədən meşələrin, su, torpaq və biomüxtəlifliyin dayanıqlı şəkildə idarə olunması üzrə müvafiq təşkilatların effektivliliyinin artırılmasına diqqət yetirmə aiddir. Bundan əlavə, enerji və iqlim dəyişikliyi dayanıqlı inkişaf üçün görülən səylərin mərkəzində duraraq, bütün aspektlərə (sosial, iqtisadi və ekoloji), o cümlədən yaşayış üçün vasitələrə, suya çıxış imkanına, kənd təsərrüfatında məhsuldarlığa, səhiyyəyə, əhali səviyyələrinə, təhsilə və genderlə bağlı məsələlərə təsir göstərir. Azərbaycanda sürətlə artan enerji tələbatı bərpa olunan enerji mənbələrinin inkişaf etdirilməsini və enerji səmərəliliyinin artırılması üçün səylərin sürətləndirilməsini tələb edir.

Birləşmiş Millətlər Təşkilatı sistemi xüsusi olaraq, ekoloji, sosial və iqtisadi sahələrdə dayanıqlılığı gücləndirəcəyi gözlənilən yoxsulluq ətraf mühit əlaqəsinə daha tamamlanmış yanaşmanı təkmilləşdirmək üçün Hökumətə dəstək göstərəcəkdir.

Beləliklə, məqsədi dayanıqlılıq yaratmaqdan, yerli səviyyədə xidmət göstərməni təkmilləşdirməkdən və eynilə kənd icmalarının ekoloji, sosial və iqtisadi təsirlərə qarşı dayanıqlılığını və bərpa imkanlarının gücləndirmələrini təmin etməkdən ibarətdir. Bununla əlaqədar olaraq, Birləşmiş Millətlər Təşkilatı sistemi, ziyanvericilərlə mübarizə vasitələrindən insanların sağlamlığına və ətraf mühitə qarşı riskin azaldılmasına, o cümlədən ehtiyatların etibarlı və ekoloji baxımdan düzgün yerləşdirilməsinə dəstək göstərmək üçün də çalışacaqdır. Daha gəlirli və ekoloji cəhətdən dayanıqlı məhsul növlərindən istifadə edən fermerlərin xüsusi çəkisinin, habelə səmərəli şəkildə suvarılan və qurudulan fermer torpaqlarının sahəsinin artımına dəstək veriləcəkdir. O, həmçinin, xüsusilə kiçik torpaq sahiblərinə fayda gətirərək təbii resurslardan dayanıqlı istifadəni təmin edəcək otlaq sahələri

üzrə qanunvericiliyin işlənilib hazırlanmasına və meşələrin bərpasına da dəstək verəcəkdir. Milli təhsil sistemi vasitəsilə qeyri-maddi mədəni irsin qorunmasının təşviq edilməsi, habelə regional seminarların təşkil edilməsi və potensialın inkişaf etdirilməsi vasitəsilə transsərhəd mədəni və təbii irsin qorunması da ön plana çəkiləcəkdir.

Öz qlobal təcrübəsinə əsaslanaraq, 2012-ci ildə təqdim olunan BMT-nin Hamı üçün Dayanıqlı Enerji təşəbbüsü üzrə görülən tədbirlər, habelə Birləşmiş Millətlər Təşkilatının dünyanın müxtəlif yerlərində enerjidən səmərəli istifadə və bərpa olunan enerji üzrə genişmiqyaslı proqramlarından irəli gələn modellər üzərində qurulmaqla, Birləşmiş Millətlər Təşkilatı sistemi Azərbaycanın təmiz enerji ilə bağlı cəhdlərinə dəstək göstərə bilər. Birləşmiş Millətlər Təşkilatı sistemi bu sahədə öz qlobal təcrübəsindən yararlanaraq və siyasət, təşkilat və texnologiyalarla bağlı qabaqcıl modellərə şərait yaradaraq, resurslardan daha səmərəli istifadə olunan, daha təmiz və ekoloji baxımdan dayanıqlı inkişafa keçidə dəstək göstərəcəkdir. Xüsusən BMT-nin Avropa üzrə İqtisadi Komissiyası (UNECE) beynəlxalq təcrübəyə əsaslanan dayanıqlı enerji üzrə milli fəaliyyət planının hazırlanmasında dövlətlərə kömək edəcəkdir.

Bir sıra BMT agentlikləri (məsələn, BMTİP, ÜST, UNEP, UNICEF və s.) Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyindən olan hökumət tərəfdaşları ilə birgə rejimlərarası və sahələrarası əməkdaşlığı genişləndirə, habelə ətraf mühit, alternativ və bərpa olunan enerji mənbələrindən istifadə və səhiyyə ilə bağlı siyasət işləyib hazırlayacaqdır. Eyni zamanda, beynəlxalq hüququ tanımaqla, passiv şəkildə tütünün təsirinə məruzqalma, qapalı və açıq məkanlarda havanın çirklənməsi və iqlim dəyişikliyinin təsirlərinin azaldılması sahələrində daha çox işlər görüləcək (məsələn, ÜST-nin Tütünə Nəzarət üzrə Çərçivə Konvensiyası).

Nəhayət, Birləşmiş Millətlər Təşkilatı sistemi (1) beynəlxalq təcrübələrə uyğun olaraq ətraf mühitlə bağlı göstəricilərin alınması və paylaşılması; (2) göstəricilərin təhlilini aparmaqla ətraf mühitlə bağlı həqiqi dəlillərə əsaslanan qiymətləndirmənin keçirilməsində milli statistika qurumlarının və ətraf mühitlə bağlı təşkilatların potensialının artırılması (3) dayanıqlı meşə idarəetməsində hesabatlılıq sistemləri üzrə milli potensialın gücləndirilməsi istiqamətində çalışacaqdır. Habelə, Avropa İttifaqı Su Layihəsi əsasında su resurslarının inteqrasiya edilmiş şəkildə idarə olunması üzrə milli siyasi dialoqlara dəstək göstəriləcəkdir.

# III. Təxmin edilən resurslarla bağlı tələblər

Hər bir UNAPF Nəticəsi üçün təxmin edilən maliyyə vəsaitləri 1-ci Əlavədə UNAPF Nəticələr və Resurslar Çərçivəsində təqdim olunur. Bu vəsaitlərə Birləşmiş Millətlər Təşkilatının hər bir iştirakçı agentliyi tərəfindən əsas resurs ayırmaları, habelə qeyri-müəyyən olan öhdəliklər və təşkilatların UNAPF dövrü ərzində toplayacaqları digər hələ məlum olmayan resurslar aiddir. Hədəflər qismində təqdim olunan bu rəqəmlər UNAPF layihəsi hazırlanan vaxtda mümkün qədər dəqiqdir, bəzi öhdəliklər isə layihələndirmənin tamamlanması zamanı məlum olacaqdır. Resurslarla bağlı hədəflər hər bir agentliyin prosedurlarına və təsdiqetmə mexanizmlərinə uyğun olaraq, yenilənməyə davam edəcək, agentliklərin proqram sənədlərində və iş planlarında təsdiq olunacaqdır. Resurslarla bağlı tələblər, həmçinin, ixtisaslaşmış və qeyri-rezident agentliklərin müxtəlif fəaliyyət dövrlərini əks etdirmək üçün hər il nəzərdən keçiriləcək və yenilənəcəkdir.

Gözlənilən nəticələrə nail olmaq məqsədi ilə, Birləşmiş Millətlər Təşkilatı sistemi əsaslı texniki dəstək göstərəcək, siyasətlə bağlı mühüm məsləhətlər verəcək, habelə Hökumət və digər tərəfdaşların ayırdığı vəsaitlərə əlavə olaraq məhdud həcmdə maliyyə vəsaiti ilə təminatı həyata keçirəcəkdir. BMT-nin Resurslar Çərçivəsi Azərbaycanda BMT-nin rolunun inkişafa yardımdan tərəfdaşlığa keçdiyini qəbul etməklə işlənilib hazırlanmışdır. Birləşmiş Millətlər Təşkilatı UNAPF nəticələrinə nail olmaq üçün təqribən **71,689,500** ABŞ dolları məbləğində vəsaiti təmin edəcəkdir.

2016 – 2020-ci illər ərzində Azərbaycanda UNAPF Nəticələrinə dəstək olaraq toplanacaq vəsaitlərin ümumi məbləğinin UNAPF yazılarkən **39,929,500** ABŞ dolları olacağı təxmin edilir. Ümumi vəsaitlərdən **18,300,000** ABŞ dolları 1-ci strateji prioritet sahəyə (Artan şaxələndirilmə və layiqli əməyi özündə ehtiva edən dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi), **36,773,500** ABŞ dolları 2-ci strateji prioritet sahəyə (İnstitusional potensialın gücləndirilməsi, səmərəli ictimai və sosial xidmətlər) və **16,616,000** ABŞ dolları 3-cü strateji prioritet sahəyə (Ətraf mühitin idarə edilməsinin təkmilləşdirilməsi, risk və təbii fəlakətlərə qarşı dayanıqlılığın artırılması) sərf ediləcəkdir. Bu, həm milli inkişaf prioritetlərini əks etdirir, həm də Birləşmiş Millətlər Təşkilatı sisteminin əməkdaşlığının ümumi inkişafa yardıma uyğunluğunu nəzərdə tutur. Eyni zamanda UNAPF Birləşmiş Millətlər Təşkilatı sisteminin müxtəlif Regional İdarələrinin göstərəcəyi əhəmiyyətli texniki dəstəkdən də faydalanacağı gözlənilir.

Təxmin edilən vəsaitlər

| Strateji prioritet sahələr | Mövcud olan (ABŞ dolları) | Toplanmalı (ABŞ dolları) |
|---|---|---|
| 1-ci sahə: Artan şaxələndirilmə və layiqli əməyi özündə ehtiva edən dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi | BMTİP: 300,000<br>FAO: 13,500,000 | BMTİP: 3,000,000<br>UNIDO: 600,000<br>UNCTAD: 400,000<br>UNECE: 200,000<br>UNESCO: 150,000<br>BƏT: 150,000 |
| 2-ci sahə: İnstitusional potensialın gücləndirilməsi, səmərəli ictimai və sosial xidmətlər | BMTİP: 400,000<br>UNICEF: 11,925,000<br>UNFPA: 1,000,000<br>OHCHR: 100,000 | BMTİP: 12,000,000<br>UNICEF: 8,109,500<br>UNFPA: 1,000,000<br>UNESCO: 260,000<br>ÜST: 700,000<br>BMqT: 1,280,000 |
| 3-cü sahə: Ətraf mühitin idarə edilməsinin təkmilləşdirilməsi, risk və təbii fəlakətlərə qarşı dayanıqlılığın artırılması | BMTİP: 500,000<br>UNICEF: 1,475,000<br>UNIDO: 2,600,000<br>UNECE: 60,000<br>UNEP: 50,000 | BMTİP: 10,000,000<br>UNICEF: 901,000<br>UNEP: 450,000<br>UNECE: 400,000<br>UNESCO: 50,000<br>BMqT: 280,000 |
| **Cəmi:** | **31,760,000** | **39,929,500** |

Bundan əlavə, BMTQAK milli sığınacaq sistemini gücləndirmək üçün Azərbaycan Hökuməti ilə əməkdaşlıq edəcəkdir. O, əlavə müdafiə mexanizmini təsis etmək üçün qaçqınlarla bağlı cari qanunvericiliyə düzəlişlərin edilməsinə səy göstərəcəkdir. BMTQAK məcburi köçkünlərin hüquqlarının müdafiəsini təşviq edəcək və tam təşkildə Hökumət proqramları ilə əhatə olunması məqsədi ilə, həssas əhali təbəqələrinə ünvanlı maddi, səhiyyə, təhsillə bağlı və hüquqi yardımı təmin edəcək, habelə Hökumətin ölkədə vətəndaşlığı olmayan şəxslərin miqyasını müəyyənləşdirilmək kimi üzərinə götürdüyü öhdəliyin yerinə yetirilməsinə dəstək göstərəcək və vətəndaşlığı olmayan şəxslərin təyinetmə prosedurunun müəyyən edilməsinə öz yardımını təklif edəcəkdir.

**Dünya Bankı Qrupu (DBQ)** proqramı, 2015-ci ilin iyul ayında Bankın Direktorlar Şurası tərəfindən müzakirə edilmiş **2016-2020-ci illər üçün Ölkə üzrə Tərəfdaşlıq Çərçivəsinə** (ÖTÇ) uyğun olaraq həyata keçiriləcəkdir. ÖTÇ-nin məqsədi şaxələndirilmiş aktivlər bazasını ehtiva edən dayanıqlı, inklüziv və özəl sektorun aparıcı rol oynadığı iqtisadi artım modelinə

doğru irəliləyişdə ölkəni dəstəkləməkdən ibarətdir. O, ölkənin inkişaf strategiyası olan 'Azərbaycan 2020: gələcəyə baxış' İnkişaf Konsepsiyasında təsbit olunmuş strateji məqsədlərə (şaxələndirilmiş insan kapitalına, fiziki infrastruktura və daha güclü institutların formalaşdırılmasına) yatırımlar etməklə Azərbaycanın neft və qaz gəlirlərindən asılılığını azaltmaq və onun kənar təsirlərə qarşı dayanıqlılığını artırmaq məqsədləri ilə tam uzlaşır. ÖTÇ ifrat yoxsulluğun aradan qaldırılmasında və ümumi rifahın yüksəldilməsində Azərbaycanın əldə etdiyi heyrətamiz irəliləyişlərin dayanıqlı olmasını təmin etməyə kömək edəcəkdir. Xüsusən, bu proqram aşağıdakılara töhfə verəcək: i) dövlət resurslarının, xidmətlərin göstərilməsinin və institutların daha yaxşı idarə olunması, o cümlədən dövlət və özəl sektorlar arasında münasibətlərin daha şəffaf və qanunun aliliyi prinsipi əsasında təşkil olunması vasitəsilə **idarəçiliyin gücləndirilməsi**; ii) ölkənin əsas nəqliyyat şəbəkələrini, yardımçı infrastrukturu və genişzolaqlı şəbəkənin əhatə dairəsini inkişaf etdirməklə, habelə bu infrastrukturun saxlanılması və istismarı praktikasının müasirləşdirilməsi vasitəsilə **kommunikasiya xətlərinin təkmilləşdirilməsi**; iii) su təchizatı və kanalizasiya xidmətlərinə daha yaxşı çıxış imkanı, ətraf mühitin keyfiyyətini artırmaqla, səhiyyə və sosial rifahla bağlı nəticələrə təsiretmə baxımından özünü doğrultmuş digər səhiyyə infrastrukturu və xidmətlər vasitəsilə **ölkənin insan kapitalının inkişaf etdirilməsi**. Beləliklə, ÖTÇ nəticələri *dövlət sektorunda idarəçiliyi və xidmətləri təkmilləşdirmək* və *iqtisadiyyatın rəqabət qabiliyyətini gücləndirmək* məqsədini daşıyan iki mühüm sahə ətrafında qruplaşdırılmışdır. ÖTÇ-nin məqsədlərinə güclü icra potensialının olduğu və Hökumət üçün maraq kəsb edən sahələrdə bir sıra mövcud və yeni müdaxilələr vasitəsilə nail olunacaqdır. Yeni fəaliyyətlər böyük ehtimalla kommunikasiyanın təkmilləşdirilməsi, dövlət tərəfindən göstərilən xidmətlərə çıxış imkanlarının genişləndirilməsi və ətraf mühit sahələrini əhatə edəcəkdir.

DBQ proqramının təsiri Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı və Beynəlxalq Maliyyə Korporasiyası (IFC) tərəfindən birgə yatırım və məsləhət xidmətləri, habelə ölkənin və digər inkişaf tərəfdaşlarının resurslarından yararlanmaqla maksimallaşdırılacaqdır. Bu, ÖTÇ çərçivəsində Dünya Bankı Qrupunun həyata keçirmək niyyətində olduğu məsləhət xidmətləri və təhlillər təklif olunan kreditləşmə proqramlarını və hökumətin meydana çıxa biləcək ehtiyaclarını təmin etməyə dəstək olacaqdır. IFC-nin əsas diqqəti ÖTÇ-nin iqtisadiyyatın rəqabət qabiliyyətinin gücləndirilməsi gündəliyinin dəstəklənməsinə yönələcəkdir.

**IFAD**-ın Azərbaycan Respublikası üzrə Ölkənin Strateji İmkanlar Proqramı (COSOP) 2010-cu ildə təsdiq olunmuş, 2014-cü ildə yenilənmiş və növbəti 6 (altı) il üçün iqtisadi şaxələndirmə, inklüziv artım, ümumi rifah, kənd və rayon yerlərinin inkişaf etdirilməsi baxımından siyasət istiqamətlərini təmin edən iki əsas sənədə - 'Azərbaycan 2020: gələcəyə baxış' İnkişaf Konsepsiyasına və "Azərbaycan Respublikasında aqrar-sənaye kompleksinin inkişafı strategiyasına" tam şəkildə uyğunlaşdırılmaq üçün 2020-ci ilədək uzadılmışdır. COSOP IFAD-ın Azərbaycanda cari və gələcək fəaliyyətini istiqamətləndirəcək üç strateji məqsədə yönəldilir: (1) **Təbii ehtiyatların idarəçiliyini gücləndirməklə dayanıqlı məhsuldarlığın artırılması**. İqtisadi şaxələndirmə kimi Hökumətin qarşıya qoyduğu məqsədə dəstək

göstərmək üçün, IFAD, yoxsul kənd əhalisinin aktivlərə çıxış imkanını və təbii ehtiyatların dayanıqlı şəkildə idarə olunması üzrə xidmətləri, o cümlədən suvarma-su xidmətlərini və otlaqların idarə olunmasını təkmilləşdirmək məqsədi ilə, kənd yerlərində dəyişikliyə doğru çalışan əsas tərəflərlə əməkdaşlıq edəcəkdir; (2) **Kənd və rayon yerlərində əlçatan və inklüziv dəyər şəbəkələri, o cümlədən keyfiyyətli məhsulların istehsal olunması.** Kənd dəyər zəncirləri hələ də çox parçalanmış və zəif vəziyyətdədir, bir sıra güclü tərəflər isə kiçik sahibkarlara dəstək göstərmir. IFAD kiçik sahibkarlara gəlir əldə etmək üçün daha yaxşı təchizolunma və bazarlara inteqrasiya edilmə üçün yollar təklif etməklə kənd dəyər zəncirlərinin daha inklüziv olması istiqamətində fəaliyyət göstərəcəkdir. Bu, təkmilləşdirilmiş texnologiyalara daha yaxşı çıxış imkanını, xidmətlərin effektiv şəkildə genişləndirilməsini və maliyyəyə çıxış imkanını əhatə edəcəkdir; (3) **İnklüziv kənd inkişafı üçün mühüm təşkilatların potensialının və idarəçiliyinin təkmilləşdirilməsi.**

Əvvəlki təcrübələr IFAD da daxil olmaqla, inkişaf tərəfdaşlarının həyata keçirdikləri tədbirlərin nəticələrinin müəyyənləşdirilməsində idarəçiliyin və potensialın üstünlüyünü göstərmişdir. Bu məqsəd digər iki strateji məqsədin həyata keçirilməsinə mühüm dəstək olacaqdır. IFAD, COSOP çərçivəsində və Hökumətlə birgə, iqlim təsirlərinə qarşı dayanıqlılığı gücləndirməklə, heyvandarlıqda məhsuldarlığı artırma və marketinq fəaliyyətinin təkmilləşdirilməsi nəticəsində kiçik fermerlərin gəlirlərini artırmaq məqsədini daşıyan **Heyvandarlıqda Məhsuldarlığı Artırma və Marketinq Fəaliyyətini Təkmilləşdirmə Proqramını** təsis edəcək və maliyyələşdirəcəkdir.

IFAD-ın Proqrama təxminən 30 milyon ABŞ dolları məbləğində yatırım edəcəyi gözlənilir.

## IV. İcra və idarəçilik üsulları

İdarəçilik strukturları baxımından Hökumətin vəzifəli şəxslərindən, o cümlədən *'Azərbaycan-2020: gələcəyə baxış'* İnkişaf Konsepsiyası üzrə Milli Fəaliyyət Qrupunun üzvlərindən, habelə Birləşmiş Millətlər Təşkilatı sisteminin və inkişafla bağlı əsas tərəfdaşların nümayəndələrindən ibarət olan UNAPF-nin yüksək səviyyəli İstiqamətləndirici Qrupu[12] strateji hədəfləri müəyyən edəcək və UNAPF-nin yerinə yetirilməsinə ümumi nəzarəti həyata keçirəcəkdir. İstiqamətləndirici Qrupa iqtisadiyyat naziri və Birləşmiş Millətlər Təşkilatının Rezident Əlaqələndiricisi həmsədrlik edəcəklər və qrup hər il UNAPF Nəticələri və Resursları üzrə irəliləyişi nəzərdən keçirəcək və müştərək proqramların hazırlanmasını təsdiq edəcəkdir.

BMT-nin Ölkə üzrə İdarə Heyəti, Rezident Əlaqələndiricinin rəhbərliyi altında, xüsusən də resurslar birləşdiriləcəyi hallarda, Birləşmiş Millətlər Təşkilatı sisteminin inkişafla bağlı tədbirlərinin effektivliyinə görə cavabdeh olacaqdır. Birləşmiş Millətlər Təşkilatı Fondlarının

[12] UNAPF-nin yüksək səviyyəli İstiqamətləndirici Qrupunun səlahiyyət dairəsi əlavə olunur.

və Proqramlarının və Birləşmiş Millətlər Təşkilatının Azərbaycana akkreditə olunmuş digər qurumlarının nümayəndələrini özündə birləşdirən BMT-nin Ölkə üzrə İdarə Heyəti, Hökumətin və Birləşmiş Millətlər Təşkilatının müvafiq aparıcı agentliklərinin həmsədrlik etdikləri UNAPF-nin üç qeyd edilən Agentliklərarası Nəticə Qrupunun BMT-nin dörd tematik Qrupunun (BMT-nin Gender Tematik Qrupu, BMT-nin İnsan Hüquqları üzrə İşçi Qrupu, BMT-nin QİÇS üzrə Müştərək Qrupu və BMT-nin Məlumatlandırma və Ünsiyyət məsələləri üzrə Qrupu), UNAPF-nin Monitorinq və Qiymətləndirmə Qrupunun və Əməliyyatları İdarəetmə Qrupunun işinə nəzarət edəcəkdir.

BMT agentlikləri birgə tərərfdaşlıqların inkişaf etdirilməsi kontekstində müvafiq sahələrdə davamlı şəkildə agentlik üzrə səciyyəvi tədbirlərə mümkün dəstəyi nəzərdən keçirəcəklər. Bir sıra agentliklər artıq yeni tərəfdaşlığı əks etdirmək üçün özlərinin ölkə üzrə proqramlarına düzəlişlər etmiş, digərləri isə bunu edəcəklər. UNAPF-nin Nəticə Qrupları, BMT-nin Tematik Qrupları, Monitorinq və Qiymətləndirmə Qrupu BMT-nin Ölkə üzrə İdarə Heyətinin prioritet sahələr üzrə effektiv şəkildə əməkdaşlıq etməsini və onların Azərbaycanda BMT sisteminin ümumi fəaliyyəti çərçivəsində birləşməsini təmin edəcəklər.

UNAPF-nin hər bir strateji prioritet sahəsi üzrə BMT-nin həmsədrlik edən agentlikləri 2015-ci il 30 noyabr tarixinədək hər bir nəticə üzrə müvafiq 'dəyişiklik nəzəriyyəsini' işləyib hazırlayaraq BMT sisteminin UNAPF-nin nəticələrinə kömək edəcək icra strategiyalarının və əsas müdaxilələrinin xəritələşdirilməsini aparacaqlar. 'Dəyişiklik nəzəriyyəsi' UNAPF-nin hər bir Nəticə Qrupunun İllik İş Planına daxil ediləcəkdir.

Birləşmiş Millətlər Təşkilatının agentlikləri hər bir tərəfdaşlıq üzrə müvafiq Qrupun işini aparmaq üçün səlahiyyət dairəsini (texniki tapşırıq), illik iş planlarını və nəticə cədvəlləri ilə fəaliyyət planlarını hazırlayaraq Birləşmiş Millətlər Təşkilatından gözlənilən yekun nəticələr üzrə daqiqliyi təmin etmək və birgə cavabdehliyi müəyyənləşdirmək üçün bu məqamları kifayət qədər təfsilatlandıracaqlar. Tərəfdaşlıqlar tematik əməkdaşlıq və agentliklərin xüsusi işi arasında lazımi səviyyədə inteqrasiya və birgə uğurlu səylər Azərbaycanda BMT sisteminin ümumi effektivliliyini və onun təsirini artırmaq üçün vacib məqam olaraq UNAPF-nin icrasının illik birgə icmalı vasitəsilə təmin olunacaqdır.

Nəticələrin və bununla bağlı göstəricilərin strateji səviyyədə olduğu, onlara yalnız bir sıra BMT Agentliklərinin və milli tərəfdaşların səyləri vasitəsilə nail oluna biləcəyi qəbul edildiyi halda, UNAPF-nin Nəticə Qruplarının iş planları bu yüksək səviyyəli öhdəlikləri agentliklərin cavabdehlik daşıyacaqları daha aşağı səviyyəli ölçülə bilən (qısamüddətli) nəticələrə çevrilməsində mühüm rol oynayacaqdır.

BMT agentliklərinin və Hökumətin nümayəndələrindən ibarət olan UNAPF Nəticə Qrupları mütəmadi olaraq toplanacaq və UNAPF-nin yerinə yetirilməsi üçün əsas mexanizmlər qismində çıxış edəcəklər. Vacib məqam kimi, daha təkmil şəkildə əlaqələndirmə,

planlaşdırma və qərar qəbuletmə həvəsləndirilərək, BMT-nin Ölkə üzrə İdarə Heyətinin (UNCT) İş planına və Rezident Əlaqələndiricinin İllik Hesabatına daxil edilməli olan, aydın məqsədlər və vəzifələr göstərilməklə hər bir Nəticə Qrupunun iş planları hazırlanacaqdır.

İqtisadiyyat Nazirliyinin dəstəyi ilə, müvafiq strateji prioritetləri işləyib hazırlamaq üçün aşağıdakı UNAPF Nəticə Qrupları təsis edilmişdir:

- 1-ci Nəticələr Qrupu **Artan şaxələndirilmə və layiqli əməyi özündə ehtiva edən dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi** işinə diqqət yetirəcək və ona Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Dünya Bankı və BƏT həmsədrlik edəcəklər.

- 2-ci Nəticələr Qrupu **İnstitusional potensialın gücləndirilməsi, səmərəli ictimai və sosial xidmətlərə** diqqət yetirəcək və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, BMTİP və UNICEF həmsədrlik edəcəklər.

- 3-cü Nəticələr **Ətraf mühitin idarə edilməsinin təkmilləşdirilməsi, risk və təbii fəlakətlərə qarşı dayanıqlılığın artırılmasına** diqqət yetirəcək və ona Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, BMTİP və UNEP həmsədrlik edəcəklər.

UNAPF Nəticə Qrupları BMT sistemi nəzdindəki həmkarların iştirak etdiyi ümumi proses vasitəsilə vaxtlı-vaxtında tamamlamanı və UNAPF nəticələrinə keyfiyyətli şəkildə nail olmanı təmin edəcəklər. Qruplar mütəmadi olaraq UNCT-yə hesabat verəcək və strateji qərarlara istinad edəcəklər.

Bundan əlavə, Birləşmiş Millətlər Təşkilatının bəzi ümumi kəsişən mövzular boyu əlaqəlilik prinsipini bir daha bəyan etmək üçün UNCT-nin gender, insan hüquqları və QİÇS üzrə tematik qrupları resurslardan istifadə və müxtəlif agentliklərin səylərini əlaqələndirmək üçün nümunə rolunda çıxış edəcəklər.

Gənclərin dəyişikliyin hərəkətverici qüvvəsi olduğunu və gənclərə sosial investisiyalara duyulan ehtiyac nəzərə alınaraq, UNCT gənclərin səlahiyyətlərinin genişləndirilməsinə və iştirakına dəstək göstərəcək, ən əlverişsiz şəraitdə olanlar və təcrid edilmişlər də daxil olmaqla, onlarla dialoqu gücləndirəcəkdir. Birləşmiş Millətlər Təşkilatının 2014-cü il 1 iyun tarixində təsis edilmiş Gənclərin Məşvərət Şurası UNAPF strateji prioritetlərinin müəyyənləşdirilməsinə və təsdiqlənməsinə kömək etmiş 16-27 yaşlarında 10 gəncdən ibarətdir. Şura (1) yeniyetmə və gənclərlə bağlı yaranan problemləri həll etmək üçün strateji imkanların və zəruri tədbirlərin müəyyənləşdirilməsində və (2) Azərbaycanda cari BMT proqramlarının planlaşdırılmasında, yerinə yetirilməsində və onların monitorinqinin

aparılmasında gənclərin iştirak səviyyəsinin və keyfiyyətinin artırılması üzrə UNCT-yə məlumat verən mənbələrdən biri olacaqdır. Gənclərlə bağlı proqramın və gənclərə diqqət yetirilən yanaşmanın BMT–Azərbaycan Tərəfdaşlıq Çərçivəsinə daxil edilməsini təşviq etmək məqsədi ilə tərəfdaşlardan biri kimi çıxış etmək üçün Şuranın mandatı uzadılacaqdır.

Strateji prioritet sahələrdən başqa UNAPF ilə bağlı mühüm məsələlər üzrə müstəqil müzakirə forumları qismində çıxış etmək üçün mümkün olan gücləndirilmiş əməkdaşlıq və ya müştərək proqramların digər ümumi kəsişən sahələrində də innovativ tematik işçi qruplar təsis oluna bilər. Regional (Cənub-Cənub formatında)əməkdaşlıq dəstəklənəcək və həvəsləndiriləcəkdir.

BMT-nin Rezident Əlaqələndiricisinin Ofisi işçi səviyyədə UNAPF əlaqələndirmə mexanizmi qismində çıxış edəcək və nəticələrə nail olunmasına əhatəli dəstəyini təklif edəcəkdir.

UNAPF dövrü ərzində, Azərbaycanda Birləşmiş Millətlər Təşkilatı sistemi ***Vahid Lider*** (Səlahiyyətləndirilmiş Rezident Əlaqələndirici və BMT-nin Ölkə üzrə Səlahiyyətləndirilmiş İdarə Heyətinin), ***Vahid Məlumatlandırma və Ünsiyyət*** habelə birgə satınalma, İT xidmətləri, insan resursları və ümumi ofisləri əhatə edəcək ***Vahid Əməliyyat*** iş modelindən istifadə edərək ***Vahid BMT fəaliyyəti*** konsepsiyasının əsas prinsiplərini tətbiq edəcəkdir. Vahid BMT fəaliyyəti modeli vasitəsilə ardıcıllığı və əlaqələndirməni gücləndirmək üçün öhdəliklər üçüncü Əlavədə göstərilir.

## V. Monitorinq və qiymətləndirmə mexanizmləri

Birləşmiş Millətlər Təşkilatı sistemi və Azərbaycan Hökuməti UNAPF üzrə irəliləyişin monitorinqini aparmaq üçün dəlillərə əsaslanan yanaşmanı ciddi şəkildə tətbiq etmək niyyətindədir və o, üç strateji prioritet sahə əsasında hər bir UNAPF Nəticəsi üçün işlənilib hazırlanmış, ilkin vəziyyət, hədəf və yoxlama vasitələri ilə müşayiət olunan mühüm göstəricilərdən istifadə edəcəkdir. Mümkün olan həcmdə fəaliyyətin mövcud milli monitorinq vasitələri və milli mənbələrdən əldə olunan dəlillərə əsaslanan məlumatlardan istifadə edilərək, UNAPF-nin monitorinqi aparılacaqdır. Bundan əlavə, monitorinq prosesi 2.1-ci Nəticəyə uyğun olaraq milli məlumat və monitorinq potensialının gücləndirilməsi ilə əlaqələndiriləcək və ona kömək edəcəkdir.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Dünya Bankı və UNICEF-in həmsədrlik etdikləri UNAPF-nin Monitorinq və Qiymətləndirmə Qrupu inkişaf sahəsində nəticələrə nail olmaq üçün idarəçilik yanaşmasına riayət edərək hər bir UNAPF Nəticəsinin yerinə yetirilməsi və ona doğru irəliləyişin monitorinqinin aparılmasında Nəticə Qruplarına dəstək göstərmək məqsədi ilə möhkəm və effektiv monitorinq və qiymətləndirmə sistemini dayanıqlı etmək üçün BMT-nin idarələrarası və hökumətdaxili texniki yardımını

göstərəcəkdir. Müvafiq ilkin vəziyyət, hədəf və yoxlama vasitələri ilə bir sıra fəaliyyət göstəricilərini özündə əks etdirən Nəticələr və Resurslar Çərçivəsi nəticələrə doğru irəliləyişin dəlillərə əsaslanan qiymətləndirilməsi və UNAPF-nin yekun qiymətləndirməsi üçün zəmin yaradır.

Monitorinq və qiymətləndirməni təmin etmək üçün digər təşəbbüslər də daxil olmaqla, əsas monitorinq və qiymətləndirmə tədbirləri üzrə ilkin cədvəli təmin etmək üçün UNAPF-nin daha diqqətlə işlənən Monitorinq və Qiymətləndirmə Təqvimi hazırlanacaqdır. Etibarlı göstəricilərdən dayanıqlı inkişaf üzrə kollektiv səylərin uyğunluğunu və əlavə dəyərini qiymətləndirmək üçün istifadə ediləcəkdir. UNAPF yerinə yetirilən müddətdə Monitorinq və Qiymətləndirmə Qrupu yüksək səviyyəli UNAPF İşçi Qrupunun rəhbərliyi altında monitorinq və qiymətləndirmədə idarələrarası və Hökumətdaxili əlaqələndirməni və əməkdaşlığı artıracaq, məlumat toplama tədbirlərində birgə uğurlu səyləri müəyyənləşdirəcək və zəruri olduqda agentliklər tərəfindən layihə və proqram qiymətləndirmələrini uyğunlaşdıracaqdır. Monitorinq və Qiymətləndirmə Qrupu həmçinin, UNAPF-nin İllik İcmallarının, UNAPF üzrə icra hesabatının və yekun UNAPF Qiymətləndirməsinin aparılmasında həyata keçirilən proseslər, istifadə olunan vasitə və müddətlər üçün dəlillərə əsaslanan yanaşmasının tətbiqini istiqamətləndirəcəkdir.

Həm Hökumətə, həm də Birləşmiş Millətlər Təşkilatı sisteminə yeni imkanlardan yararlanmaq və ya kənar mühitdə dəyişikliklərə cavab olaraq gözləntilərə düzəliş etmək imkanı vermək üçün yüksək səviyyəli UNAPF İstiqamətləndirici Qrupu razılaşdırılmış şərtlər altında hər il UNAPF-nin Müştərək İllik İcmalını təşkil edəcək və Nəticə Qrupları hər bir agentlik üçün səciyyəvi İllik İş Planlarının yerinə yetirilməsi vəziyyətinə, eyni zamanda ayrı-ayrı agentliklər və onların müvafiq nazirlikdən olan tərəfdaşları ilə ikitərəfli müzakirələrə əsaslanmaqla öz töhfələrini verəcəklər. Tematik monitorinq mexanizmləri üçün BMT-nin Tematik Qruplarının potensialından istifadə ediləcəkdir. Bu prosedurlar dəlillərə əsaslanan hesabatvermə ilə bağlı təşkilati potensialı inkişaf etdirəcək (təkmilləşdirəcək), habelə yeni illik iş planlarının hazırlanmasına yardım etmək üçün UNAPF-nin icrası zamanı əldə olunan qabaqcıl təcrübələrin/biliklərin təsdiqlənməsinə kömək edəcəkdir. İllik İcmallar Birləşmiş Millətlər Təşkilatının ayrı-ayrı agentlikləri, Rezident Əlaqələndirici və donorlar tərəfindən İllik Hesabatlar üçün mühüm məlumatları təmin edəcək, resurs toplama və yardımın effektivliyi kimi məsələləri əks etdirəcəkdir. Bundan əlavə, *'Azərbaycan-2020: gələcəyə baxış'* İnkişaf Konsepsiyası və digər milli çərçivələrə davamlı uyğunluğu və uzlaşmanı təmin etmək üçün UNAPF nəticə və hədəflərinə mütəmadi olaraq düzəlişlər ediləcəkdir (məsələn, beşillik dövrün birinci yarısında).

Mövcud dəlillərə əsaslanaraq, Birləşmiş Millətlər Təşkilatı sisteminin bu Nəticələrin əldə olunması istiqamətində işə necə dəstək verdiyini göstərən müvafiq dövr ərzində ən azı bir dəfə UNAPF Nəticələrinə doğru irəliləyişə dair UNAPF Hesabatı hazırlanacaqdır. Dəyərli olduğu halda, Nailiyyətlər barədə birdən çox Hesabat hazırlanacaqdır. Hesabatın

hazırlanması müddəti Birləşmiş Millətlər Təşkilatı və Hökumət tərəfindən birgə müəyyən ediləcəkdir.

UNAPF dövrünün sonuncu ilindən əvvəlki ildə UNAPF-nin təfsilatlı yekun qiymətləndirməsi aparılacaqdır. Bu qiymətləndirmədə, xüsusilə, milli prioritetlərə və məqsədlərə göstərilən dəstək, UNAPF Nəticələrinin uyğunluğu, nəticələrə nail olunmada effektivlik və səmərəlilik, nəticələrin dayanıqlılığı qiymətləndiriləcəkdir. UNAPF-nin məğzi olaraq, milli təşkilati və insan potensiallarının real gücləndirilməsində Birləşmiş Millətlər Təşkilatı sisteminin dəstək vermə qabiliyyətinə ayrıca diqqət yetiriləcəkdir. Lazım olduqda, qiymətləndirmə növbəti UNAPF və ondan irəli gələrək ayrı-ayrı agentliklərin Ölkə üzrə Proqramlarının və layihələrinin hazırlanması üçün məlumat mənbəyi olacaqdır.

# 1-ci Əlavə: UNAPF Nəticələr və Resurslar Çərçivəsi

| 2016-2020-ci illər üçün UNAPF-nin Nəticələr Cədvəli | | | | | | |
|---|---|---|---|---|---|---|
| Nəticə | Göstəricilər, ilkin vəziyyət, hədəflər | Yoxlama vasitələri | Risklər və ehtimallar | Tərəfdaşlar | Resurs toplama hədəfləri (ABŞ dolları)[1] | |
| | | | | | Mövcud olan | Toplanmalı |
| 1-ci Strateji prioritet sahəsi: Artan şaxələndirilmə və layiqli əməyi özündə ehtiva edən dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi<br>Tərəfdaşlar: İqtisadiyyat Nazirliyi, Dünya Bankı və BƏT | | | | | | |
| **1.1-ci Nəticə: 2020-ci ilədək Azərbaycan iqtisadiyyatının diversifikasiyası, dayanıqlı artımın və xüsusilə də, gənclər, qadınlar, əlilliyi olan insanlar və digər həssas qruplar üçün məşğulluq imkanlarının genişləndirilməsinə şəraitin yaradılması**<br><br>**BMTİP, UNFPA, UNICEF, BƏT,** | **1-ci Göstərici**<br>Qeyri-neft sektorunda ÜDM-nin orta illik artım səviyyəsi<br><br>**İlkin vəziyyət:** 7 (%)<br>**Hədəf:**7%[2] | İqtisadiyyat Nazirliyi | **Risklər:**<br>-Neftin qiymətinin aşağı olmasından yaranan fiskal problemlər<br>-Fiskal konsolidasiya səbəbindən qeyri-neft sektorunda zəif artım<br><br>**Ehtimallar:**<br>-Nəzərdə tutulan nəticəyə aparacaq sistem səviyyəsində dəyişikliklərə başlamaq üçün siyasi iradə mövcuddur<br>- Hökumətdəki və vətəndaş cəmiyyətindəki tərəfdaşlar nəticələrə | İqtisadiyyat Nazirliyi<br>Əmək və Sosial Müdafiə Nazirliyi<br>Gənclər və İdman Nazirliyi<br>Kənd Təsərrüfatı Nazirliyi<br>Rabitə və Yüksək Texnologiyalar Nazirliyi<br>Energetika Nazirliyi<br>Mədəniyyət və Turizm Nazirliyi<br>Nəqliyyat Nazirliyi<br>Maliyyə Nazirliyi<br>Xarici İşlər Nazirliyi<br>Vergilər Nazirliyi<br><br>Ailə, Qadın və Uşaq Problemləri üzrə | **BMTİP: 300,000**<br>**FAO: 13,500,000** | **BMTİP: 3,000,000**<br>**UNIDO: 600,000**<br>**UNCTAD: 400,000**<br>**UNECE: 200,000**<br>**UNESCO: 150,000**<br>**BƏT: 150,000** |
| | **2-ci Göstərici**<br>Qlobal Rəqabət İndeksi<br><br>**İlkin vəziyyət:**<br>4.53 (2014-cü il)<br>**Hədəf:**<br>4.7 (2020-ci il) | Dünya İqtisadi Forumu | | | | |
| | **3-cü Göstərici**<br>Cinsə və yaşa görə təfsilatlı şəkildə işsizlik | Əmək və Əhalinin Sosial Müdafiəsi | | | | |

[1] Büdcələr indikativdir və BMT agentliklərinin idarəçilik qurumları və daxili idarəçilik qərarları ilə onlarda dəyişikliklər edilə bilər. Əsas və digər resurslar fövqəladə (hallarda) müraciətlərə cavab olaraq alınan vəsaitləri əhatə etmir

[2] '*Azərbaycan-2020: Gələcəyə baxış*' İnkişaf Konsepsiyası, səh.11

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **OHCHR, FAO, IFAD, UNIDO, UNCTAD, UNECE, UNEP, UNESCO, DB** | səviyyəsi<br><br>__İlkin vəziyyət (2014):__<br>Əhali: 4.9%<br>Kişilər: 4.0%<br>Qadınlar: 5.8%<br>Gənclər (15-29): 9.7%<br>__Hədəf:__<br>Əhali: 4.9%<br>Kişilər: 4.0%<br>Qadınlar: 5.7%<br>Gənclər (15-29): 9.5% | Nazirliyi | nail olmaq, irəliləyişin monitorinqini aparmaq və tələb olunduqda düzəlişlər etmək üçün BMT sistemi ilə əməkdaşlıq etmək istəyindədirlər<br>-BMT-nin texniki yardımı yekunlaşdıqdan sonra müvafiq səviyyələrdə siyasətin davam etdirilməsi məqsədi ilə effektiv çıxış strategiyaları işlənilib hazırlanacaqdır | Dövlət Komitəsi<br>Dövlət Statistika Komitəsi<br>ANAMA<br>Vətəndaş cəmiyyəti<br>BMT-nin Gənclər üzrə Məşvərət Şurası | | |
| **2-ci strateji prioritet sahə: İnstitusional potensialın gücləndirilməsi, səmərəli ictimai və sosial xidmətlər**<br>**__Həm-sədrlər:__ Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, BMTİP və UNICEF** | | | | | | |
| **2.1-ci Nəticə2020-ci ilədək Azərbaycanın şəffaf, dəlillərə əsaslanan, gender məsələlərinə həssaslıqla yanaşılan siyasətin hazırlanması və həyata keçirməsi üçün təşkilati potensialının artırılması BMTİP,UNICEF, UNFPA, BMTQAK, OHCHR, ÜST, BƏT, UNODC,** | __1-ci Göstərici__<br>Dəlillərə əsaslanan siyasətin işlənilib hazırlanmasını dəstəkləmək məqsədi ilə cinslər üzrə təsnifləşdirilmiş yeni göstəricilərin milli statistik məlumat bankına daxil edilməsi<br><br>__İlkin vəziyyət:__<br>257 (2013-cü il)<br>__Hədəf:__ 280 | Dövlət Statistika Komitəsi | **Risklər:**<br>-Göstəricilər və hədəflər çox iddialı ola bilər və əlçatan olmaya bilər<br><br>**Ehtimallar:**<br>- Nəzərdə tutulan nəticəyə aparacaq sistem səviyyəsində dəyişikliklərə başlamaq üçün siyasi iradə mövcuddur<br>- Hökumətdəki və vətəndaş cəmiyyətindəki tərəfdaşlar nəticələrə | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi<br>İqtisadiyyat Nazirliyi<br>Təhsil Nazirliyi<br>Səhiyyə Nazirliyi<br>Gənclər və İdman Nazirliyi<br>Ədliyyə Nazirliyi<br>Daxili İşlər Nazirliyi<br>Xarici İşlər Nazirliyi<br>Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi<br>Qaçqınların və Məcburi Köçkünlərin işləri üzrə Dövlət | **BMTİP: 400,000<br>UNICEF: 1,987,500<br>UNFPA: 400,000** | **BMTİP: 12,000,000<br>UNICEF: 1,351,500<br>UNFPA: 400,000<br>UNESCO: 80,000** |
| | __2-ci Göstərici__<br>İnsan İnkişafı İndeksi | BMTİP | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **UNECE, DB, BMqT** | **İlkin vəziyyət:** 0.747 (2013-cü il)[4] **Hədəf:** 0.750 | | nail olmaq, irəliləyişin monitorinqini aparmaq və tələb olunduqda düzəlişlər etmək üçün BMT sistemi ilə əməkdaşlıq etmək niyyətindədirlər -BMT-nin texniki yardımı yekunlaşdıqdan sonra, Hökumətin əldə olunan nəticələrin dayanıqlılığını təmin etmək üçün siyasət səviyyəsində tədbirləri davam etdirmək və vəsait ayırmaq istəyində olması[3] | Komitəsi Dövlət Miqrasiya Xidməti Dövlət Statistika Komitəsi Elmi ictimaiyyət və tədqiqat institutları Vətəndaş cəmiyyəti BMT-nin Gənclər üzrə Məşvərət Şurası İşəgötürənlərin Milli Konfederasiyası Azərbaycanın Həmkarlar İttifaqları Konfederasiyası | | |
| | **3-cü Göstərici** Gender Bərabərsizliyi İndeksi **İlkin vəziyyət:** 0.340 (2013-cü il)[5] **Hədəf:**0.325 (2020-ci il) | BMTİP | | | | |
| | **4-cü Göstərici** Hökumətin effektivliyinin qiymətləndirilməsi **İlkin vəziyyət:** -0.78 (2012-ci il) **Hədəf:** - 0.5 (2020-ci il) | Dünya Bankı | | | | |
| | **5-ci Göstərici** Şəbəkə Hazırlığı İndeksi **İlkin vəziyyət:** 4.31 (2014-cü il)[6] | BMTİP | | | | |

[4]İnsan İnkişafı İndeksi (2013). http://hdr.undp.org/en/content/table-2-human-development-index-trends-1980-2013

[3]Risklər və ehtimallar 2-ci prioritet sahəsində bütün nəticələrə istinad edir

[5]Gender Bərabərsizliyi İndeksi, (2013).http://hdr.undp.org/en/content/table-4-gender-inequality-index

[6]Bu hədəf Azərbaycanın göstərdiyi orta təkmilləşdirmə səviyyəsinə əsaslanır. Müqayisə üçün, 5 (beş) il əvvəl, Azərbaycanın indeks qiyməti 3.75-ə bərabər olmuşdur. 5 ildən sonra o, 0.5 xal irəliyə getmişdir. Beləliklə də növbəti 5 ildə onun ən azı 0.4 xal artacağını gözləmək məntiqlidir. Bu indeks hər il Dünya İqtisadi Forumunun texnologiyalara dair hesabatında verilir.

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | Hədəf: 4.7 | | | | | |
| 2.2-ci Nəticə: 2020-ci ilədək, Azərbaycanın beynəlxalq insan hüquqları mexanizmlərinə, o cümlədən Ümumi Dövri İcmala, digər müqavilə öhdəliklərinə uyğun olaraq irəliləyişə nail olması, beynəlxalq standartlara uyğun olaraq tətbiq, monitorinq və hesabat vermə üçün potensialının gücləndirilməsi | **1-ci Göstərici**<br>Hökumət, vətəndaş cəmiyyəti təşkilatları və BMT agentlikləri tərəfindən insan hüquqları üzrə saziş qurumlarına təqdim olunan məlumatların sayı<br><br>**İlkin vəziyyət:**<br>0 (2016-cı il)<br>**Hədəf:**<br>Müəyyənləşdirilməlidir<br>CEDAW 2017<br>UPR 2018<br>CRC 2018<br>CMW 2018<br>CESCR 2018 | UNCT | | | UNICEF: 3,312,500<br>UNFPA: 350,000<br>OHCHR: 100,000 | UNICEF: 2,252,000<br>UNFPA: 350,000<br>BMqT: 780,000<br>UNESCO: 80,000 |
| 2.3-cü Nəticə: 2020-ci ilədək keyfiyyətli dövlət və sosial xidmətlərin hamı üçün əlçatan olması, sosial baxımdan daha inklüziv və bərabər inkişaf nəticələrinə nail olmağa kömək | **1-ci Göstərici**<br>İcbari Tibbi Sığortanın tətbiq edilməsi<br><br>**İlkin vəziyyət:** Xeyr<br>**Hədəf:** Bəli | Səhiyyə Nazirliyi | | | UNICEF: 6,625,000<br>UNFPA: 250,000 | UNICEF: 4,505,000<br>UNFPA: 250,000<br>ÜST: 700,000<br>UNESCO: 100,000<br>BMqT: 500,000 |
| | **2-ci Göstərici**<br>QYX-dən vaxtsız ölüm halları<br><br>**İlkin vəziyyət:** 21,583<br>**Hədəf:** 30–70 yaş | ÜST | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **edilməsi** | qrupu üçün 20% azalma | | | | | |
| | <u>**3-cü Göstərici**</u><br>Əhali arasında yeni doğulanların cins nisbəti<br><br><u>**İlkin vəziyyət:**</u><br>115.6 (2013-cü il)[7]<br><u>**Hədəf:**</u><br>110 (2020-ci il)[8] | Dövlət Statistika Komitəsi | | | | |
| | <u>**4-cü Göstərici**</u><br>Kontraseptiv vasitələrdən istifadə səviyyəsi<br><br><u>**İlkin vəziyyət:**</u><br>Hər hansı üsul: 54.9%<br>Müasir üsul: 13.9%<br>(DSS 2011)<br><u>**Hədəf:**</u><br>Hər hansı üsul: 65%<br>Müasir üsul: 25%<br>(DSS 2011) | UNFPA | | | | |
| | <u>**5-ci Göstərici**</u><br>Gender əsaslı zorakılıq (Məişət zorakılığı) hallarının yayılma səviyyəsi | UNFPA | | | | |

[7]Dövlət Statistika Komitəsi, 2014, Təbii artım, doğuşlar və ölüm səviyyəsi. www.stat.gov.az/source/demography/au/en/ch001_3.xls

[8] Kristof Z.Quilmoto, (2011). Doğulanlar arasında cins nisbətinin pozulması, fəsadlar və siyasət tədbirləri https://www.unfpa.org/webdav/site/global/shared/documents/Guilmoto_Revised_presentation_Hanoi_Oct2011.pdf

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | **İlkin vəziyyət:**<br>15% (2011)<br>(Qadınlara qarşı zorakılığa dair milli hesabat. 2011)<br>**Hədəf:** 10% | | | | | |
| | **6-cı Göstərici**<br>Məktəbəqədər təhsil proqramlarından yararlanan uşaqların faiz nisbəti<br><br>**İlkin vəziyyət:**<br>13.3% (2014-cü il)<br>Qızlar: 46.80%<br>Oğlanlar: 53.2%<br>Şəhər: 19.2%<br>Kənd: 7.5%[9]<br><br>**Hədəf:** 30%<br>Qızlar: 50%<br>Oğlanlar: 50%<br>Şəhər: 35%<br>Kənd: 15% | Təhsil Nazirliyi<br><br>Dövlət Statistika Komitəsi | | | | |
| | **7-ci Göstərici**<br>İnklüziv təhsilə sağlamlıq imkanları məhdud olan uşaqların cəlb olunması<br><br>**İlkin vəziyyət:** | Təhsil Nazirliyi | | | | |

[9]Dövlət Statistika Komitəsi (2014), Azərbaycanda təhsil, elm və mədəniyyət. səh. 46 http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/education_2013.zip

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2% (2013-cü il)<br>Qızlar: 50%<br>Oğlanlar: 50%<br><br>**Hədəf:** 30%<br>Qızlar: 50%<br>Oğlanlar: 50% | | | | | |
| | **8-ci Göstərici**<br>Həssas təbəqələrin (yoxsullar, çətin şəraitdə yaşayan uşaqlı ailələr, sağlamlıq imkanları məhdud olan uşaqlar və ya valideyn himayəsindən məhrum olmuş uşaqlar; yaşlılar; qaçqınlar və MK-lər, insan alveri qurbanları) sosial müdafiə xidmətləri ilə əhatə edilməsi<br><br>**İlkin vəziyyət:**<br>Məişət zorakılığının qurbanları üçün dəstək mərkəzləri - 2<br>Sosial xidmətlərin sağlamlıq imkanları məhdud olan uşaqları əhatə etməsi - 1300<br>ÜSY alan ailələrin faiz nisbəti – 6% (1 sentyabr 2014-cü il)<br>Dövlət himayəsində olan uşaqlar üçün ailə | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | zəminində qayğı xidmətləri - 1<br>Yaşlı insanlar üçün sosial dəstək xidmətlərinin sayı - 2<br><br>**Hədəf:**<br>Məişət zorakılığının qurbanları üçün dəstək mərkəzləri - 5<br>Sosial xidmətlərin sağlamlıq imkanları məhdud olan uşaqları əhatə etməsi - 10,000<br>ÜSY alan ailələrin sayında 20% azalma (hədəf 4.8%)<br>Dövlət himayəsində olan uşaqlar üçün ailə zəminində qayğı xidmətləri - 5<br>Yaşlı insanlar üçün sosial dəstək xidmətlərinin sayı – 4 | | | | | |
| | **9-cu Göstərici**<br>15 yaşdan yuxarı şəxslər arasında tütündən istifadənin hazırkı səviyyəsində azalma<br><br>**İlkin vəziyyət:**1,725,141<br><br>**Hədəf:** 15% azalma | Səhiyyə Nazirliyi | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **3-cü Nəticələr** Ətraf mühitin idarə edilməsinin təkmilləşdirilməsi, risk və təbii fəlakətlərə qarşı dayanıqlılığın artırılması<br>**Həmsədrlər:** Ekologiya və Təbii Sərvətlər Nazirliyi, **BMTİP və UNEP** | | | | | | |
| **3.1-c Nəticə: 2020-ci ilədək dayanıqlı inkişaf siyasətinin və qanunvericiliyin mövcud olması, ətraf mühitlə bağlı çoxtərəfli sazişlərə uyğun olaraq onların daha yaxşı yerinə yetirilməsi və əlaqələndirilməsi, sosial və səhiyyə əlaqələrinin tanınması, ətraf mühit və təbii resursların idarə olunması, enerji səmərəliliyi və bərpa olunan enerji, iqlim dəyişikliyi, risk və təbii fəlakətlərə qarşı dayanıqlılıq məsələlərinə diqqət yetirilməsi**<br><br>**BMTİP, UNEP, FAO, UNICEF, UNFPA, BMTQAK OHCHR, ÜST UNIDO, UNECE, DB, IFAD, BMqT** | <u>1-ci Göstərici</u><br>Yol-nəqliyyat hadisələri nəticəsində ölüm hallarını azaltmaq<br><br><u>İlkin vəziyyət:</u> Hər 100,000-ə 13.1<br><u>Hədəf:</u><br>2020-ci ilədək 10% azalma | ÜST | **Risk:**<br>-İqtisadi tənəzzül, neft və qaz gəlirlərinin azalması<br><br>**Ehtimallar:**<br>-Enerji səmərəliliyi və istixana qazlarının azalmasını davamlı şəkildə vurğulama.<br>-Davamlı dövlət dəstəyi və büdcə ayırmaları<br>- Ətraf mühitə dair çoxtərəfli sazişlərin dəstəklənməsi və prioritetləşdirilməsinə dair Hökumətin niyyəti və öhdəliyi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi, Nəqliyyat Nazirliyi, Daxili İşlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Səhiyyə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Neft Şirkəti(SOCAR), Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi, Dövlət Dəniz Administrasiyası, İqlim Dəyişikliyi və Ozon Mərkəzi, ANAMA, Elmlər Akademiyası, Vətəndaş cəmiyyəti, BMT-nin Gənclər üzrə Məşvərət Şurası, Təmiz Şəhər Özəl Şirkəti, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, Azərbaycanın Həmkarlar İttifaqlarının | **BMTİP: 500,000**<br>**UNICEF: 1,475,000**<br>**UNIDO: 2,600,000**<br>**UNECE: 60,000**<br>**UNEP: 50,000** | **BMTİP: 10,000,000**<br>**UNICEF: 901,000**<br>**UNEP: 450,000**<br>**UNECE: 400,000**<br>**UNESCO: 50,000**<br>**BMqT: 280,000** |
| | <u>2-ci Göstərici</u><br>Miqrasiya Böhran Fəaliyyət Çərçivəsinə uyğun olaraq, fəlakət riskinin azaldılmasının, fəlakətlərə hazırlıq və fövqəladə hallara qarşı cavab tədbirləri strategiyalarının Azərbaycan Hökuməti tərəfindən miqrasiya sektorlarında əsas fəaliyyət sisteminə daxil edilməsi<br><br><u>İlkin vəziyyət:</u> Xeyr<br><u>Hədəf:</u> Bəli | BMqT | | | | |
| | <u>3-cü Göstərici</u><br>Transsərhəd kontekstdə ekoloji təsirin qiymətləndirilməsi | Çoxtərəfli Ekologiya üzrə Sazişlərin icrasına dair hökumət | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | haqqında Konvensiyaya (Espoo Konvensiyası) və onun Strateji Ekoloji Dəyərləndirmə (SED) haqqında Protokoluna uyğun olaraq ETD və SED-in tətbiqini gücləndirmək üçün qəbul edilmiş mexanizmlərin sayı<br><br>**İlkin vəziyyət:**0<br>**Hədəf:**3 | hesabatları (milli icra hesabatları) | | Konfederasiyası | | |
| | **4-cü Göstərici**<br>Monreal Protokolunun tələblərinə müvafiq olaraq beynəlxalq ozon təbəqəsinin mühafizəsini təmin etmək (HCFC)-dən azad olmaq<br><br>**İlkin vəziyyət:**<br>HCFC-in istehlakı - 14.9 ODP ton<br>**Hədəf:** HCFC-141b və HCFC-22-dən tam azad olmaq | Ozon Katibliyinə təqdim olunan ölkə üzrə illik hesabatlar | | | | |

## 2-ci Əlavə: UNAPF-dəki strateji prioritet sahələrə və nəticələrə agentliklərin dəstəyi

### 1-ci strateji prioritet sahə: Artan şaxələndirilmə və layiqli əməyi özündə ehtiva edən dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi

| Nəticə | Agentliklərin dəstəyi |
|---|---|
| 1.1-ci Nəticə: 2020-ci ilədək Azərbaycan iqtisadiyyatının diversifikasiyası, dayanıqlı artımın və xüsusilə də, gənclər, qadınlar, əlilliyi olan insanlar və digər həssas qruplar üçün məşğulluq imkanlarının genişləndirilməsinə şəraitin yaradılması | **FAO:** Təftiş və diaqnostik xidmətlərlə bağlı sərhədyanı bitki karantin məntəqələrinin potensialının gücləndirilməsi, o cümlədən fitosanitar təftiş və əsas zərərvericilərlə bağlı diaqnostika, strateji planlaşdırma və idarəçilik, idxalın tənzimlənməsi sisteminin idarə olunması və ixracatla bağlı şəhadətnamələrin verilməsi üzrə potensialın inkişaf etdirilməsi. Heyvandarlıq sektorunda kənd sakinlərinin gəlirlərini artırmaq üçün damazlıq maldarlığın və süni mayalanma xidmətlərinin inkişafına dəstəyin göstərilməsi. Kəndlilərin yaşayış üçün vasitələrini yaxşılaşdırmaq üçün kənd təsərrüfatında məhsuldarlığın artırılmasına dəstək verilməsi. Üzvi kənd təsərrüfatının inkişaf etdirilməsinə, o cümlədən müvafiq təşkilati potensialın inkişafına (təftiş, şəhadətnamələrin verilməsi, informasiyanın yayımlanması) və Siyasət Təhlil Cədvəlinin hazırlanmasına dəstəyin göstərilməsi. Məhsul istehsalını və idarəçiliyi təkmilləşdirmək və müxtəlifləşdirmək üçün kənd təsərrüfatı saxlama/qoruma təcrübələrinin (əkinçilik sistemləri, lazer vasitəsilə torpaq hamarlama) sınaqdan keçirilməsi.<br><br>**IFAD:** Ərzaq təhlükəsizliyini artırmaqla və gəlir əldəetmə imkanlarını genişləndirməklə, xüsusən də məhsul və heyvandarlıq sahəsində və bu prosesin əsas iştirakçıların (dövlət, özəl iştirakçılar və hasilatçılar) potensialını gücləndirməklə nisbətən yoxsul rayonlarda kənd yoxsulluğunun azaldılmasına diqqət yetirilməsi. Gözlənilən nəticələr – yoxsul kənd ailələrinin gəlirlərinin və aktivlərinin artırılması, təbii resursların daha dayanıqlı şəkildə idarə olunması və iqlim dəyişikliyinə qarşı dayanıqlılığın artırılması, bazarlarla və maliyyə xidmətləri ilə dayanıqlı əlaqələrlə təkmilləşdirilən istehsal sistemləri əsas nəticələrdir. Məhsul səviyyəsində nəticələrə isə istehsal olunan, satılan məhsul və gündəlik istehsalın həcmində, ümumi dəyərində və müxtəlifliyində artımlar, yerli bazarlarda kənd təsərrüfatı/heyvandarlıq istehsalı üçün satış nöqtələrinin |

| | |
|---|---|
| | sayı, bazaryönlü meyvə və tərəvəz müxtəlifliyinə keçən və təkmilləşdirilmiş saxlama qurğularından istifadə edən fermerlərin nisbəti aiddir.<br><br>**BƏT**: Aktiv Əmək Bazarı Proqramlarının yerinə yetirilməsində Dövlət Məşğulluq Xidmətlərinin və BƏT hissələrinin potensialının inkişaf etdirilməsinə dəstəyin davam etdirilməsi.<br><br>**BMqT:** Miqrasiya məsələlərini ümumi sosial-iqtisadi və sahəvi siyasətə daxil etməklə, miqrasiya və inkişaf arasında müsbət birgə səyləri təşviq etmək, məcburi və qanunsuz miqrasiyanın köklü səbəblərini aradan qaldırmaq və Azərbaycan diaspora icmalarının ölkənin inkişafına müsbət dəstəyini maksimuma çatdırmaq. Əmək miqrasiyası və əmək bazarının tələbi/təklifi haqqında informasiyanın toplanılmasında, təhlil olunmasında, işlənilməsində və istifadə olunmasında dövlət qurumlarında səmərəliliyin və onlar arasında əlaqələndirmənin artırılmasına dəstək göstərilməsi. E-xidmətləri təkmilləşdirməklə və potensialı artırmaqla Dövlət Miqrasiya Xidməti tərəfindən miqrantlara, xüsusən də əməkçi fəhlələrə, habelə işəgötürənlərə və ümumi əhaliyə daha yaxşı və sürətli xidmətlərin göstərilməsinə dəstək vermək. Təkmilləşdirilmiş xidmətlər və Hökumətin, maliyyə institutlarının və köçürmələri alan ailələrin potensialını genişləndirməklə köçürmələrin gəlir gətirən fəaliyyətlərə və icmaların inkişaf layihələrinə yönəldilməsinə dəstək göstərilməsi. Yoxsulluq həddinə çatmış kənd icmaları, MK-lər, mina qurbanları, qadınların başçılıq etdiyi ailələr və Azərbaycana qayıtmış miqrantlar üçün gəlirləri artırmaqla yoxsulluq səviyyəsini azaltmağa yönələn müxtəlif proqramların və xidmətlərin mövcud olmasına dəstək göstərilməsi.<br><br>**UNCTAD:** Ümumdünya Ticarət Təşkilatına (ÜTT) qoşulma prosesi kontekstində ticarət və ticarətlə bağlı beynəlxalq standartlara uyğunluğu artırmaq üçün milli potensialın gücləndirilməsi.<br><br>**BMTİP:** İşsizlər üçün xidmətlərin təkmilləşdirilməsinə, qadınların, gənclərin və əlilliyi olan şəxslərin iqtisadi baxımdan səlahiyyətləndirilməsinə, insan kapitalına yatırımlar üçün təşviqata və məşğulluqla bağlı məsələlər üzrə siyasətlə bağlı məsləhətlərin verilməsinə dəstək göstərilməsi. |

| | |
|---|---|
| | **UNECE**: Hökumətlə əməkdaşlıq şəraitində İnnovasiya Fəaliyyət İcmalını aparmaq (ilk olaraq 2016-cı ildən 2017-18-ci illərə kimi). Dövlət qulluqçuları və biznes assosiasiyaları üçün potensialı inkişaf etdirməklə rəqabətə, innovativ siyasətə və dövlət – özəl sektor tərəfdaşlığına dəstək göstərmək.<br><br>**UNESCO:** İnnovasiya, texnologiyalar və qeyri-neft sənaye elmləri ilə bağlı sahələrdə ali tədris proqramının və tədqiqatların genişləndirilməsi. Mədəni/ekoloji infrastrukturu yaxşılaşdırmaq, mədəni və təbii irsin qorunması. Dayanıqlı inkişafda hasilatın və istehlakın ənənəvi formalarının dəyəri üzrə potensialın inkişaf etdirilməsi. Tədris müəssisələrində və kütləvi informasiya vasitələrində gender bərabərliyinin təşviq edilməsi. Qərar qəbul edən şəxslərə və icma nümayəndələrinə kənd yerlərində bərabər artımın və gəlirlərin artırılmasının təşviq olunması üçün təlimin keçirilməsi. Xüsusən də həssas və təcrid olunmuş qruplar üçün uyğun iş imkanlarının yaxşılaşdırması üzrə mədəniyyət/səhiyyə/təhsillə bağlı siyasətin işlənib hazırlanmasına yardımın edilməsi.<br><br>**UNEP:** Yaşıl İqtisadiyyatın Əhatə Dairəsi üzrə Sorğu tamamlandıqdan sonra, 2020-ci il inkişaf hədəflərinə doğru irəliləyərkən resurs və enerjidən istifadənin səmərəliliyini artırmaq məqsədi ilə Hökumətin potensialını və iqtisadi planlaşdırmada dəqiqliyi artırmaq üçün yaşıl inkişaf yolu üzrə sahəvi Modelləşdirmə Təhlillərinin aparılmasına dəstək göstərmək.<br><br>**BMTQAK:** Qaçqınların və MK-lərin məşğulluq və gəlir əldə etmək imkanlarından daha yaxşı yararlanmalarını təmin etməkdə Hökumətə dəstək göstərmək. Peşə təlimi vasitəsilə bazara uyğun vərdişlərin əldə edilməsində Bakıdakı və Sumqayıtdakı MK və qaçqınlara yardım etmək. Kiçik sahibkarlıq fəaliyyətinə başlamaq üçün qrantların verilməsi ilə özünəinamlı olmaqda qaçqınlara kömək etmək.<br><br>**UNICEF:** Əlilliyi olan gənclərin daha geniş iştirakını daha yaxşı başa düşmək, planlaşdırmaq və həyata keçirmək və onların daha geniş iqtisadi məhsuldarlığına nail olmaq üçün təşkilatların, hüquqi çərçivələrin və vərdişlərin gücləndirilməsinə dəstək göstərilməsi. |

| | |
|---|---|
| | **UNIDO:** Hökumət və digər maraqlı tərəflərlə birgə iqtisadiyyatın şaxələndirilməsinə və qeyri-neft sektorunun inkişaf etdirilməsinə, o cümlədən kiçik və orta sahibkarlığa, sənaye parklarının, elm və texnologiya parklarının və azad iqtisadi zonaların yaradılmasına dəstək göstərmək. Tərəfdaşlıq yanaşmasını təşviq etməklə, keyfiyyətli infrastrukturu gücləndirməklə, o cümlədən ərzaq emalı, ağac, dəri, toxuculuq və aqro-avadanlıq sənayeləri kimi aqro-sənaye sahələri üçün yatırımları, innovasiya və texnologiyanın ötürülməsini təşviq etmək.<br><br>**ÜST:** Strateji "AVRO Səhiyyə 2020" siyasət çərçivəsi əsasında, dünyada səhiyyə xidmətlərinin əhatə dairəsinin genişləndirilməsinə nail olmaq və sağlamlığın qorunmasında sosial amillərə diqqət yetirmək məqsədi ilə milli səhiyyə potensialının gücləndirilməsinə texniki və ekspert dəstəyinin göstərilməsi. |

## 2-ci strateji prioritet sahə: İnstitusional potensialın gücləndirilməsi, səmərəli ictimai və sosial xidmətlər

| Nəticə | Agentliklərin dəstəyi |
|---|---|
| **2.1-ci Nəticə: 2020-ci ilədək Azərbaycanın şəffaf, dəlillərə əsaslanan, gender məsələlərinə həssaslıqla yanaşılan siyasətin hazırlanması və həyata keçirməsi üçün təşkilati potensialının artırılması** | **FAO:** Heyvandarlıqda məhsuldarlığı yaxşılaşdırmaq, süni mayalanma tədbirlərini genişləndirmək və mayalanma subyektlərinə texniki, hüquqi və maddi kömək göstərmək üçün Heyvandarlıq İstehsalçıları və Süni Mayalanma ilə məşğul olanların Birliklərinin yaradılmasına, bütün arıçılar üçün effektiv təlim və köməyi təmin etmək üçün Arıçılar Birliklərinin gücləndirilməsinə dəstək göstərmə. Yerə uyğun vəsaitlərə qənaət olunan, gəlirli və müxtəlif məhsul istehsalı, müasir arıçılıq, arıçılıq və maldarlıq sahələrində yetişdirmə və süni çoxaltma, üzvi kənd təsərrüfatı, zərərvericilərlə mübarizə vasitələri, otlaqların idarə olunması və s. üzrə fermerlərin və yerli ekspertlərin potensial və vərdişlərini gücləndirmə.<br><br>**IFAD:** Tam şəkildə fəaliyyət göstərən idarəçilik orqanları və digər idarələrlə, maliyyə baxımından stabil olan, qənaətbəxş işlər görən və öz üzvlərinə təmir xidmətləri göstərən Sudan İstifadəedənlər Birliklərinin (SİB-lər) yaradılmasına, SİB-in idarə heyətinin və əməkdaşlarının təliminə və SİB-lər üçün gəlirlərin artırılmasına dəstək göstərmə. Digər sahələrlə |

| | |
|---|---|
| | yanaşı fermerlik vərdişləri, bağçılıq, heyvandarlıq, məhsul yığımından sonra idarəetmə və bazara yönləndirmə üzrə fermerlər üçün potensialın inkişaf etdirilməsi. Dövlət-Özəl-İstehsalçı Tərəfdaşlıqları (Dörd 'P') yanaşması vasitəsilə, məqsəd, dayanıqlı və gəlirli tərəfdaşlıqlara keçid almaq üçün bütün müvafiq iştirakçıların potensialını inkişaf etdirməkdir.<br><br>**BƏT:** Milli Üçtərəfli Sosial Dialoq üçün təşkilati çərçivəyə dəstəyi davam etdirmək.<br><br>**BMqT**: Siyasi və hüquqi potensialı gücləndirməklə, habelə təşkilatı fəaliyyəti təkmilləşdirməklə və səmərəliliyi artırmaqla, texniki modernləşdirmə və avadanlığı yeniləməklə effektiv miqrasiya və sərhəd idarəçiliyi üçün milli potensialı artırmaq. Miqrasiya və qanunvericiliyi daha da inkişaf etdirmək və yerinə yetirmək üçün Dövlət Miqrasiya Xidmətinə və digər qurumlara təşkilati potensialın gücləndirilməsinə dəstək göstərmək. Texniki qurğularda daha optimal istifadə üçün Hökumət orqanlarının potensialını artırmaq. Sərhəd idarəçilik sistemlərini və təcrübələrini Avropa İttifaqı standartlarına daha da yaxınlaşdırmağa dəstək göstərmək. Qanunsuz miqrasiya hallarının azaldılması sahələrində Hökumətin daxili və xarici əlaqələndirməsini gücləndirmək. QHT-lərə və mətbuat/media birliklərinə insan alveri ilə mübarizədə, habelə planlaşdırma, proqramlaşdırma və təşviqat üçün öz potensiallarından effektiv şəkildə istifadə etməklərin və öz rollarını yerinə yetirə bilmələrini nümayiş etdirmək üçün dəstək göstərmək. İcazəsiz məşğulluq hallarını aşkar etmək və bununla bağlı işləri araşdırmaq üçün milli metod və vasitələrin təkmilləşdirilməsinə, müvafiq orqanlar tərəfindən bunların təcrübədə tətbiq edilməsinə dəstək göstərmək.<br><br>**BMTİP:** Milli e-hökumət siyasətinin işlənib hazırlanmasına və yerinə yetirilməsinə dəstək göstərmək. Dövlət sektoru təşkilatlarının daha effektiv fəaliyyət göstərmələri üçün İKT vasitələrini və innovativ həll yollarını təşviq etmək. Dövlət qulluqçularının potensialını inkişaf etdirmək və dövlət qulluğunun təkmilləşdirilməsinə dəstək göstərmək. Azərbaycanın İnkişaf naminə İKT və e-hökumət təcrübəsini digər inkişaf etməkdə olan ölkələrlə bölüşmək üçün səylər göstəriləcəkdir.<br>**UNECE**: Azərbaycanda Milli Statistika Sistemi üzrə 2011-ci ilin Qlobal Qiymətləndirmə Hesabatının nəticələrinə və |

| | |
|---|---|
| | tövsiyələrinə uyğun olaraq, sosial, iqtisadi və ətraf mühitlə bağlı statistik məlumatlar, o cümlədən Dayanıqlı İnkişaf Məqsədləri üzrə göstəricilər kimi bütün müvafiq sahələrdə rəsmi məlumatları toplamaq, işləmək və yayımlamaq üçün Azərbaycanın potensialını genişləndirmək.<br><br>**UNESCO:** Maarifləndirici və məlumatlandırıcı yayım proqramları ilə milli kütləvi informasiya vasitələrinin formalaşdırılmasına yardım etməklə daxili siyasətdə şəffaflığın artırılmasına kömək etmək. Şəffaflığın vacibliyinə dair jurnalistlərin potensialının inkişaf etdirilməsi. Düzgün siyasi mədəniyyətin artırılması üçün dövlət qulluqçularının potensialının inkişaf etdirilməsi. Düzgün siyasi rejim və vətəndaş cəmiyyətinin gücləndirilməsinə dəstək üzrə maarifləndirmə vasitəsilə informasiyanın yayımlanmasında iştirak etmək. Təhsil və mədəniyyət üzrə siyasətin işlənib hazırlanması və gender bərabərliyinin təşviqinə yönələn münasibətlər üzrə məsləhətlərin verilməsi. Vətəndaş cəmiyyəti və siyasi quruluş arasında dialoqun yaranmasına dəstək göstərmək.<br><br>**UNFPA:** Yeniyetmələrin/gənclərin və onların insan hüquqlarının/ehtiyaclarının milli qanunvericiliyə, siyasətlərə və proqramlara daxil edilməsi məqsədilə dəlillərə əsaslanan təşviqat aparmaq üçün milli təşkilati potensialların gücləndirilməsi. Təcrid olunmuş yeniyetmə qızları, o cümlədən uşaq nikahı riski altında olanları əhatə etmək üçün geniş proqramların hazırlanması və yerinə yetirilməsi üzrə tərəfdaşların potensialını gücləndirmək. Əhali və inkişaf məsələlərinə dair keyfiyyətli, təfsilatlı məlumatların əldə edilməsi və yayımlanması üçün milli potensialın gücləndirilməsi. Əhalinin artım dinamikası və cinsi/reproduktiv sağlamlıq üzrə qabaqcıl, dərin təhlillər vasitəsilə dəlillərin mövcudluğunu artırmaq. Əhalinin artım dinamikası, cinsi/reproduktiv sağlamlığa və onların dayanıqlı inkişafla əlaqələrinə dair dəlilləri birləşdirən insan hüquqlarına əsaslanan siyasətin işlənib hazırlanması və yerinə yetirilməsi üçün potensialı gücləndirmək.<br><br>**BMTQAK:** Dövlət Miqrasiya Xidməti tərəfindən fərdi qaçqın statusunun müəyyənləşdirilməsində keyfiyyətin artırılmasına dəstək göstərməklə və qaçqınların öz hüquqlarından və Hökumətin xidmətlərindən effektiv şəkildə yararlanmalarını təmin etməklə effektiv müdafiə üçün milli sığınacaq |

| | |
|---|---|
| | sisteminin potensialını artırmaq. Vətəndaşlığı olmayan şəxslərin müəyyənləşdirilməsi prosedurunun təsis olunmasına, vətəndaşlığı olmayanlar üçün hüquqlara effektiv çıxış və vətəndaşlığın verilməsi imkanına yardım etmək.<br><br>**UNICEF:** Həssas uşaqları və onların ailələrini vaxtlı-vaxtında, keyfiyyətli və davamlı sosial xidmətlərlə təmin etmək, həm milli, həm də yerli səviyyələrdə qanunvericiliklə müəyyən edilmiş sistem və platformaların yaradılması və möhkəmləndirilməsinə dəstək göstərmək. Hər hansı zorakılıq, pis rəftar və istismar hallarının qarşısını almaq üçün uşaqların risk altında olduğu halları müəyyənləşdirəcək, qeydə alacaq, məlumat verəcək, onlara müdaxilə edəcək mexanizmlərin qurulmasında və möhkəmləndirilməsində milli və yerli hökumət orqanlarına dəstək göstərəcək. Sosial dəstək xidmətlərinin həssas uşaqlar və ailələr üçün keyfiyyətli, əhatəli, əlçatan və uyğun olmasını təmin etmək üçün Hökumət və QHT tərəfdaşları ilə iş aparmaq. Liderlik proqramları və təşkilati potensialı inkişaf etdirməklə islahatlara dair təşəbbüslərə dəstək göstərmə. Yeniyetmələrin, xüsusən də daha az imkanlara malik olanların xüsusi ehtiyaclarını və hüquqlarını təmin etmək üçün səhiyyədə (o cümlədən HIV-lə bağlı), təhsildə və sosial müdafiədə bərabər xidmətlərlə bağlı gənclər və sahəvi siyasəti gücləndirmə. Gənclərlə bağlı siyasətdə məlumatlı olmaq üçün dəlil toplama mexanizmlərinin/sistemlərinin yaradılmasına dəstək göstərmək.<br><br>**UNODC:** Beynəlxalq terrorçuluqla mübarizə, onun qarşısının alınması ilə bağlı beynəlxalq hüquqi sənədlərə və qanunun aliliyi prinsipinə uyğun olaraq, hüquq-mühafizə sisteminin potensialını və onun terrorçuluğa qarşı hüquqi rejimini gücləndirmək. Qanunsuz maliyyə axınları, xüsusilə də kibercinayətkarlıqla bağlı olan hallarla mübarizə aparmaq üçün hüquq-mühafizə orqanlarının potensialının artırılmasına dəstək göstərmək. Cinayət və qeyri-qanuni fəaliyyətlərə, mütəşəkkil cinayət, korrupsiya, eləcə də transmilli mahiyyət daşıyan fəaliyyətlərə qarşı mübarizə və onların öncədən əngəllənməsi üzrə siyasətin, qanunvericililiyin, institusional dəstək və təlimlərin təkmilləşdirilməsində milli institusional imkanların və qurumlararası koordinasiyanın daha da gücləndirilməsinə dəstək. |
| **<u>2.2-ci Nəticə:</u> 2020-ci ilədək Azərbaycanın beynəlxalq insan** | **BMqT:** Hökumətin və qeyri-hökumət təşkilatlarının potensialını gücləndirməklə beynəlxalq və Avropa insan |

| | |
|---|---|
| **hüquqları mexanizmlərinə, o cümlədən Ümumi Dövri İcmala, digər müqavilə öhdəliklərinə uyğun olaraq irəliləyişə nail olması, beynəlxalq standartlara uyğun tətbiq, monitorinq və hesabat vermə üçün potensialının gücləndirilməsi.** | hüquqları və standartlarının təfsirinə və tətbiqinə dəstək göstərmək. Beynəlxalq və Avropa insan hüquqları standartları və konvensiyaları üzrə, o cümlədən onların təcrübədə tətbiqində dövlət orqanlarının potensialını inkişaf etdirmək. Milli qanunvericiliyin beynəlxalq və Avropa normalarına bir qədər də uyğunlaşdırılmasına dəstək göstərmək. Ədliyyə Nazirliyinin nəzdində Ədliyyə Akademiyasında, hakimlər, hakimliyə namizədlər və prokurorlar üçün miqrantların hüquqlarına dair tədris proqramının institusionallaşdırılmasına dəstək göstərmək. Miqrantların məhkəməyə çıxış imkanının və müvafiq qanunvericiliyin tam şəffaf və vahid şəkildə tətbiqini təmin etməyə dəstək göstərmək. Miqrantlara, insan alverinin qurbanlarına və potensial qurbanlara yardım etmək üçün vətəndaş cəmiyyətinin potensialının inkişaf etdirilməsi.<br><br>**OHCHR:** Birləşmiş Millətlər Təşkilatının insan hüquqları ilə bağlı mexanizmlərində daha geniş iştirak üçün milli vətəndaş cəmiyyəti iştirakçılarının rolunun artırılmasında Hökumətə dəstək göstərmək. BMT-nin müqavilə qurumlarının, qərarlarının yerinə yetirilməsi üçün təşviqatın aparılmasında milli vətəndaş cəmiyyəti təşkilatlarının və digər iştirakçıların potensialının inkişaf etdirilməsində və maarifləndirilməsində Hökumətə dəstək göstərmə. BMT-nin insan hüquqları mexanizmləri ilə qarşılıqlı əlaqələrini gücləndirmək üçün vətəndaş cəmiyyətinin və digər milli iştirakçıların maarifləndirilməsində Hökumətə dəstək göstərmək.<br><br>**UNESCO:** UNESCO-nun fəaliyyət sahələrində Azərbaycanla beynəlxalq və çoxtərəfli əməkdaşlığa dəstək göstərmək. Potensialı inkişaf etdirməklə və informasiyanı yaymaqla Ombudsman üçün texniki təcrübə və məsləhətlərin verilməsi və ölkənin təhsil sisteminə insan hüquqları mövzularının daxil edilməsi. Multikulturalizmin və beynəlxalq hərəkətliliyin gücləndirilməsi üçün müəllimlərin potensialının inkişaf etdirilməsi. Təhsillə bağlı normativ bazanın təkmilləşdirilməsi üçün məsləhətlərin verilməsi və Azərbaycanın müvafiq sisteminin beynəlxalq standartlara uyğunlaşdırılmasına yardım etmək. UNESCO, həmçinin, Hökumətlə bir sıra beynəlxalq təşkilatlar arasında vasitəçi qismində də fəaliyyət göstərəcəkdir.<br><br>**UNFPA:** Əhalinin artım dinamikası, cinsi/reproduktiv sağlamlıq və reproduktiv hüquqlar, yeniyetmələr/gənclər və |

| | |
|---|---|
| | gender bərabərliyi sahələrində, o cümlədən humanitar çərçivələrdə milli siyasətin və proqramların monitorinqini və qiymətləndirilməsini aparmaq üçün məlumatlardan və dəlillərdən istifadə üzrə milli potensialın gücləndirilməsi. İnsan hüquqları və gender bərabərliyini təşviq edən icma və məktəb təhsili üçün cinslər üzrə bölgüyə dair təhsil proqramlarının işlənib hazırlanması və yerinə yetirilməsi üçün milli potensialın artırılmasına dəstək göstərmək. Reproduktiv hüquqların təbliği, gender bərabərliyinin, ayrı-seçkiliyin yolverilməzliyinin təşviq olunması və gender zəminində zorakılıq hallarının qarşısını almaq üçün beynəlxalq və milli müdafiə sistemlərinin gücləndirilməsi.<br><br>**BMTQAK:** Sığınacaq hüququ, vətəndaşsızlıq və məcburi köçkünlüyə dair tənzimləyici çərçivəni beynəlxalq və Avropa regional standartlarına uyğunlaşdırmaq üçün dəyişikliklərin təşviq olunması.<br><br>**UNICEF:** Uşaq hüquqları üzrə müstəqil monitorinq üçün milli mexanizmlərin gücləndirilməsi, uşaqların və yeniyetmələrin iştirakına dəstək göstərmək. Hökumətə uşaq hüquqlarına dair özünün illik daxili hesabat vermə mexanizmini gücləndirmək və təkmilləşdirmək üçün dəstək göstərmək. Hökumətin Beynəlxalq Diridoğulma Meyarları Anlayışına keçidinə dəstək göstərmək. Uşaq hüquqlarının qəbul edilməsi və UNCRC müddəalarının yerinə yetirilməsi üçün daha böyük anlayış və dəstəyə nail olmağa yönələn davranışda dəyişiklik və maarifləndirmə təşəbbüslərinə dəstək göstərmək. Uşaqların yaşamaq və böyümək, inkişaf etmək, müdafiə və iştirak hüququnu daha yaxşı dərk etmək üçün əlaqə/ictimai təşviqat strategiyalarını/layihələrini daha effektiv şəkildə planlaşdırmaq, həyata keçirmək, idarə etmək və onların monitorinqini aparmaqla bağlı UNICEF Hökumət/qeyri-hökumət/özəl sektor tərəfdaşlarının milli potensialının inkişaf etdirilməsinə dəstək göstərmək. |
| **<u>2.3-cü Nəticə:</u> 2020-ci ilədək keyfiyyətli dövlət və sosial xidmətlərin hamı üçün əlçatan olması, sosial baxımdan daha inklüziv və bərabər inkişaf nəticələrinə nail olmağa kömək edilməsi** | **IFAD:** Təmiz içməli suya çıxış imkanı ilə bir sıra qəsəbələrdə, suyun keyfiyyətində, Şəki və Oğuz rayonlarının dağlıq kəndlərində içməli su çatışmazlığı məsələlərində təkmilləşdirmələr. Suvarma üçün kifayət qədər su verilən fermer torpaqlarının nisbətinin artırılması. Etibarlı və daha yaxşı gigiyena standartlarını təşviq etmək üçün ictimai obyektlərin (bazarlar və maldarlıq təsərrüfatları) təkmilləşdirilməsinə dəstək göstərmə. |

| | |
|---|---|
| | **BMqT:** Miqrasiyaya cəlb olunmuş şəxslərə sosial yardım xidmətlərinin inkişaf etdirilməsində və gücləndirilməsində Hökumətə yardımı davam etdirmək. Hökumət tərəfindən maliyyələşdirilən, Azərbaycandan Miqrantların Yardım Göstərilməklə Könüllü Qayıdışının təsis olunmasına dəstək göstərmək. Ehtiyacı olanlara məlumat, hüquqi məsləhət və yardımı təmin etmək üçün Dövlət Miqrasiya Xidmətinin tərkibində Miqrantlara Yardım Bölməsinin yaradılmasına dəstək göstərmək. Qanunsuz miqrasiya və insan alveri ilə bağlı cinayətlərin qarşısını almaq, onları araşdırmaq və təqib etmək üçün məhkəmə (hakimlər, prokurorlar və hakimliyə namizədlər), polis, Dövlət Sərhəd Xidməti və Dövlət Miqrasiya Xidmətində təşkilati potensialın inkişaf etdirilməsi.<br><br>**İstanbulda Regional Mərkəz:** Avropa İttifaqı tərəfindən birgə maliyyələşdirilən regional layihənin davamı olaraq, 2012-ci ilin sentyabr ayında təsis olunan regional hüquqi yardım şəbəkəsi çərçivəsində, ən çox ehtiyac duyanlara HİV-lə bağlı hüquqi xidmətlərə davamlı çıxış imkanı üçün hüquqi yardım göstərən təşkilatlara texniki yardım/dəstək göstərmək. UNAIDS, Dünya Bankı və QİÇS, Vərəm və Malyariya ilə Mübarizə üzrə Qlobal Fondla birgə, mümkün olduğu halda HIV-ə qarşı tədbirlərin dayanıqlı şəkildə maliyyələşdirilməsi üzrə investisiya araşdırma sorğusunun aparılması. Qeyri-səhiyyə sahələrindən (maliyyə, ticarət, təhsil, idman və ətraf mühit) çoxsahəvi iştirakla hüquqlara və genderə əsaslanan yanaşmanı təmin etməklə, Tütünə nəzarət üzrə Çərçivə Konvensiyasının yerinə yetirilməsi də daxil olmaqla, ÜST-nin rəhbərliyi altında QYX-lərlə milli mübarizə tədbirlərinə dəstək göstərmək.<br><br>**UNESCO:** Qadınlar və məcburi köçkünlər (MK) kimi həssas qruplara ayrıca diqqət yetirərək, keyfiyyətə və bərabərliyə yönəlməklə, təhsil, mədəniyyət və səhiyyə sahələrində milli potensialın inkişaf etdirilməsi. Məktəb təhsili və müəllimlərə təlim keçməklə QİÇS-lə bağlı maarifləndirməyə dəstək göstərmək. Hökumət və vətəndaş cəmiyyəti ilə birgə həyata keçirilən informasiya kampaniyaları vasitəsilə narkomanlığın azaldılması. Xüsusən də MK icmalarında, ciddi səhiyyə problemlərini həll etmək üçün ibtidai məktəblərdə ailə/həyat vərdişlərinin təşviqi üzrə müəllimlərin təlim keçməsi. Ümumi gender proqramlarının genişləndirilməsi və alternativ Erkən Uşaqlıq Qayğı və Təhsil modellərinin tətbiqi ilə təhsil sisteminin gücləndirilməsi üçün Təhsil Nazirliyi ilə |

| | |
|---|---|
| | intensiv əməkdaşlıq. Xüsusi layihələr üzrə əməkdaşlıq, o cümlədən məktəblərdə İKT-dən istifadənin təşviq olunması, mədəni və təbii irsə dair biliklərin yayımlanması.<br><br>**UNFPA:** Birgə cinsi/reproduktiv səhiyyə xidmətlərinin göstərilməsi üçün milli potensialın artırılmasına dəstək göstərmək. Əlverişli mühitləri gücləndirmək, hamiləlik əleyhinə müasir vasitələrə tələbatı və onların təchizatını artırmaq və məcburetmə, ayrı-seçkilik və zorakılıqdan azad olan keyfiyyətli ailə planlaşdırma xidmətlərini təkmilləşdirmək üçün milli potensialın artırılmasına dəstək göstərmə. Hərtərəfli ana sağlamlığı xidmətlərini göstərmək üçün milli potensialın inkişaf etdirilməsinə dəstək göstərmə. Cinsi və reproduktiv səhiyyə xidmətlərini göstərmək, habelə gender zəminində zorakılığın və zərərli vərdişlərin qarşısını almaq və humanitar çərçivələr də daxil olmaqla, çoxsahəvi xidmətlərin göstərilməsinə imkan yaratmaq üçün milli potensialın artırılmasına dəstək göstərmə.<br><br>**BMTQAK:** MK-lərin, qaçqınların və vətəndaşlığı olmayan şəxslərin sosial xidmətlərə effektiv və bərabər çıxış imkanını təmin etmə.<br><br>**UNICEF:** Sağlamlıq imkanları məhdud olan uşaqlar üçün inklüziv təhsili təmin etmək üçün qanunvericilikdə dəyişikliklərin edilməsində, təhsilin və ictimai münasibətlərin təşkilində Təhsil Nazirliyinə dəstək göstərmək. Uyğunlaşdırıla bilən formal və qeyri-formal təhsil sistemini hazırlamaq və tətbiq etmək üçün Hökumətə dəstək göstərmək. Uşaqların öz ailələrindən və ailə qayğısından ayrı düşməsi hallarının qarşısının alınmasına diqqət yetirərək, milli və yerli səviyyədə sosial dəstək xidmətlərinin yaradılması və möhkəmləndirilməsi mexanizmlərinin gücləndirilməsi. Uşaqların baxımsızlıq və pis rəftara məruzqalma qorxusu olmadan böyüyəcəkləri ailələrin və ailə mühitinin gücləndirilməsinə diqqət yetirməyi tələb edən effektiv sosial dəstək xidmətlərinin göstərilməsi üzrə üçüncü tərəflərlə fəaliyyətin davam etdirilməsində Hökumətə dəstək göstərmək. Hökumətin əsas strategiyası kimi, genişmiqyaslı institusional qayğıdan ailə qayğısına keçidi təmin etmək üçün müxtəlif Hökumət müəssisələri ilə işləmə. İcmada həyata keçirilməklə, sağlamlıq imkanları məhdud olan uşaqların və onların ailələrinin ehtiyaclarına və potensialına diqqət yetirilən sosial dəstək xidmətlərini genişləndirmək və |

| | |
|---|---|
| | təkmilləşdirmək üçün Hökumət orqanları ilə işi davam etdirmək. Qanun pozuntusuna yol vermiş yeniyetmələr, habelə məhkəmə və inzibati sistemlərlə təmasda olan uşaqlar üçün alternativlərin, daha yaxşı dəstəyin və xidmətlərin mövcudluğunu təmin etmək üçün Hökumətə və QHT tərəfdaşlarına dəstək göstərmək. Küçədə yaşayan uşaqların, qaraçı uşaqlarının və insan alverinə məruz qalmış uşaqların ehtiyaclarını daha yaxşı şəkildə təmin etmək üçün proqramların və xidmətlərin işlənib hazırlanmasında Hökumətə dəstək göstərmək. Bütün aztəminatlı uşaqlara, o cümlədən ölkənin ucqar hissələrində yaşayan uşaqlara effektiv və səmərəli sosial xidmətlərin göstərilməsi üçün effektiv monitorinq və qiymətləndirmə sisteminin qurulmasında, möhkəmləndirilməsində və təşkilati potensialın gücləndirilməsində Hökumətə dəstək göstərmək. Qabaqlayıcı tədbirlər və ailə dəstəyinə diqqət yetirərək, milli və yerli səviyyədə sosial dəstək xidmətlərini yaratma və möhkəmləndirmə mexanizminin gücləndirilməsi. Uşaqlıq dövrü xəstəliklərinin erkən aşkarlanması/qarşısının alınması və erkən müdaxilələr üzrə siyasətin qəbul edilməsinə və xidmətlərin yaradılmasına dəstək göstərmək. Dəmir çatışmazlığı anemiyasının öhdəsindən gəlmək üçün effektiv vasitə kimi qidaya əlavələrin edilməsinə imkan yaradan siyasət və standartların qəbul edilməsinə dəstək göstərmək. Körpə və Azyaşlı Uşaq Qidalanma siyasətinin, norma və standartlarının nəzərdən keçirilməsinə dəstək göstərmək. Xüsusilə sağlamlıq imkanları məhdud olan uşaqlar, MK/qaçqın ailələrindən ucqar yaşayış məntəqələrindən olan uşaqlar kimi əhalinin ən təcrid olunmuş qruplarına yönələn siyasətə və təcrübələrə dəstək göstərmək və əhalinin bu qruplarını birləşdirmək məqsədini daşıyan təcrübələri gücləndirmək. Gənclər evləri və mərkəzləri şəbəkəsini bütün yeniyetmələrə və gənclərə, o cümlədən aztəminatlılara daha keyfiyyətli və inklüziv xidmətlər göstərən gənclər mərkəzlərinə çevirmək üçün sistem dəyişikliyinə dəstək göstərmək. HIV müayinəsi və məsləhətləşmə üçün valideyn razılığını almaq tələbinin mövcud olduğu yaş həddinin 18-dən 16-ya endirilməsini təmin etmək üçün siyasi islahatlara dəstək göstərmək, HİV müayinəsi və məsləhət vermə xidmətlərinin yeniyetmələr tərəfindən başa düşülməsini gücləndirmək. Gənclərin geniş icma həyatında haqiqi iştirak etmələri və cəlb olunmaları üçün imkanları artırmaq, habelə yeniyetmələr/gənclər üçün xidmətlərin keyfiyyətini artırmaq məqsədi ilə gənclərin qərar qəbul etmədə iştirak modelinin |

| | |
|---|---|
| | (Azərbaycanlı Gənclərin Təşviqat Proqramı/Gənc Məsləhətçilər) digər rayonlara doğru genişləndirilməsinə dəstək göstərmək. Ailə, icma və rayon səviyyələrində bir sıra təcrübələrə/davranışlara və sosial/mədəni normalara diqqət yetirmək üçün dövlət və sosial xidmətlərin, o cümlədən ailə dəstək xidmətlərinin təşviqi və təbliği baxımından, rayonlarda İnkişaf naminə Ünsiyyətin Qurulması modelinə dəstək göstərmək.<br><br>**UNODC:** Narkotiklərin qarşısının alınması sahəsində dəlillərə əsaslanan narkotiklərlə mübarizə strategiyalarını, proqramlarını və siyasətini müəyyənləşdirmək, yerinə yetirmək, narkotiklərdən asılılığın elmə, insan hüquqlarına əsaslanan və tam şəkildə səhiyyə sisteminə daxil edilən hərtərəfli müalicə və reabilitasiya sistemini həyata keçirmək üçün əsas maraqlı tərəflərin potensialının inkişaf etdirilməsinə dəstək göstərmək.<br><br>**ÜST:** ÜST-nin Regional İdarəsi qeyri-yoluxucu xəstəliklərlə bağlı proqramlar çərçivəsində və Qeyri-Yoluxucu Xəstəliklər üzrə Qlobal Fəaliyyət Planındakı tövsiyələr əsasında milli səviyyədə tədbirlərin həyata keçirilməsinə öz dəstəyini davam etdirəcəkdir. Strateji 'AVRO Səhiyyə 2020' siyasət çərçivəsi əsasında, dünyada səhiyyə xidmətlərinin əhatə dairəsinin genişlənməsinə nail olmaq və sağlamlığın qorunmasında həlledici sosial amillərə diqqət yetirmək məqsədi ilə milli səhiyyə potensialının gücləndirilməsinə texniki və ekspert dəstəyi göstəriləcəkdir. |

## 3-cü strateji prioritet sahə: Ətraf mühitin idarə edilməsinin təkmilləşdirilməsi, risk və təbii fəlakətlərə qarşı dayanıqlılığın artırılması

| Nəticə | Agentliklərin dəstəyi |
|---|---|
| **3.1-ci Nəticə: 2020-ci ilədək dayanıqlı inkişaf siyasətinin və qanunvericiliyin mövcud olması, ətraf mühitlə bağlı çoxtərəfli sazişlərə uyğun olaraq onların daha yaxşı yerinə yetirilməsi və əlaqələndirilməsi, sosial və səhiyyə əlaqələrinin tanınması, habelə ətraf mühit və təbii resursların idarə olunması, enerji** | **FAO:** Zərərvericilərlə mübarizə vasitələrindən əhalinin sağlamlığına və ətraf mühitə qarşı riskin azaldılmasına, o cümlədən ehtiyatların qorunması və ekoloji baxımdan düzgün yerləşdirilməsinə, milli qanunvericiliyin/qaydaların nəzərdən keçirilməsinə və təhlükəli zərərvericilərlə mübarizə vasitələrinin yaratdığı riskə dair milli maarifləndirmə strategiyasının işlənib hazırlanmasına dəstək göstərmək. Otlaqların, digər təbii resursların bərpasına və dayanıqlı istifadəsinə dəstək göstərmə, o cümlədən Otlaqlar haqqında |

| | |
|---|---|
| **səmərəliliyi və bərpa olunan enerji, iqlim dəyişikliyi, risk və təbii fəlakətlərə qarşı dayanıqlılıq məsələlərinə diqqət yetirilməsi** | Qanunun işlənib hazırlanmasına dəstək göstərmək. Meşəsalma və meşələrin bərpası işini, o cümlədən meşə şitillik hasilatını, effektiv əkin üsullarının inkişaf etdirilməsi və potensialın meşəsalma ərazilərinin dəyərləndirilməsi üçün texniki yardım və potensialın inkişaf etdirilməsi.<br><br>**IFAD:** Daha gəlirli və ekoloji cəhətdən dayanıqlı məhsul növlərindən istifadə edən fermerlərin xüsusi çəkisinin, habelə səmərəli şəkildə suvarılan və qurudulan fermer torpaqlarının sahəsinin artırılmasına dəstək göstərmək. Eroziyaya nəzarət tədbirlərinin təmin olunması və şoran torpaqların münbitləşdirilməsinin sınaqdan keçirilməsi, habelə fermer torpaqlarının becərilərək gəlir gətirməsi üçün təmizlənməsi. Təbii resursların idarə olunmasında potensialın inkişaf etdirilməsi. Daşqınlara həssas ərazilərdə bitki örtüyü altında olan sahəni və qorunan istehsal (plastik tunellər və istixanalar) altında olan ümumi ərazini artırmağa dəstək göstərmək. Fermerlər üçün torpaqla bağlı təhlilin və meteoroloji məlumatların təmin olunmasına yardım.<br><br>**BMqT:** Fəlakət riskinin azaldılması, fövqəladə hallara qarşı cavab tədbirləri, erkən aşkar etmə işinin planlaşdırılması və yerinə yetirilməsi üçün əsas nazirliklərin, yerli orqanların, vətəndaş cəmiyyəti təşkilatların və icmaların potensialının artırılmasında dəstək göstərmək. Miqrasiya Böhran Fəaliyyət Çərçivəsinə uyğun olaraq, fəlakət riskinin azaldılmasının, fəlakətlərə hazırlıq və fövqəladə hallara qarşı cavab tədbirlərini miqrasiya sektorlarına daxil etmək üçün Hökumətə dəstək göstərmək. Müvafiq Hökumət orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları arasında idarələrarası əlaqələndirmə və əməkdaşlıq mexanizmlərinin gücləndirilməsinə dəstək göstərmək. Fəlakət risklərini müəyyənləşdirmək, qiymətləndirmək və onların monitorinqini aparmaq üçün yerli Hökumət orqanlarının, icmalarının və səhiyyə xidmətlərinin potensialını artırmağa, fəlakətlərə hazırlıq və fövqəladə hallara qarşı cavab tədbirləri görmək imkanlarını genişləndirməyə dəstək göstərmək.<br><br>**BMTİP:** Dayanıqlı otlaq və meşə idarəçiliyi, iqlim dəyişikliyini yüngülləşdirmə və ona uyğunlaşma, ekosistem idarəçiliyi, aqro-biomüxtəlifliyin qorunması və Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi haqqında Çərçivə Konvensiyası və Biomüxtəliflik haqqında Konvensiya üzrə hesabat vermə sahələrində milli siyasətin, qanunvericiliyin və potensialların |

| | |
|---|---|
| | inkişaf etdirilməsinə dəstək göstərmək. Daşqınlara nəzarət və minalanmış ərazilərin təmizlənməsinə də yardım göstəriləcəkdir.<br><br>**UNIDO:** Təlim, mübadilə proqramları və ekspert məsləhətləşmələri, ətraf mühitlə bağlı standartların (ISO 14001) tətbiqi, bələdiyyə, sənaye və zəhərli tullantıların idarə olunması üzrə qabaqcıl təcrübələr və texnologiyalar, ekoloji təhlükəsizlik, neftlə çirklənmiş torpaqları təmizləmə texnologiyaları kimi yaşıl texnologiyalar vasitəsilə ekoloji audit və ekoloji idarəçiliklə bağlı qabaqcıl təcrübələrə əsaslanmaqla sənayeyə dəstək göstərmək üçün resurs baxımından səmərəli və daha təmiz milli istehsal mərkəzinin yaradılmasına yardım. Mövcud olan beynəlxalq qabaqcıl təcrübə və texnologiyaları nəzərə alaraq, enerji və resurslardan istifadədə səmərəliliyi, məhsuldarlığı və dayanıqlılığı maksimum səviyyəyə çatdırmaq məqsədini daşıyan layihələrin hazırlanması və həyata keçirilməsi. Külək, günəş, geotermal, biokütlə və bioqaz enerjisi hasilatı, sənayedə su və tullantıların idarə olunması üzrə sınaq layihələrin hazırlanması və həyata keçirilməsi. Stokholm Konvensiyasına əsasən zəhərli üzvi çirkləndirici maddələrin azaldılması və Monreal Protokoluna əsasən ozon qatını tükəndirən maddələrin tədricən istehsaldan çıxarılması üzrə Hökumətin öz üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsinə yardım.<br><br>**UNECE:** (1) Beynəlxalq təcrübələrə uyğun olaraq ətraf mühitlə bağlı göstəricilərin hazırlanmasında və bölüşdürülməsində və (2) göstəricilərin təhlil olunmasına əsaslanmaqla düzgün ekoloji qiymətləndirmələrin hazırlanmasında milli statistika qurumlarının və ekologiya müəssisələrinin potensialını gücləndirmək. Avropa İttifaqının Su Təşəbbüsünə əsasən, inteqrasiya edilmiş su resurslarının idarə olunması üzrə milli siyasət dialoqlarına dəstək göstərmək. Azərbaycan və Gürcüstan arasında transsərhəd su əməkdaşlığına dəstək göstərmək.<br><br>**UNEP:** Ətraf mühitlə bağlı çoxtərəfli sazişlərdən və digər beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin yerinə yetirilməsi üçün milli potensialın artırılmasına dəstək göstərmək. Azərbaycanın ümumi təbii resurslar üzrə regional əməkdaşlığının genişləndirilməsinə dəstək göstərmək. |

| | |
|---|---|
| | **UNESCO:** Dayanıqlı istehsal və resurs idarəçiliyində milli potensialı inkişaf etdirmə və bilikləri möhkəmləndirmə. Yaşıl iqtisadiyyatın inkişaf etdirilməsinə yönəldilən elm sahələrində tədqiqatlara dəstək göstərmək. Mövzu üzrə regional seminarlar və təlimlər təşkil etməklə, təhsil sistemi və transsərhəd mədəni və təbii irsin qorunması vasitəsilə qeyri-maddi mədəni irsin qorunmasını təşviq etmək. Tədqiqat və dəniz elmləri sahələrində digər Xəzəryanı ölkələrlə beynəlxalq əməkdaşlığa yardım. Dövlət qulluqçuları üçün ətraf mühitlə bağlı texniki təcrübə və təlimin keçirilməsi. İqlim məsələlərinə dair bilikləri gücləndirmək və bu sahədə milli təcrübəni artırmaq üçün ibtidai və ali məktəblərdə müvafiq tədris planının hazırlanması məqsədi ilə Təhsil Nazirliyi ilə əməkdaşlıq etmək.<br><br>**UNICEF:** DRR layihələrini daha geniş miqyasda təkrarlamaqla Azərbaycanda təşkilatların və icmaların təhlükələrə və təbii fəlakətlərə qarşı dayanıqlılığını artırmaq, yatırımları və artıq DRR-nin təhsilə daxil edilməsi sayəsində əldə olunmuş irəliləyişi dayanıqlı etmək üçün onlara dəstək göstərmək.<br><br>**ÜST** - ÜST-nin Regional İdarəsi ətraf mühitin sağlamlaşdırılması , fəlakətlərə hazırlıq və səhiyyə sektorunda cavab tədbirləri, habelə kütləvi toplaşma tədbirlərinə hazırlıq sahəsində milli orqanlara öz dəstəyini davam etdirəcəkdir. ÜST əsas BMT tərəfdaşları ilə bu istiqamətdə əməkdaşlığını davam etdirəcəkdir. Strateji AVRO Səhiyyə 2020 siyasət çərçivəsi əsasında, ÜST dünyada səhiyyə xidmətlərinin əhatə dairəsinin genişlənməsinə nail olmaq və sağlamlığın qorunmasında həlledici sosial amillərə diqqət yetirmək məqsədi ilə milli səhiyyə potensialının gücləndirilməsinə texniki və ekspert dəstəyi göstərəcəkdir. |

## 3-cü Əlavə: Azərbaycanda *Vahid BMT fəaliyyəti* ilə bağlı Birləşmiş Millətlər Təşkilatı sisteminin öhdəlikləri

### İlkin vəziyyət

Birləşmiş Millətlər Təşkilatı yeni tələblərə cavab vermək bacarığını gücləndirmək və öz mühüm xidmətlərini ən effektiv və səmərəli yollarla göstərmək üçün davamlı şəkildə dəyişiklik və islahat prosesini keçir. Bu, (1) şəffaflığa, cavabdehliyə, düzgünlüyə, səmərəliliyə və çevikliyə daima diqqət yetirmə və (2) təkmilləşmənin gözlənildiyi və innovasiyanın alqışlandığı bir mühit yaratma deməkdir. Üzv Ölkələr Birləşmiş Millətlər Təşkilatının məqsədlərinə və prinsiplərinə uyğun olaraq, ümumi məqsəd və maraq kimi, BMT sisteminin uyğunluğunu, bağlılığını və etibarlılığını artırmaq üçün səylər göstərirlər. Üzv-ölkələr Dördillik Əhatəli Siyasi İcmalı (QCPR) prosesi, BMT-nin İqtisadi və Sosial Şurasının (ECOSOC) son qətnamələri və 2015-ci ildən sonrakı dayanıqlı inkişafa dair qlobal və milli məsləhətləşmələr vasitəsilə özlərinin dayanıqlı inkişaf prioritetlərini həll etməkdə onlara yardım göstərməyə uyğun və hazır olan güclü BMT inkişaf sistemini görmək istəyində olduqlarını təsdiqlədilər.

Birləşmiş Millətlər Təşkilatı sistemində islahatların bir hissəsi kimi, BMT sisteminin uzlaşdırılması üzrə Yüksək Səviyyəli İşçi Qrupu 2006-cı ildə "*Vahid BMT fəaliyyəti*" modelini tövsiyə etmişdir. Baş katib təşəbbüsü təqdim edərkən, səkkiz ölkənin – Albaniya, Kabo Verde, Mozambik, Pakistan, Ruanda, Tanzaniya, Uruqvay və Vyetnamın - Hökumətləri *Vahid BMT fəaliyyəti* qismində təqdim olunmada ilk sınaq ölkələr olmağa könüllü təşəbbüs göstərmişlər.

2015-ci ildən sonrakı ümumi dayanıqlı inkişaf proqramı da Dayanıqlı İnkişaf Məqsədlərinin növbəti nəslinin təqdim olunmasında ölkə səviyyəsində Üzv Ölkələrə dəstək göstərmək üçün Birləşmiş Millətlər Təşkilatının daha çox "məqsədə uyğun" olmasını tələb edir. "Məqsədə uyğun olma" tədricən bir-biri ilə daha çox bağlı olan və mürəkkəb inkişaf problemlərini effektiv şəkildə həll etməyə üzv-ölkələrə kömək edə bilmək üçün daha ardıcıl və əhatəli işləmək məqsədi ilə Birləşmiş Millətlər Təşkilatından göstərilən səyləri sürətləndirməyi tələb edir.

**BMT – Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (2016 – 2020-ci illər)**

BMT – Azərbaycan Tərəfdaşlıq Çərçivəsi əlaqələndirmə, uyğunlaşdırma və ən vacibi isə effektivliliyi, səmərəliliyi artırma və tərəfdaşlıqları gücləndirmə vasitəsilə, dəyişikliyə yönəldilən inkişafla bağlı növbəti nəticələrə nail olmaq üçün mükəmməl bir imkan yaradır. Yeni çərçivə ölçülə bilən nəticələrə doğru fəaliyyəti, kollektiv səylərin və birgə fəaliyyətin təsirlərini yaxşılaşdırmaq məqsədi ilə Azərbaycanda *Vahid BMT fəaliyyəti* ruhunda BMT-nin birliyini artırmaq üçün bir vasitə qismində çıxış edəcəkdir. Etibarlı tərəfdaş kimi Birləşmiş

Millətlər Təşkilatına inamı artırmaq və milli qarşılıqlı cavabdehlik mexanizmlərini gücləndirmək olduqca zəruri məqamlar kimi qalacaqdır.

Azərbaycanda Birləşmiş Millətlər Təşkilatı sistemi daha geniş təsirlə strateji nəticələrə nail olmaq üçün ardıcıl vahid planlaşdırma prosesləri və gücləndirilmiş müdaxilələr vasitəsilə strateji mövqe tutacaqdır. Milli monitorinq və qiymətləndirmə potensialının gücləndirilməsinə, monitorinq və qiymətləndirməni milli inkişafın planlaşdırması və yerinə yetirmə prosesinə daxil etmənin dərinləşdirilməsinə diqqət yetirilməklə, milli səviyyədə yiyələnmə və qarşılıqlı cavabdehlik prioritet məsələlər olacaqdır.

Birləşmiş Millətlər Təşkilatının Ölkə üzrə İdarə Heyəti BMT-nin daha güclü vahid yanaşması və müdaxilələrin uyğunlaşdırılması üçün səylər göstərəcəkdir ki, bu da BMT agentliklərinin texniki təcrübəsi ilə Fond və Proqramların fəaliyyət potensiallarını daha yaxşı şəkildə birləşdirəcəkdir. Birləşmiş Millətlər Təşkilatının rezident və qeyri-rezident agentliklərinin UNAPF-nin yerinə yetirilməsi prosesində iştirakı, Birləşmiş Millətlər Təşkilatının əsas proqram prinsiplərinə və keyfiyyətə diqqət yetirilməklə, Azərbaycanın ehtiyaclarından asılı olacaqdır. UNAPF tam şəkildə nəticə yönlü olacaqdır və UNAPF nəticələrinə kömək etməyə təşəbbüs göstərən Birləşmiş Millətlər Təşkilatının hər bir agentliyi bu nəticələrə nail olmağa dəstəyin göstərilməsində əhəmiyyətli rol oynamaq üçün kifayət edən insan, maliyyə və təşkilati resurslarının gətirilməsinə görə cavabdehliyi özü daşıyacaqdır.

Siyasətə dair məsləhətlər, texniki yardım və təşviqata ən dəyərli dəstəyi göstərməklə Azərbaycanın prioritetləri üzrə fəaliyyəti təkmilləşdirmək məqsədi ilə BMT-nin Ölkə üzrə İdarə Heyəti, *Vahid BMT fəaliyyəti* modelinin ***Vahid Lider*** (Səlahiyyətləndirilmiş Rezident Əlaqələndirici və Səlahiyyətləndirilmiş BMT-nin Ölkə üzrə İdarə Heyəti), ***Vahid Əməliyyat*** və ***Vahid Məlumatlanma və Ünsiyyət*** kimi bəzi əsas prinsiplərini tətbiq edəcəkdir.

**Vahid lider**

*Vahid BMT fəaliyyəti* üzrə Standart Fəaliyyət Prosedurlarında qeyd olunduğu kimi, ***Vahid lider*** konsepsiyasına əsasən, səlahiyyətləndirilmiş Rezident Əlaqələndirici, həm milli, həm də beynəlxalq səviyyələrdə müvafiq analitik imkanları bir araya gətirərək və Birləşmiş Millətlər Təşkilatının müxtəlif aktivləri arasında uğurlu birgə səyləri, habelə Birləşmiş Millətlər Təşkilatının müxtəlif qurumları, onların müvafiq mandatları və digər tərəfdaşlar arasında əlaqələri inkişaf etdirərək, UNAPF prosesi boyu strateji rəhbərliyi təmin edəcəkdir. Rezident Əlaqələndirici prosesi kollegial və birgə yolla aparacaq, Azərbaycanda Birləşmiş Millətlər Təşkilatı sisteminin ən uyğun və strateji milli prioritetlərə ən effektiv şəkildə və vaxtlı-vaxtında cavab verməsini təmin edəcəkdir.

UNCT üzvləri UNAPF ilə bağlı əldə etməyi öhdəlik kimi üzərlərinə götürdükləri nəticələrə görə Rezident Əlaqələndirici qarşısında cavabdehlik daşıyacaqlar. Agentliyin resurslarından istifadə üzərində səlahiyyəti və cavabdehliyi hər bir Agentlik özündə saxlayacaqdır.

UNCT səlahiyyətləndirilmiş Rezident Əlaqələndiricinin UNAPF-nin nəzərdən keçirilməsi və onun yerinə yetirilməsi üzərində rəhbərlik roluna dəstək göstərəcəkdir. UNCT UNAPF Nəticə Qruplarına və Monitorinq və Qiymətləndirmə qrupuna, BMT-nin Gender Tematik Qrupuna, BMT-nin İnsan Hüquqları üzrə İşçi Qrupuna, BMT-nin QİÇS üzrə Birgə Qrupuna, Əməliyyat İdarəetmə Qrupuna və BMT-nin ***Məlumatlanma və Ünsiyyət*** Qrupuna nəzarət olunmasına və onların effektiv fəaliyyət göstərməsinə görə cavabdehlik daşıyacaqdır. UNCT-nin mütəmadi olaraq keçiriləcək toplantıları, agentliklərarası əməkdaşlığı gücləndirmək və bütövlükdə Birləşmiş Millətlər Təşkilatı sisteminin əlaqələndirilməsini təkmilləşdirmək üçün cari, yüksək səviyyəli informasiya mübadiləsini təmin edəcəkdir.

**Vahid Əməliyyat**

UNCT ən yüksək səviyyədə əlavə fayda verilməsinə diqqət yetirməklə, strateji düşüncəni və uyğunlaşdırma səylərinin prioritetləşdirilməsini gücləndirmək üçün nəticələrə əsaslanan planlaşdırmaya dəstək göstərəcəkdir. Əməliyyat İdarəetməsi üzrə Qrup BMTİP-nin rəhbərliyi altında öz fəaliyyətini UNAPF sənədində göstərilən tədbirlərə uyğunlaşdıraraq ölkə səviyyəsində uzlaşdırılmış fəaliyyətin planlaşdırılmasına, idarə olunmasına və yerinə yetirilməsinə dair yanaşmaları müzakirə etmişdir. O, Vahid Əməliyyat prinsipinin bir hissəsi kimi, UNCT-nin fəaliyyətlə bağlı tədbirlərinə və uyğunlaşdırma səylərinə olan tələbi vurğulamışdır.

***Azərbaycanda Vahid Əməliyyat (VƏ)***

| VƏ üçün sahələr | VƏ-ni təmin edən tədbirlər | Birgə işləyən agentliklər | VƏ-yə qoşulan agentliklər | Son vəziyyət |
|---|---|---|---|---|
| **Ümumi satınalma** | Mümkün olduğu hallarda regional və qlobal səviyyədə uzun-müddətli sazişlərdən (UMS) faydalanaraq, xüsusi satınalma kateqoriyaları üçün BMT qurumlarının birgə fəaliyyəti əsasında razılaşdırılmış müştərək uzunmüddətli sazişlərdən istifadəni maksimuma çatdırmaq.<br><br>Ölkə səviyyəsində ümumi satınalmanın müvafiq təchizatlar və xidmətlər üçün | **BMTİP, UNICEF, DSS, DPI, OHCHR, UNODC, UNFPA*, BƏT** | **BƏT** (yalnız UMS-lər üçün) | **UNFPA** UMS təklif edən tərəflə ayrıca əlaqə tələb edir.<br>**ÜST** BMT-nin "ümumi" müqavilələrindən (Azercell, Lukoil və s.) yararlanan digər BMT agentlikləri ilə əməkdaşlıq edir<br><br>**BMTİP-nin** satınalma çalışması, UMS-lər, İK |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | potensialı və texniki mandatı olan BMT Agentliyi tərəfindən aparılmasını təmin etmək.<br><br>Satınalma xərclərini azaltmaq və satınalma proseslərini uyğunlaşdırmaq üçün uyğunlaşdırılmış alətlərdən və vasitələrdən istifadə, o cümlədən ümumi nəzarət qurumu, ümumi terminologiya, ümumi vəsatət sənədləri, ümumi standart müqavilələr, ümumi şərtlər, yerli satış müəssisələrinə dair məlumat bazası və satınalma ilə bağlı ümumi təlim materiallarından istifadə. | **BMTİP, DSS, DPI, OHCHR, UNODC, UNFPA, ÜST**<br><br>CAP (BMTİP &UNFPA); UMS qiymətləndirmə qrupu/səfərlər, bank, İnternet qoşulmaları üzrə işçi qruplar (BMTİP, UNICEF, BMTQAK, UNFPA, OHCHR, ÜST) | | formatı digər agentliklər tərəfindən istifadə olunur.<br><br>**ÜST** digər agentliklərdən fərqlənən öz tədarük qaydalarına və sənədləşməsinə/müqaviləyə malikdir.<br><br>**UNICEF** ümumiyyətlə, çox cüzi təchizata malikdir (işin xüsusiyyətləri).<br><br>Agentliyin xüsusi əlaqə cədvəlləri və ümumi şərtlər; BMTİP tərəfindən idarə olunan agentliklər üçün təklif edən tərəflərə dair ümumi məlumat bazası; tədarüklə bağlı ümumi təlim materialları. |
| | **Ümumi logistika və nəqliyyat** | Heyət üçün ümumi nəqliyyat vasitələrindən istifadəni maksimuma çatdırmaq, avtomobillərdən növbəli şəkildə istifadəetmə və müvafiq hallarda ümumi park idarəetmə və təmir tədbirləri. Keçid prinsipi tətbiq edildiyi ölkələrdə, BMT missiyasının belə tədbirlərə kömək edən aktivləri və imkanları nəzərdən keçirilməlidir.<br><br><u>İdarəçilik üzrə Yüksək səviyyəli İşçi Qrup tərəfindən uyğunlaşdırılmış müddəalar hazırlandıqdan sonra</u> heyət və tərəfdaşlar üçün uyğunlaşdırılmış səfər (yol) normativlərini tətbiq etmə.<br><br>Ümumi tədbirlər görmə, o cümlədən səfər/yol xidmətlərinin kənardan maliyyələşdirilməsinin mümkünlüyü (biletlər, | **BMTİP, ÜST, UNICEF, UNODC**<br><br>**BMTİP və BMTİP tərəfindən idarə olunan agentliklər** | | Nəqliyyat/avtomobillərdən növbəli istifadə; təkmilləşdirmə üçün sahə.<br><br>Yüksək səviyyəli toplantılar və ya mühüm tədbirlər zamanı tətbiq edilir.<br><br>Uyğunlaşdırılmış müddəalar hazırlandıqdan sonra qısa müddətdə bütün agentliklər tərəfindən nəzərdən keçiriləcəkdir. |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | görüşlərin təşkili xidmətləri, heyətin daşınması və s.) | **Bütün BMT agentlikləri** | | |
| | **Ümumi İKT** | İKT əməliyyatları, o cümlədən yaşıl İT, İKT təhlükəsizliyi, qoşulma imkanı və BMTİQ-nin İKT üzrə sosial qrupu ilə əlaqələndirmədə dəstək və infrastruktur sahəsində funksional təkmilləşdirmələri təmin edərək, ölkə səviyyəsində İKT-də *"Vahid BMT fəaliyyəti"* təqdimolunma üçün Tövsiyələrdə qeyd olunduğu kimi, İKT ilə bağlı Ölkə üzrə Nümayəndəlik səviyyəsində uyğunlaşdırılmış həll yollarını tətbiq etmək.<br><br>BMTİQ-in İKT üzrə İşçi Qrupu ilə birgə BMT-nin Ölkə üzrə İdarə Heyətinin İKT ilə bağlı iş problemlərini hər bir agentliyin İKT standartlarına uyğun həll yollarına çevirmək.<br><br>İKT həll yollarının texniki, habelə işgüzar tələblərə cavab verməsini təmin etmək üçün İKT İşçi Qrupu və digər fəaliyyət və proqramla bağlı qruplar (məsələn, Vahid proqram altında satınalma, insan resursları, maliyyə və proqram üzrə işçi qruplar) arasında rejimlərarası işi təmin etmək məqsədi ilə ehtiyac duyulduğu təqdirdə, Əməliyyat İdarəetməsi üzrə Qrup altında işçi qruplar yaratmaq. | **BMT iqamətgahında yerləşən agentliklər;**<br><br>**BMT İqamətgahı üçün fibro optik qoşulma üzrə BMTİP/ÜST İşçi Qrupu** | | Tələb olunan dəstək səviyyəsi fərqlənir (bəzi agentliklər tam sahəvi dəstəyə ehtiyac duyduqları halda, digərləri yalnız onlayn dəstəyə, problemlərin həllində dəstəyə ehtiyac duyurlar).<br><br>Müxtəlif yerlərdə yerləşən agentliklər yalnız onlayn dəstəyi bölüşə bilərlər.<br><br>Ümumi İnternetə qoşulma (fiber optik qoşulma) və BMT İqamətgahı üçün yardım masası)<br><br>Yardım masası və İnternetə qoşulma üçün UMS |
| | **Kadrların birgə idarə olunması** | (a)Vakant yerlərlə bağlı ümumi elanlar; (b) uyğunlaşdırılmış vəzifə təlimatları və dərəcələrdən istifadə; (c) namizədləri müəyyənləşdirmək və insan resurslarına qənaət etmək üçün digər agentliklər tərəfindən tərtib olunan namizədlərin qısa siyahısından və tövsiyə olunan | **BMTİP və BMTİP tərəfindən idarə olunan agentliklər**<br><br>**BMTİP/UNFPA Müsahibə Qrupu** | | **ÜST** öz heyət seçim sisteminə malikdir və İR idarəçiliyi EURO regional idarəsi tərəfindən tənzimlənir. Heç bir dəyişiklik nəzərdə tutulmur. |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | namizədlərdən istifadə; (d) yoxlamalar üçün ümumi kənar maliyyələşdirmə kimi heyətin toplanması sahələrində əməkdaşlıq.<br><br>Məsləhətçilərin və milli heyətin toplanması üçün ümumi siyahıdan/məlumat bazasından istifadə etmə və yerli məsləhət xidməti bazarından götürülərək ümumi razılaşdırılmış normalara uyğun olaraq fərdi məsləhətçilərin məvaciblərinin müəyyənləşdirilməsi üçün ümumi əsasları tətbiq etmək.<br><br>İş Fəaliyyət Strategiyasının yerinə yetirilməsi kontekstində Fəaliyyəti İdarəetmə Qrupunun heyət üzvlərinin vəzifələrinin onların fəaliyyət qiymətləndirmələrində əks olunmasını təmin etmək, o cümlədən BMT-nin Ölkə üzrə İdarə Heyətinin üzvü olan Fəaliyyəti İdarəetmə Qrupunun dəstəyi.<br><br>İdarəçilik üzrə Yüksək səviyyəli İşçi Qrupu tərəfindən təlimat hazırlandıqdan sonra uyğunlaşdırılmış sahəvi səlahiyyətləri tətbiq etmək.<br><br>Ümumi təlim və öyrənmə imkanlarını və heyətin ümumi təlimini (İş Fəaliyyət Strategiyası, keyfiyyətə zəmanət, layihə idarəçiliyi və s.) yaratma və yeni Vahid Proqramın/UNDAF dövriyyəsinin hazırlanmasında BMTİQ-nin standartlaşdırılmış BMT potensiala nəzarət/qiymətləndirməsindən istifadə etmək. | | | Uyğunlaşdırılmış müddəalar hazırlandıqdan sonra yenidən təşkil edilməli olacaq. |
| | **Ümumi audit** | Təşkilatlar arasında daxili audit yanaşmaları | | | Agentliyin xüsusi daxili ofis audit qaydaları. Ölkə üzrə |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | uyğunlaşdırıldıqdan sonra müştərək proqram səylərində iştirak edən BMT təşkilatlarının daxili audit xidmətləri, onlar arasında razılaşdırılmış çərçivəyə uyğun olaraq, auditdə iştirak edən bütün təşkilatlar adından həyata keçiriləcək vahid daxili auditi apara bilərlər.<br><br>Vahid Proqram konteksti çərçivəsində və ayrı-ayrı agentliklərin fərdi iş planlarını/layihə sənədlərini əvəz edən Nəticələr Qrupu səviyyəsində müştərək iş planlarına doğru keçidi nəzərə alaraq, yuxarı rəhbərlik, təşkilatların rəhbərləri və BMT-nin Ölkə üzrə İdarə Heyəti, risk əsasında qimətləndirmənin arxasınca BMT təşkilatlarının daxili audit xidmətləri tərəfindən aparılan ölkə səviyyəsində vahid müştərək illik iş planlarına dəstək göstərəcəklər. | | | Nümayəndəlik səviyyəsində dəyişikliklər mümkün görünmür.<br><br>**BMTİP** bütün agentliklər üçün açıq olan Kənar Layihə Auditi üzrə UMS imzalamışdır. |
| | **Ümumi maliyyə** | Ümumi bank əməliyyatları; ümumi bank və/və ya bank hesabı<br><br>Atlas vasitəsilə ümumi ödəmə dövrü və ödəmə fondu<br><br>Atlas vasitəsilə ümumi vauçer prosesi.<br><br>Bütün əməliyyatlar üçün vahid maliyyə departamenti (BMTİP) | Atlas və qeyri-Atlas agentliklər üçün BMTİP-nin bank hesabı və maliyyə sistemi | | Agentliklər fərqli sistemlərdən istifadə edirlər (ATLAS, GMS və s.) |
| | **Nağd Vəsaitlərin Köçürülməsinə Uyğunlaşdırılmış Yanaşma (Harmonised Approach to Cash Transfer (HACT))** | Vahid Proqram hazırlama konteksti çərçivəsində və hansı potensiala ehtiyac duyulduğunu müəyyənləşdirərkən, xərclər baxımından effektiv şəkildə vəsaitlərdən düzgün istifadə olunacağına zəmanət almaq məqsədi ilə agentliklər riskləri qiymətləndirmək, nağd vəsaitləri köçürmək və tərəfdaşların potensialını artırmaq üçün vahid uyğunlaşdırılmış yanaşmadan istifadə edəcəklər. | | | 2015-ci ilin əvvəllərində **UNICEF** HACT-in tətbiqi üzrə mikroqiymətləndirmə aparacaqdır.<br><br>**BMTİP** və bir sıra agentliklər, agentliyin layihələri birbaşa yerinə yetirdiyi və bütün ödənişlər üzrə icra sisteminə malik olduğu, yəni qrant və kreditlər vasitəsilə işləmədikləri NİM-in icrasına |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | HACT tətbiq edən agentliklər icraçı tərəfdaşlara nağd ödənişləri idarə etmək və hesabatvermə üçün müstəsna vasitə kimi HACT çərçivəsi ilə tövsiyə olunan alətlərdən istifadə edəcəklər. | | | dəstək göstərir. |
| | **Ümumi ofislər** | Kənar hallar, o cümlədən təhlükəsizlik məsələləri imkan verdiyi hallarda BMT agentlikləri belə tədbirlər məsrəf baxımından səmərəli olduğu qədər milli və yerli səviyyələrdə ümumi ofislərdə fəaliyyət göstərəcəklər.<br><br>Keçid dövrünü yaşayan ölkələrdə, xüsusən də BMT missiyası olan ölkələrdə, milli və yerli səviyyələrdə ümumi ofislərin təsis olunmasında təhlükəsizlik problemləri, habelə missiya ilə bir yerdə yerləşmənin mümkünlüyü nəzərə alınmalıdır. | **BMT iqamətgahında yerləşən agentliklər UNICEF-UNFPA-BƏT BMTQAK-OHCHR**<br><br>**BMT iqamətgahının təhlükəsizlik sistemi BMQAK-OHCHR ofis təhlükəsizliyi** | | **UNFPA** 2015-ci ilin mart ayında BMT-nin iqamətgahına köçmüşdür. |

## Vahid Məlumatlanma və Ünsiyyət

UNAPF yardım paradiqmasından diqqətin əməkdaşlığa və tərəfdaşlığa yönəldilməsinə keçid alaraq, BMT-nin Ölkə üzrə İdarə Heyəti *'Azərbaycan-2020: gələcəyə baxış'* İnkişaf Konsepsiyası, 2015-ci ildən sonrakı inkişaf proqramı, beynəlxalq səviyyədə razılaşdırılmış məqsəd və öhdəliklərə doğru əhəmiyyətli irəliləyişə nail olmaq üçün üç strateji sahə altında özünün müqayisəli üstünlüklərini tətbiq etməyə imkan yaradacaqdır.

2015-ci ildə Birləşmiş Millətlər Təşkilatının Məlumatlanma və Ünsiyyət Qrupu BMT-nin Ölkə üzrə İdarə Heyətinin rəhbərliyi altında və Rezident Əlaqələndiricinin heyətinin dəstəyi ilə UNAPF prioritetlərinə uyğunlaşdırılmalı olan 2016 – 2020-ci illər üçün UNCT-nin Məlumatlanma və Ünsiyyət Strategiyasını işləyib hazırlayacaqdır. Strateji daxili və xarici əlaqə səyləri Azərbaycanda Birləşmiş Millətlər Təşkilatının proqramlarına və inkişafla bağlı nəticələrə dair məlumatları artırmaq üçün milli tərəfdaşlara, geniş tərkibdə tərəfdaşlara və ümumi əhaliyə yönəldiləcəkdir.

Birləşmiş Millətlər Təşkilatının Məlumatlanma və Ünsiyyət Qrupu informasiya mübadiləsini yüksəltmək, UNAPF ilə bağlı əlaqələr və BMT günlərinin qeyd olunması üçün müştərək tədbirlər arasında əlaqələri gücləndirmək məqsədi ilə müştərək əlaqələrə dəstək mərkəzi kimi UNCT-nin əlaqə tədbirlərinə dəstək göstərmək üçün BMT-nin Ölkə üzrə İdarə Heyətinin rəhbərliyi altında və UNAPF-nin Nəticə Qrupları ilə sıx işləyəcəkdir.

Birləşmiş Millətlər Təşkilatı, ümumi kəsişən məsələlər də daxil olmaqla, Azərbaycan üçün çox mühüm və aidiyyəti problemlər üzrə güclü ümumi təşviqat yanaşması və Birləşmiş Millətlər Təşkilatının aydın mövqeyi ilə, əsas inkişaf və siyasət məsələləri üzrə tərəfdaşlarla və kütləvi informasiya vasitələri ilə "vahid səslə danışacaqdır". Bu, öz növbəsində, digər prioritetlərlə yanaşı, dayanıqlı inkişaf və 2015-ci ildən sonrakı inkişaf məqsədləri, gender bərabərliyi, qadınların səlahiyyətlərinin genişləndirilməsi, gənclərlə bağlı məsələlər, insan hüquqları və əlilliyin əsas məsələlərə daxil edilməsi üçün Birləşmiş Millətlər Təşkilatı tərəfindən ümumi təşviqatın daha əlaqəli şəkildə olmasını təmin etməyə kömək edəcəkdir.

# 4-cü Əlavə: UNAPF üzrə İstiqamətləndirici Komitənin səlahiyyət dairəsi

UNAPF üzrə yüksək-səviyyəli İstiqamətləndirici Komitəyə Azərbaycan Respublikasının iqtisadiyyat naziri və BMT-nin Rezident Əlaqələndiricisi sədrlik edəcək və bu qurum yuxarı vəzifəli hökumət işçilərindən, o cümlədən *'Azərbaycan-2020: gələcəyə baxış'* İnkişaf Konsepsiyası üzrə Milli Fəaliyyət Qrupunun üzvlərindən, habelə Birləşmiş Millətlər Təşkilatı agentliklərinin rəhbərlərindən, inkişaf tərəfdaşlarından və digər maraqlı tərəflərdən ibarət olacaqdır.

İstiqamətləndirici Komitə 2016 – 2020-ci illər üçün UNAPF-nin işlənlib hazırlanması, yekunlaşdırılması və yerinə yetirilməsi işini istiqamətləndirəcəkdir.

**(I) UNAPF-nin hazırlanması və yekunlaşdırılması mərhələsində rollar və vəzifələr:**

1. UNAPF-nin hazırlanması prosesini əlaqələndirmək və istiqamət vermək;
2. Təmsilçiliyi və məzmuna diqqət yetirməni təmin etmək üçün UNAPF Nəticə Qruplarının və Monitorinq və Qiymətləndirmə Qrupunun səlahiyyətlərini təsdiq etmək;
3. UNAPF-ni yerinə yetirmək üçün tələb olunan təklif edilmiş maliyyə vəsaitlərinə dair razılıq əldə etmək;
4. Yekun UNAPF sənədini, o cümlədən monitorinq və qiymətləndirmə çərçivəsini nəzərdən keçirmək və qəbul etmək.

**(II) UNAPF-nin yerinə yetirilmə mərhələsində rollar və vəzifələr**

2016-cı ildə UNAPF üzrə İstiqamətləndirici Komitə strateji səviyyədə UNAPF-nin yerinə yetirilmə prosesinə effektiv rəhbərliyin həyata keçirilməsinə və ümumi dəstəyə görə cavabdeh olan yüksək səviyyəli nəzarət qurumuna çevriləcəkdir.

Komitə xüsusilə aşağıdakıları edəcəkdir:

- Strateji istiqaməti, ümumi maliyyələşmə prioritetlərini nəzərən keçirmək və təsdiq etmək;
- UNAPF məqsədlərinə nailolma istiqamətində irəliləyişə nəzərə almaq üçün ən azı bir dəfə illik toplantı keçirmək;
- Müəyyən olunmuş bütün əməkdaşlıq sahələrində UNAPF məqsədlərinə nail olmaq üçün tələb olunan strategiyalara, icra üsullarına və əlaqələndirmə mexanizmlərinə diqqət yetirilərək UNAPF-nin İllik İcmal hesabatını təsdiq etmək.